www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 iyun 2015-ci il Bazar ertəsi № 117 (6145) Qiyməti 40 qəpik

**Xəbər**

## Rəsulzadənin Gəncədəki abidəsi ilə bağlı qalmaqal böyüyür

yazısı səh.3-də

**Gündəm**

### 5 yaşlı qızın qətli ölüm hökmünü təzədən gündəmə gətirdi



Qatı cinayətkara ən yüksək cəzanı tətbiq etmək təklifinə ekspertlərin, siyasilərin və psixoloqun fərqli yanaşması var...

yazısı səh.10-da

### Tofiq Yaqublu bu gün qızının qırx mərasiminə buraxılacaqmı?

yazısı səh.3-də

### Qarabağ məsələsi Ukraynadakı böhranın girovuna çevrilir

yazısı səh.9-da

### Müxalifətin ABŞ hakimiyyətindəki "adamı"

yazısı səh.6-da

### Seçki ilinin beş ayı: manatın devalvasiyasından oliqarx həbslərinə doğru...

yazısı səh.5-də

*Çingiz Qənizadə:*

### "Bu kimi hərəkətlər öz başlarında çatlayacaq"

yazısı səh.7-də

### Türkiyə həlledici seçki həftəsinə girdi - favorit kimdi?

yazısı səh.12-də

### Milli Şura Bakıda mitinq keçirdi

yazısı səh.4-də

### FİFA seçkilərində dünya ölkələri üz-üzə gəldi

yazısı səh.11-də

### Yanan binanı təmir edən şirkət dəyişdirildi

yazısı səh.13-də

### ABŞ vitse-prezidentinin oğlu xərçəngdən öldü

yazısı səh.8-də

### Ölkədə dondurmaların əksəri quru süddən hazırlanır

yazısı səh.14-də

## Putinin generalından sözəbaxmaz ölkələrə ismarış

# RUSİYADAN AZƏRBAYCANA VƏ "YAXIN XARİC"Ə İŞĞAL ANONSU

Rusiya "dünyanın istənilən nöqtəsi"nə müdaxilə edə biləcək xüsusi qoşun növü yaradır; yeni qruplaşmanın komandanı, Gürcüstana qarşı "5 günlük müharibə"nin qəhrəmanı: "Bizə viza lazım deyil, Ali Baş Komandanın əmri kifayətdir..."




yazısı səh.8-də

## İcra başçısının avtoş bacısı oğlu Qarabağ veteranını ölümünə döydürüb

Göyçayın rəhbəri Mübariz Ağayevin yaxın qohumu idmançı dostları ilə birləşib rayon sakini Vüqar Musəvini xəstəxanalıq edib; zərərçəkənin ölüm ayağında olduğu deyilir...

yazısı səh.10-da



### Pənah Hüseyn Müsavatla yollarını ayırıb?

yazısı səh.4-də



### Saakaşvilinin qubernator təyinatının arxasında Azərbaycan amili

yazısı səh.12-də



*Mirmahmud Mirəlioğlu:*

### "Hər kəsdən öz çapına, damarına görə qan alırlar"

yazısı səh.3-də

# 1 iyun 2015



## Leyla və Emin: “Biz dost olaraq qalırıq...”

**Prezident İlham Əliyevin böyük qızı, ictimai xadim Leyla Əliyeva və həyat yoldaşı Emin Ağalarov birlikdə boşanma qərarını veriblər. Anspress-in məlumatına görə, bu barədə ilk olaraq xanım Əliyeva sosial şəbəkədə bəyan edib.**

Leyla Əliyeva Emin Ağalarovla nikahını pozmaq qərarına gəldiyini bildirib: “Azərbaycanda bir çoxları üçün sirr deyil ki, Eminlə nikahımız son illər formal xarakter daşıyır. Biz artıq çoxdan ayrı və müxtəlif şəhərlərdə yaşayırıq. Boşanmağımızı rəsmiləşdirməyin vaxtı çatıb və mən nikahımızı pozmaq qərarına gəldim. Biz dost olaraq qalırıq”.



## Müharibə çağırışı edən QAT-da mühüm dəyişiklik

### Bir səhra komandiri, bir polkovnik, üç Qarabağ döyüşçüsü QAT rəhbərliyinə seçildi

**Qarabağ Azadlıq Təşkilatı (QAT) Ali Məclisinin toplantısı keçirilib. İclasa QAT Ağsaqqallar Şurasının üzvü Nadir Ağayev sədrlik edib. Əvvəlcə dövlət himni oxunub, şəhidlərin xatirəsi yad edilib. Sonra təşkilati məsələlərə baxılıb.**

Qarabağ döyüşçüləri Murad Məhərrəmli, İlham Əbilov, Fəxrəddin Alıyev, ehtiyatda olan polkovnik Yusuf Cəfərov, jurnalist Sevinc Axundova Ali Məclisə, bir müddət mühacirətdə olaraq Vətənə qayıtmış Barat İmani, səhra komandiri Qələndər İsmayılov İdarə heyətinə üzv seçiliblər.

Daha sonra QAT sədri Akif Nağı geniş məruzə ilə çıxış edib. Məruzə ətrafında Qələndar İsmayılov, Nəsib Cəfərov, Cəfər Həşimov, Mahirə Muradova, Tahir Məmmədli, Elxan Rəhimli və digərləri çıxış ediblər. Müzakirə olunan məsələlərlə bağlı qərarlar qəbul olunub. İki məsələ ilə bağlı ayrıca sənəd qəbul edilib.

QAT mətbuat xidmətinin məlumatına görə, erməni idmançılarının Bakıya gözlənilən səfəri ilə bağlı qəbul olunmuş bəyanatda vurğulanır: “İstənilən erməni nümayəndəsinin, o cümlədən erməni idmançısının Bakıda tədbirə qatılması adi məsələ deyil. Bu, erməni siyasətinin tərkib hissəsidir. Bu siyasətlə Ermənistan rəhbərliyi və onların havadarları işğal faktını unutdurmağa çalışırlar. Bakıya gələn erməni idmançısı idmançı deyil, terrorçudur, işğalçıdır, işğalçı Ermənistan rejiminin nümayəndəsi, erməni təbliğatının daşıyıcısıdır. Ona görə də onların gəlişinə heç bir halda yol vermək olmaz. Hər kəs bu səfərin qarşısını almaq üçün əlindən gələni etməlidir”.

İclasda erməni idmançılarının Bakıya girişinə imkan verməmək üçün fəaliyyət planı qəbul edilib. Ali Məclisin qəbul etdiyi digər sənəddə isə göstərilir ki, indi Qarabağda müharibəni başlamaq üçün əlverişli şərait yaranıb: “Rusiya çətin durumdadır, başı Ukraynaya qarışıb, Qərbin sanksiyaları ilə bağlı ciddi problemlər yaşayır; Ermənistan Rusiya ilə daha çox yaxınlaşıb, Avrasiya İttifaqına üstünlük verib, ona görə də Qərbin ciddi dəstəyinə ümid edə bilməz. Türkiyə kifayət qədər güclü və iddialıdır, Azərbaycana ciddi dəstək vermək niyyətindədir; İranın sanksiyaların ləğvindən sonra Ermənistanla əlaqələrə ehtiyac yoxdur; Azərbaycan hərbi və iqtisadi cəhətdən güclüdür. Bütün bu amillər müharibəni başlamağı mümkün və vacib edir”.

❑ **Cavid TURAN**

# 28 Mayda əfv verilməməsi geniş müzakirələrə yol açıb

### Müsavat fikirlərində israrlıdır; yaxın günlərdə təşkilat qərarını verəcək; **Arif Hacılı:** “Mövqeyimizi ictimaiyyətə açıqlayacağıq...”

**28 May-Respublika Günü arxada qaldı. Üstündən üç gün keçməsinə baxmayaraq, bu bayramda əfv sərəncamının imzalanmaması hələ də gündəmin əsas müzakirə mövzularından biridir.**



Qeyd edək ki, 1996-cı ildən etibarən 28 Mayda əfv verilmir. Bu isə, insanlarda həm təəccüb, həm də təəssüf doğurur. Hər halda, 10 mayda da əfv verilməmişdi. Avropa Oyunlarına isə sayılı günlər qalır.

Yada salaq ki, Müsavat Partiyası aylar öncə Avropa Oyunları qabağı əfv verilməyəcəyi təqdirdə, yarışmanın açılış mərasimini boykot etməklə bağlı iştirakçı ölkələrə müraciət edəcəyini açıqlamışdı. Müxalif təşkilat hələ də fikirlərində israrlıdır. Belə ki, Müsavat başqanı Arif Hacılı bu məsələdə prinsipial mövqe tutduqlarını bildirdi: “1996-cı ildən sonra Milli İstiqlal Günü münasibətilə əfv verilmir. Bu, çox xoşagəlməz bir siyasi istiqamətin anonsudur. Müsavat Partiyasının bu məsələlərdə mövqeyi prinsipialdır. Siyasi məhbus problemi həll edilməmiş, bu istiqamətdə ciddi addımlar atılmamış hakimiyyətin hər hansı bir dialoq təkliflərində iştirak etməyəcəyimizi bəyan etmişik. Eyni zamanda Müsavat Partiyası əfv olmayacağı təqdirdə, dünya birliyi dövlətlərinə, Avropa siyasi liderlərinə Bakıda keçiriləcək Avropa Oyunlarının açılış törənində iştirak etməməklə bağlı müraciət edəcəyini bildirib. Bu məsələ xeyli dərəcədə əhəmiyyətini itirib. O baxımdan itirib ki, artıq bir sıra Avropa ölkələri rəhbərləri ölkədəki siyasi vəziyyət, siyasi məhbuslar, demokratik islahatların aparılmaması ilə bağlı açılış törənində iştirak etməyəcəklərini bəyan ediblər. Əslinə qalsa, Avropa Oyunlarını ən çox boykot edən hakimiyyətin özü oldu. Bu oyunlarda Azərbaycanın müsbət mənada təbliğ olunması imkanlarını əldən verdi. Oyunlar zamanı əsas müzakirə olunan məsələlər Azərbaycan hakimiyyətinin apardığı daxili və xarici siyasətin tənqidinə yönələcək. Azərbaycanın mənfi imici beynəlxalq birlik qarşısında bir qədər də korlanacaq. Bununla belə, biz bu məsələləri Müsavat Partiyasının bu günlərdə keçiriləcək Divanında müzakirə edib yekun mövqeyimizi ictimaiyyətə açıqlayacağıq”.

❑ **Cavanşir ABBASLI**



## ATƏT sədri İlham Əliyevlə görüşəcək

**Serbiyanın Xarici İşlər naziri və ATƏT-in indiki sədri İvitsa Daçiçin Azərbaycan, Ermənistan və Gürcüstana səfəri başlayır. Səfər zamanı sədr ölkə rəhbərləri və bir sıra rəsmi şəxslərlə, siyasi partiya nümayəndələri ilə görüşəcək.**

Anspress-in məlumatına görə, Daçiç iyunun 1-də prezident İlham Əliyevlə, parlament sədri Oqtay Əsədovla və Xarici İşlər naziri Elmar Məmmədyarovla görüşəcək. Bundan başqa, ATƏT sədrinin bir sıra siyasi partiya təmsilçiləri ilə də görüşəcəyi bildirilir.

Şənbə günü qurumun mətbuat xidmətindən verilən məlumatda həmçinin bildirilir ki, İvitsa Daçiç iyunun 2-də Gürcüstanda, 3-də isə Ermənistanda səfərdə olacaq və ölkələrin prezidentləri və bir sıra rəsmi şəxsləri ilə görüşəcək.

Xatırladaq ki, bir müddət əvvəl ATƏT sədrinin regiona səfər edəcəyi haqqında xəbərlər yayılsa da, səfərin dəqiq vaxtı bəlli deyildi.

## “Məram” prezidentə dəstək kampaniyasına başlayıb

**“Məram” İctimai Birliyi (QHT) Azərbaycan prezidenti İlham Əliyevin ictimaiyyəti mübarizəyə çağırışına cavab olaraq “Prezidentə dəstək verək” kampaniyasına başlayıb.**

QHT kampaniya çərçivəsində “İctimai məkanlarda sanitar-epidemioloji durum, problemlərin həll yolları və təhlükəsizlik qaydalarının təkmilləşdirilməsi” mövzusunda layihə təqdim edib. Layihə ticarət mərkəzlərində sanitar-epidemioloji vəziyyət, mövcud problemlər və onların həlli yollarını, xüsusilə də qida məhsullarının satışı ilə məşğul olan ticarət məntəqələrində sanitar-epidemioloji vəziyyətin daimi ictimai monitorinqini nəzərdə tutur.

“Apardığımız müşahidələr göstərir ki, bu sahəyə cavabdeh qurumlar vəzifələrinin öhdəsindən gələ bilmir. Nəticə etibarilə alış-veriş mərkəzlərindəki antisanitar vəziyyət əhalinin sağlamlığına ciddi təhlükə törədir, bir çox xəstəliklərlə yanaşı, özünü dərhal biruzə verməyən son dərəcədə təhlükəli yoluxucu xəstəliklərin yayılmasına münbit şərait yaradır. Gəldiyimiz qənaət budur ki, ümumilikdə bu sahədə yaranmış olduqca neqativ vəziyyətin aradan qaldırılması üçün bir sıra mütəmadi profilaktik tədbirlərin və islahatların həyata keçirilməsinə ehtiyac var” - press-relizdə deyilir.

QHT bir neçə konkret təkliflə də çıxış edib.

❑ **NURLAN**

## “Elm” tədris mərkəzi
**MAGIC LANGUAGES**
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



## Wi-Fi Azərbaycanın mobil operatorlarının gəlir mənbələrindən olacaq

**Mobil texnologiyalardan istifadə yeni texnoloji trend olacaq. Azərbaycan bu trend vasitəsilə yaxın gələcəkdə hərəkət edəcək. Bunu “Trend”ə “Cisco” şirkətinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Vladimir Orlov deyib.**

Onun sözlərinə görə, ölkədə gözlənilən dəyişikliklər arasında simsiz rabitənin, xüsusilə də Wi-Fi-dan istifadənin əhatə dairəsinin genişlənməsi olacaq ki, bu da sonra operatorların gəlir mənbələrindən biri ola bilər.

V.Orlov bildirib ki, məsələn, “ASAN xidmət”in son istifadəçilərə göstərdiyi servisləri mobil texnologiyalar üzrə əldə etmək olardı: “Bu, vətəndaşlara xidmət göstərmək baxımından səmərəli ola bilər”.

O qeyd edib: “Biz informasiya texnologiyalarının inkişafı və ölkənin İT strategiyasının formalaşması istiqamətində yerli dövlət qurumları ilə qarşılıqlı fəaliyyətə diqqət ayıracağıq. Azərbaycanda İT sahəsinin dinamik inkişafı anlayışı mövcuddur və bu, informasiya cəmiyyətinin inkişafı üzrə ölkə strategiyasında nəzərə alınmalıdır. Məsələn, 3-4 il əvvəl hazırda reallığa çevrilmiş gələcək texnoloji trendləri heç kəs nəzərə ala bilməzdi. Buna görə də yaxın illərdə əsas diqqət "Mobility" və virtuallaşma texnologiyalarına ayrılacaq".

V.Orlovun sözlərinə görə, söhbət ondan gedir ki, vətəndaş “bir toxunuş”la dövlətdən almaq istədiyi xidmətləri əldə edə bilsin.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 117 (6145) 1 iyun 2015



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!

**Cümhuriyyətimizin banisi Məhəmməd Əmin Rəsulzadənin Gəncədəki abidəsinin başına 5 ildir torba keçirilib. Respublika Gününün ildönümündə insanlara ərazini ziyarət etməyə imkan verilməməsi bu məsələnin yenidən gündəmə gəlməsinə səbəb olub.**

# Rəsulzadənin Gəncədəki abidəsi ilə bağlı qalmaqal böyüyür

## Cümhuriyyət qurucusuna hörmətsizliyə ictimai təpki artır; Cahangir Əmirxanlı: "İcra başçısı özbaşınalığa son qoymalıdır..."



Cahangir Əmirxanlı

Artıq sosial şəbəkələrdə və mətbuatda görkəmli dövlət xadiminə olunan hörmətsizlik geniş müzakirə olunur. Məsələ ilə bağlı ən kəskin mövqeyi VHP sədri, deputat Sabir Rüstəmxanlı sərgiləyib. Parlamentin son plenar iclasındakı çıxışı zamanı o, baş verənləri xalqımıza qarşı hörmətsizlik kimi qələmə verib: "Nədən icra başçıları zərrə qədər özlərində məsuliyyət hiss etmirlər. Gəncədə onun əzəmətli bir heykəli olmalıdır. Ancaq biz bunun əksinin şahidi oluruq. Bir büstü var və onun da başına çuval keçirmək düşmənçilikdir. Bu, ABŞ-ın İraqda türk əsgərinin başına çuval keçirməsini xatırladır. Dolayısı ilə millətimizə həqarət edən bir məsələdir. Bizim tariximizə, burada oturan hər bir şəxsə hörmətsizlikdi. Gəncənin icra başçısı Rəsulzadəni düşmən elan edibsə, desin, biz də bilək. Düşmən elan etməyibsə, gedib o çuvalı tarixi şəxsiyyətin başından çıxarsın. Ayıbdır. Bu millətimizin tarixinə və müstəqilliyinin başına çuval keçirməkdir".

Müsavat başqanının Gəncədən olan müşaviri Cahangir Əmirxanlı da bizimlə söhbətdə təmir bəhanəsi ilə 5 ildir ulu öndərin başına torba keçirildiyini dedi: "Bu hal 5 ildir davam edir. Elə bil ki, ətrafdakı restoran onun üzərinə gəlir. Yalandan deyirlər ki, guya Gəncənin icra başçısı heykəli təmir etdirmək üçün bu cür addım atıb. Bir təmir neçə il çəkir ki? Dəfələrlə müraciət etsək də, nəticəsi olmayıb. İki il öncə döyüşmək səviyyəsinə gələcək qarşıdurmamız oldu. Bu özbaşınalığa son qoyulmalıdır. Rəsulzadə haqqında prezidentin qərarı var. Bunlar isə qərarın əksinə gedirlər. Orada qəbiristanlıq var. Bir neçə büst qoyulub, o cümlədən, Rəsulzadənin büstü var. Artıq o büstü də ziyarət etməyə imkan vermirlər. Polis vasitəsilə uzaqlaşdırırlar. Bu kişinin adının hallanmaması, yad edilməməsi üçün Gəncədə bu vəziyyət yaradılıb. Müraciətimizə baxan tapılmır. Hətta İngiltərə, Norveçin səfiri belə gələndə demişik. Mümkün olmur. Bildiklərini edirlər..."

❑ Cavanşir ABBASLI

# Tofiq Yaqublu bu gün qızının qırx mərasiminə buraxılacaqmı?

## Vəkil Penitensiar Xidmətə müraciət edib; məhbus atası əfv verilməməsindən təəssüflənir

**İyunun 1-də saat 13:00-da Müsavat başqanının həbsdəki müavini Tofiq Yaqublunun qızı, mərhum əməkdaşımız Nərgiz Yaqublunun qırx mərasimi keçiriləcək. Vicdan məhbusunun qızının yas mərasimində iştirak etməyi üçün Penitensiar Xidmətə müraciət olunub.**

Bu barədə müsavat.com-a Tofiq Yaqublunun vəkili Nemət Kərimli məlumat verdi: "Məktubla Penitensiar Xidmətə müraciət etdim. Tofiq bəyin qızının yasında iştirak etmək üçün bir-iki günlük azadlığa buraxılması ilə bağlı. Hələ də bir cavab deyilməyib. Çox güman ki, iyunun 1-də məlum olacaq".

Vəkil mayın 29-da Apelyasiya Məhkəməsində hökm qərarı qüvvədə saxlanılan müsavatçı gənc Sirac Kərimli və qardaşı Fərəc Kərimli ilə bağlı da danışdı: "Siracın hökm qərarı qüvvədə saxlanıldı. Ali Məhkəməyə müraciət edəcəyik. Hökmün əsassız olması ilə bağlı. Fərəcin işindən isə apelyasiya şikayəti verilib".



Nərgiz Yaqublu

Müsavat başqanının həbsdəki müavinlərindən daha biri - Yadigar Sadıqov ürəyində yaranan problemlərlə əlaqədar müalicəsini cəzaçəkmə müəssisəsində davam etdirir. Başqan müavininin Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah onunla mütəmadi olaraq əlaqə saxladıqlarını söylədi: "Lazımi dərmanları vaxtında çatdırırıq. Ürəyindəki problemlər artmadan davam edir. Yaxınlarda ailəsi ilə görüşdü. Cəzasının ikidə birini çəkdiyi üçün azadlığa buraxılması ilə bağlı müraciəti rədd edildiyinə görə apelyasiya şikayəti verilib. Məhkəmənin vaxtı hələ məlum deyil. Prosesə hazırlaşır".

NİDA-çı gənc Ömər Məmmədovun atası Əlyar Məmmədov əfv verilməməsindən təəssüfləndiyini dilə gətirdi: "Əfv olacağına çox inanırdıq. Qarşıdan Qurtuluş Günü gəlir. Ola bilsin ki, bu günlə bağlı verilsin. Guya ki, vaxtın çatdırılmamasına görə əfv olmadığını deyirlər. Bu fikirlərə inanmıram. Bəziləri deyir ki, Avropa Oyunlarından qabaq siyasi məhbuslar azad olunsaydı, hakimiyyətin zəifliyi olardı. Amma onları tutmaq hakimiyyətin zəifliyi demək idi. Özü ilə danışırıq. Hər şey normaldır".

❑ Cavanşir ABBASLI

# "Hər kəsdən öz çapına, damarına görə qan alırlar"

## Mirmahmud Mirəlioğlu oliqarxlara qarşı nümayiş etdirilən mərhəmətin niyə siyasi məhbuslara edilmədiyindən danışdı...

**May ayı dövlətin milyonlarla manat pulunu kredit adı altında mənimsəmiş oliqarxların həbs olunması və az sonra azadlığa buraxılması hadisələri ilə yadda qaldı. Uzun müddətdir həbsdə saxlanan siyasilərin may ayında azad olunacağına olan ümidlər isə özünü doğrultmadı. Bu da bir çoxlarında belə rəy yaratdı ki, hakimiyyət siyasi məhbus kimi tanınanları sanki daha təhlükəli sayır.**

KXCP sədri Mirmahmud Mirəlioğlu hesab edir ki, dövlət vəsaitini talan etdikləri deyilən şəxslərin həbs olunub qısa zamanda buraxılması hakimiyyətin öz daxili işidir. Ona görə də istədikləri kimi davranırlar: "Oliqarx deyilən o adamların həbsi başlayanda bizim münasibətimiz belə oldu ki, bu, hakimiyyətin öz daxili işidir, kimi həbs edər, kimi buraxar, özü bilər. Sadə vətəndaşlar, bizlər kiçik məbləğlərdə kreditləri belə ala bilmir. Həmin adamlara isə milyonlarla manat kredit verilib. Odur ki, mən dedim ki, bu işlər hakimiyyətin öz daxili işidir. Kredit vermişdilər, indi də həbs etmək lazım idi, sonra isə azad etmək. O zaman narazı qalanlar oldu ki, bu cür açıqlama verməli olmaz. Çox qısa zamanda sübut olundu ki, bizim açıqlamamız nə qədər reallığı əks etdirirmiş.



Mirmahmud Mirəlioğlu

Bəlli oldu ki, tutulanlardan bir şeylər alıb buraxıblar. Onların özləri də etiraf etdilər ki, "ödədik, buraxdılar". Bilirsiniz, Avropa Oyunları ilə bağlı bütün vətəndaşlarından hər kəsin öz çapına, damarına görə qan alırlar. Siyasi məhbuslar isə bu məsələdən tamamilə məhrumdurlar. Onlardan bac-xərac almaq mümkünsüzdür, onlardan vergi də almaq mümkün deyil, onlara milyonlarla manat kredit də verməyiblər ki, indi tutub alıb buraxalar. Hakimiyyət o oliqarxların ölkə üçün təhlükəli olub-olmağının fərqində deyil. İstədikləri adamları həbs edirlər, istədiklərini də buraxırlar. "Bəs filan məhbuslar niyə azad olunmur, onlar məgər oliqarxlardan təhlükəlidirmi" şəklində deyilənlərə isə əhəmiyyət vermirlər".

❑ E.SEYİDAĞA

# Bu sirli, müəmmalı dünya...



**Hüseynbala SƏLİMOV**

**Həyatda maraqlı şeylər həqiqətən də çox olur. Bir əcnəbi ingilis dili müəllimi vardı. Özü də xristian idi.... Mənim üçün çox maraqlı idi ki, görəsən, ingilis dilində "Allahdan başqa Allah yoxdur, Məhəmməd isə onun peyğəmbəridir!" cümləsi necə olacaq?..**

Az qala hər dərs başlayanda ondan bunu soruşurdum. Amma demirdi ki, demirdi...

Elə bil bu sözləri dilinə gətirməkdən ehtiyat edirdi. Azca biliyim artandan sonra özüm bir təhər bu cümləni ingilis dilinə tərcümə etdim. Ondan bir daha bunun belə olub-olmadığını soruşanda qayıtdı ki, düz tərcümə etmisən, amma yenə də həmin cümləni ingiliscə demədi...

Bundan çox uzağa gedən nəticələr çıxarmaq fikrində deyiləm: dünyada qəribə insanlar azdırmı?.. Amma demokratik ölkələrin birində islam əleyhinə mitinqin keçirildiyini eşidəndə nədənsə bu yadıma düşdü. Belə mitinqlər elə də nadir hadisə deyil. Bəlkə də bədbəxtlik də ondadır ki, bu, nadir hadisə deyil...

Amma mən bu yaşa gəlmişəm, yaşım artıq əllini ötüb, hələ hansısa müsəlman ölkəsində xristianlığa və xristianlara qarşı mitinq keçirilməsi haqda eşitməmişəm. Belə bir şey heç yadıma gəlmir. Əgər olsaydı, biz də bu haqda oxuyar və ya eşidərdik...

Razıyam, din məsələsi bir az qəliz məsələdir. Kimsə deyə bilər ki, xristianlar o səbəbdən islama qarşı etiraz edirlər ki, öz ölkələrində və dünyada onların artımından ehtiyat edirlər. Gəl, bu, mənə o qədər də məntiqli görünmür. Ona görə ki, müsəlmanların artımı başqa səbəblərlə bağlı idi...

Sovetlərin vaxtında Azərbaycanda dörd-beş uşağı olan adama az qala acıyırdılar. Amma indi üç uşaqlı ailələrə belə çox az təsadüf olunur - daha çox bir və ya iki uşaq olur...

Bəlkə də hansısa xristian mərkəzində belə hesab edirlər ki, müsəlmanlar qəsdən demoqrafiyaya diqqət yetirir. Amma bunu düşünmək gülüncdür. Bəli, nə gizlədək? Müsəlman ölkələrinin əksəriyyəti kasıb və patriarxal qaydalarla yaşayan ölkələrdir. Bu ölkələrdə, etiraf etmək lazımdır ki, ümumi tibbin və ya məişət gigiyenasının səviyyəsi çox aşağıdır. Xristianlar isə narahat olur ki, guya müsəlmanlar qəsdən saylarını artırırlar!..

Həm də başqa bir maraqlı bir detal var. Müsəlmanlar arasında dirilərin sayı artır, amma xristianlarda ölülər də çoxalırlar.

Bu günlərdə daha bir maraqlı detal eşitdim. Təsəvvür edin, Belçikada, Avropanın mərkəzində bir türk əsilli düeutatı erməni "genosid"inə şübhə etdiyinə görə partiyadan xaric ediblər...

Elə ölülərin artması məsələsi də bu kontekstdə yadıma düşdü. Ermənilər müxtəlif vaxtlarda müxtəlif ədədlər deyiblər - indi "genosid"ə məruz qalanların sayının az qala milyondan çox olduğunu deyirlər! Halbuki bunların özlərinin sayı hələ indi 3-4 milyon ola, ya olmaya...

Nə etmək olar? Görünür, qəbul etmək lazım gələcək ki, ölülər də doğub-törəyir! Gülməlidir, deyilmi? Özü də görün erməni "genosid"inə şübhə etdiyinə görə insanlar harada təqiblərə məruz qalırlar - Belçikada, Avropanın mərkəzində!..

Mən müsəlman ölkələrini ideallaşdırmıram. Bu ölkələrdə də qeyri-adi, təəccüblü proseslər çox baş verir. Amma xristianlara və xristianlığa görə nəsə təşkil etmək, mitinq keçirmək heç kimin ağlına gəlmir...

Düzdür, bu sətirləri yazarkən İranda etirazları göstərirdilər. İranlılar ABŞ-ın və İsrailin bayrağını yandırırdılar...

Bunu da qətiyyən təqdir etmirik, çünki bayraq hansısa bir hökumətə, bir kabinetə və yaxud siyasətçilər dəstəsinə məxsus deyil, bayraq millətindir, onu yandırmağa dəyməz. Amma bunu yenə də Avropa və digər Qərb ölkələrində islama qarşı keçirilən etiraz aksiyaları ilə müqayisə etmək olmur, çünki Şərqdəki etirazlar sırf siyasi xarakter daşıyır və hansısa rejimin və ya dövlətin yürütdüyü siyasətə qarşı olur...

Elə bu səbəbdən da baxıb görürsən ki, əslində ekstremizm, ksenofobiya bir coğrafiyaya, bir ölkəyə, bir dinə aid məsələ deyil... Dünya çox sirlidir, müəmmalıdır, nəyin təşkil olunmuş olduğunu, nəyin isə spontan şəkildə baş verdiyini demək çətindir...

Əvvəldə kiçik bir detalı xatırlatdım. O, haradasa simvolikdir. Biz xristian peyğəmbəri İsanı peyğəmbər kimi qəbul edir və ona böyük ehtiramla yanaşırıq, çünki müqəddəs Quranda onunla bağlı hətta surə də var. Amma gəl, xristian dünyası bunu Məhəmməd peyğəmbərlə bağlı etmir...

Üstəlik, belə sadə həqiqəti də qəbul etmirlər ki, bəzən özlərinin psevdo-liberal dəyərlərilə bilərəkdən, yaxud da bilməyərəkdən təxminən bir milyard insanın heysiyyatı ilə oynayırlar...

YENİ MÜSAVAT
N 117 (6145) 1 iyun 2015

# Sarı xətt işgəncəsi



Samir SARI

**Dünən guya ki, istirahət günüydü və guya ki, prinsipcə, adətən, təbii olaraq, yollar boş olmalıydı. Əslində boş idi də. Amma yollarda tıxac vardı.**

Boş yolda tıxac olması faktı yəqin ki, dünya nəqliyyat sistemində analoqu olmayan yenilikdir və bu yeniliyi dünyaya Azərbaycan bəxş edib. Ləngimədən qürur duyaq.

Doğrudan da eləydi, yolların sol tərəfi bomboş idi, amma sağ tərəfində təxminən 2-3 kilometr boyunca avtomobillər ard-arda düzülmüşdülər, piyada yeriyən axsaq adam sürəti ilə hərəkət edirdilər.

Çünki ortada sarı xətt vardı. Başqa vaxt altı hündür ciplər ilə 30-40 sm-lik beton maneənin üstündən aşıb qarşı yola çıxan və heç nəyə (kameraya, radara), heç kimə (YPX əməkdaşlarına) məhəl qoymadan yoluna davam edən "blatnoy" sürücülər də quzu kimi dalbadal gedirdilər. Heç kəs sarı xətti keçmirdi.

Düzdür, arada hirslənib sarı xətti keçən və boş yolla şütüyüb 5-6 yüz metr gedən bir cip oldu, amma onun ardınca təxminən 1975-ci il buraxılışı olan cırıq "Jiquli"dən başqa heç kəs getmədi. O gedənlər də müşahidə kamerasını görüncə tez sağa burulub, cərgəyə girdilər.

Sarı xəttin zəhmi böyükdür. Cəriməsi var. Zəng eləməyə də kimsə olmur.

Əvvəllər ağ xətt deyilən bir şey vardı, deyirdilər, onu tapdamaq olmaz. Hətta ağ qoşa xətti kəsib keçmək qətl törətmək kimi bir şey idi, cəzası ağır olurdu.

Ancaq bir neçə ildir ki, ölkədə hamı qırmızı xəttdən danışır. Bu, məcazi termindir. Bundan əsasən siyasətçilər, diplomatlar istifadə edir. Məsələn, bir də görürsən, bir siyasətçi bəyan edir ki, fəal üzvümüzün şərlənib tutulması bizim üçün qırmızı xəttdir, gərək hökumət bu xətti keçməsin.

Yaxud, olur ki, dövləti idarə edənlərdən biri deyir ki, əcnəbilərin işğal altında olan Qarabağa icazəsiz gəlmələri bizim üçün qırmızı xəttdir, bu xətti keçəni tutub "arzuolunmaz şəxslər" siyahısına salarıq. (Düzdür, sonra o adamı o siyahıdan çıxarırlar, amma bizdə qırmızı xətti keçəni siyahıya salmaq ənənəsi var).

Hətta arada sözləri çəpləşən tanınmış adamlar olur, bir-birinin qırmızı xətt elan etdikləri cizgini o tərəfə-bu tərəfə elə keçirlər ki, adam deyir, bitdi, indi o qırmızı xətt qan şırnağı ilə çəkiləcək. Amma harda? İki aydan sonra onları öpüşüb-barışıb selfie çəkdirən yerdə görürsən.

Ancaq bu məsələni qatlayıb qoyaq qırağa, təcili şəkildə keçək sarı xəttin sağ tərəfinə, sol tərəfi xətalıdır.

Hazırda qırmızı xətti keçməkdən qorxan yoxdur, əsas sarı xəttdir.

Açığı, heç kim təsəvvür etmirdi ki, belə bir şey olar, 21-ci əsrin 15-ci ilində insanlara sarı xətt işgəncəsi verərlər.

Avropa Oyunlarının 2015-ci ildə Bakıda keçirilməsinə dair ilk xəbər çoxlarını sevindirmişdi, amma heç kəs güman etmirdi ki, Avropa Oyunlarının sarı xətti onlar üçün elə bir qırmızı xəttə dönəcək ki, bundansa ağ qoşa xəttin üstündən dönüb geri qayıtmaq daha əfzəl olacaq.

Heç onu da bilən yoxdur ki, oyunlara 15 gün qalmış bu sarı xətt yasağını tətbiq etmək nədən vacib oldu.

Təsəvvür edin, gecə saat 12-dir, sarı xəttin o üzü boşdur, bu üzündə kilometrlərcə tıxac var, bir YPX işçisi çıxıb demir ki, ey hörmətli həmvətənlər, bu tərəflə gedə bilərsiniz. Hətta o dəmdə yol polisi zabiti desə ki, ey sürücülər, cəhənnəm olun, sarı xəttin hər iki tərəfi ilə sürün gedin, heç kim ona qaba danışığa görə irad tutmaz, əksinə, alqış edərlər. Amma onlar da həmin boş yolla özləri sürüb gedirlər - tıxacda işgəncə çəkən sürücülərə "sizə bu da azdır" ədası ilə baxa-baxa.

Avropalı idmançılar isə sarı xəttin sol tərəfi ilə hələ 10 gündən sonra gedəcəklər. Bu 10 gündə sarı xəttin bu üzündə nə qədər adamın gözünün kökü saralacaq, nə qədəri infarkt keçirəcək, neçəsi işə gecikəcək, müdirin qabağında sarala-sarala danlaq dinləyəcək və sair və ilaxır.

Ən pisi odur ki, bu sarı xəttə görə avropalıları üstümüzə güldürəcəyik. Onlar o boş yolda şütüyüb gedərkən, tıxacda qalan və sifətindən zəhrimar tökülən yerli sürücülərə rişxəndlə baxacaqlar.

Rəsmən benqallara dönəcəyik. Onlar batan bərələrdə qırılırlar, biz sarı xəttin tıxaclarında qırılacağıq.

***P.S.** 15 ildə ilk dəfədir ki, müəllifin özü imzasının ikinci hissəsindən zəhlə gedir.*

# Pənah Hüseyn Müsavatla yollarını ayırıb?

## AXP sədri 28 May-Respublika Günündə Novxanıda ortaya çıxan mənzərəni qiymətləndirdi

**Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması günü münasibətilə müxalifət düşərgəsi ənənəvi olaraq cümhuriyyətin qurucusu Məhəmməd Əmin Rəsulzadənin doğulduğu Novxanı kəndində onun abidəsi önündə bayram tədbiri keçirdi.**



Diqqəti cəlb edən xoşagəlməz məqamlardan biri siyasi qüvvələrin bu cür mühüm tarixi gündə də bir araya gələ bilməməsi, Rəsulzadənin heykəli önündə tədbirlərini faktiki olaraq növbə ilə keçirməsi oldu. Müxalifətin həmin gün üç qütbə bölündüyü açıq göründü: Müsavat Partiyası, Milli Şura, "Azadlıq-2015" seçki bloku.

Bayram günü Novxanıda daha bir öyrəşdiyimiz ənənənin pozulduğu müşahidə edildi. Belə ki, illərdir Novxanıda keçirilən tədbirlərdə Müsavat Partiyası ilə birlikdə Rəsulzadənin abidəsi önündə görünən, çıxış edən Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyni bu dəfə başqa cinahda - "Azadlıq-2015" blokunun keçirdiyi tədbirdə gördük.

Hər iki müşahidə edilən məqamla bağlı Pənah Hüseynlə danışdıq.

Pənah Hüseyn bildirdi ki, prinsip etibarilə normal situasiyada hər bir təşkilat belə tədbirə ayrıca getsə yaxşıdır: "Amma indiki vəziyyət birgə hərəkət tələb etdiyi üçün hamının birlikdə bu cür tədbirlərdə iştirakı məqbul sayılır. Normal demokratik situasiya olsa, müxtəlif təşkilatların Rəsulzadənin abidəsini ayrılıqda ziyarət eləməsi təəccüblü olmaz. Əslində normalda belə olur. Amma hal-hazırda ölkədəki vəziyyət siyasi partiyaların Respublika Günü kimi mühüm tarixi günlərdə birgə tədbirdə iştirakını tələb edir. Birgə ziyarət ənənəsinin pozulması da ictimai rəydə geriyə doğru addım kimi qəbul olunur. Reallıq bundan ibarətdir. Amma hesab eləmirəm ki, əsas problem budur. Ümumiyyətlə isə demokratik düşərgənin əsas siyasi müxalifət olmayan hissəsinin bu məsələlərdə götür-qoy edib addımlar atmasına ciddi zərurət var ki, ölkədə demokratik dəyişikliklər prosesinə təkan verilsin. Mənim Müsavat Partiyası ilə birlikdə deyil, "Azadlıq-2015" bloku ilə Novxanıdakı bayram tədbirinə qatılmağıma gəlincə, rəhbərlik etdiyim partiya bu blokun üzvüdür, tədbirin yerini, vaxtını öncədən razılaşmışdıq. Ona görə də blokla birlikdə iştirak etməməyim yaxşı görünməzdi. Həmin gün AXP sədrinin birinci müavini Qiyas Sadıqov Müsavat Partiyası ilə birlikdə tədbirdə iştirak edirdi. Müsavatdan dəvət eləmişdilər. Məsələ belə olub".



Pənah Hüseyn

"Sizin özünüzün şəxsən Müsavatın keçirdiyi tədbirdə iştirak etməməyiniz Müsavatla münasibətlərin pozulması və ya soyuması kimi qəbul edilə bilərmi" sualına isə P.Hüseyn belə cavab verdi: "Biz bu gün "Azadlıq-2015" seçki bloku çərçivəsində birləşmiş partiyalarla əməkdaşlıq edirik. Bu - ancaq bunun göstəricisidir".

❑ Etibar SEYİDAĞA

# Milli Şura mitinq keçirdi

## Aksiyada hakimiyyət tənqid olundu; iki nəfər saxlanıldı

**Milli Şura mayın 30-da "Məhsul" stadionunda mitinq keçirib. Musavat.com xəbər verir ki, müxalifət fəalları, "Xilas olaq!", "Talana və yalana son" şüarları ilə keçirilən aksiya iştirakçıları ölkədə siyasi repressiyalara, korrupsiyaya, bahalaşmaya etiraz ediblər.**

MŞ-nin mitinqi Azərbaycanın dövlət himninin səsləndirilməsi ilə başladı. Daha sonra mayın 19-da Binəqədi rayonunda baş verən dəhşətli və faciəvi yanğın olayının qurbanlarının, mərhum müsavatçı gənc Nərgiz Yaqublunun, intihar etmiş Qarabağ qazisinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Çıxış edən AXCP sədri Əli Kərimli mitinqdə insanların az olmasının səbəbini hakimiyyətin aksiyaya maneçilik törətməsi ilə izah etdi.

Onun çıxışı zamanı aksiya iştirakçıları "istefa" tələbləri səsləndiriblər.

Daha sonra AXCP sədri binaların yanmasına səbəb olan penoplastların yanğın təhlükəsi daşıdığından hakimiyyət adamlarının əvvəlcədən xəbərdar olduqlarını, ancaq onların xalqın taleyinə laqeyd yanaşdığını bildirib, bunu məsuliyyətsizlik adlandırıb.

Tribunada çıxış edənlər arasında "Azadlıq" qəzetinin baş redaktor müavini Rahim Hacıyev də olub. R.Hacıyev haqsızlıqdan danışıb, bütün baş verənlərə hakimiyyətin səbəbkar olduğunu bildirib, ölkədə ədalətli məhkəmə olmadığını deyib.

Növbəti çıxış edən hazırda həbsdə olan AXCP Gənclər Komitəsinin üzvü Elvin Abdullayevin anası oldu: "Məhkəmə Elvinin əqidəsindən dönməsini istəyir. Oğlumu şərləyib həbs ediblər. Mənim oğlum gələcək tarixçidir. Sizə tarixçi lazım deyil? Gəncləri manqurtlaşdırmaq, savadsızlıq sizin siyasətinizdir".

Daha sonra çıxış üçün söz Milli Şuranın sədri Cəmil Həsənliyə verilib. C.Həsənli ölkədə yaranmış vəziyyətə görə hakimiyyəti ittiham edib və bildirib ki, bu hakimiyyət neftdən gələn milyardları sağa-sola səpələdiyi halda, Qarabağ qazilərinin maddi rifahının qayğısına qalmır və onlar özlərini yandıraraq öldürürlər.

C.Həsənli hərbi hissələrdə döyülərək öldürülmüş gənc əsgərdən də bəhs edib, onun anasının mediada, sosial şəbəkədə yayılan fəryadından danışıb.

C.Həsənli də 19 mayda baş vermiş yanğına görə hakimiyyətə ittihamlar səsləndirib.

O, ölkə əhalisinin böyük hissəsinin banklara borclu olduğunu bildirib və qeyd edib ki, bütün banklar ölkəni idarə edənlərə məxsusdur, onlar bilərəkdən insanları iqtisadi asılılıqda saxlayır.

Sonda mitinqin qətnaməsi oxunub. Qətnamədə siyasi məhbuslara azadlıq tələb edilib.

Mitinq başa çatandan sonra polislər iki nəfəri saxlayıb. Saxlanılanlar PPX maşınına oturdularaq polis bölməsinə aparılıblar. Jurnalistlərin "bu şəxsləri niyə saxlamısınız" sualları cavabsız qalıb. Sonradan məlum olub ki, saxlanılanlardan biri mitinq zamanı qaldırdığı plakata görə, digər şəxs isə birincinin saxlanılmasına etiraz etdiyi üçün tutulub.

❑ Məhəmməd Türkmən
Fotolar müəllifindir.











YENİ MÜSAVAT
N 117 (6145) 1 iyun 2015

# Seçki ilinin 5 ayı: manatın devalvasiyasından oliqarx həbslərinə doğru...

## Ekspertlər bildirirlər ki, inflyasiya basqısı gələn ay getdikcə daha artıq hiss ediləcək, oliqarxların həbsi isə növbəti mərhələdə maraqlı hadisələrin baş verəcəyinin işartısıdır...

**2015-ci ilin artıq beş ayı arxada qalıb. Ölkə üçün bu ayların siyasi və iqtisadi yekunları ürəkaçan deyil. Fevral ayında baş verən devalvasiya, həmçinin neftin qiymətinin ucuzlaşması əsas məqamlardır. Üstəlik, may ayında oliqarxların, onlara yaxın məmurların həbsi də gündəmi tündləşdirir. Ekspertlərin fikrincə, bu hadisələrin ölkə iqtisadiyyatına təsiri uzunmüddətli olacaq.**




İqtisadçı ekspert Natiq Cəfərlinin sözlərinə görə, 2015-ci ilin beş ayının ən vacib iqtisadi hadisəsi manatın kəskin və qəfil ucuzlaşmasıdır: "Fevral ayında olan devalvasiya, Mərkəzi Bankın manatın kursunu kəskin endirməsi, 35 faizə yaxın ucuzlaşma ən vacib hadisələrdən biridir. Yaxın gələcəkdə də Azərbaycana və onun iqtisadi göstəricilərinə, iqtisadiyyatına ən çox təsir edən amil məhz bu olacaq. İkinci amil Azərbaycanın ən böyük gəlir mənbəyi olan neftin qiymətinin ucuzlaşmasıdır. Başqa sahələrdə ixracat potensialımız çox zəif olduğundan, ixracatımızın az qala 90-95 faizini neft, neft məhsulları və qaz təşkil edir. Bu səbəbdən də neftin qiymətinin düşməsi ikinci vacib hadisədir. Aşağı qiymətlərin uzunmüddətli olması ehtimalı yüksək olduğundan, bu, ən vacib hadisələrdən biri kimi göstərilə bilər".

Ekspertin sözlərinə görə, üçüncü vacib hadisə isə bunların ikisinin təsiri ilə yaranmış inflyasiya basqısıdır: "Bu, qiymət artımı basqısıdır ki, yaxın gələcəkdə biz bunu daha ciddi hiss edəcəyik. Azərbaycanda çox kəskin inflyasiya prosesləri bu il ərzində gözlənilir. İnflyasiyanın ikirəqəmli olması ehtimalı çox yüksəkdir. Bu məsələlərin fonunda iqtisadiyyatda olan digər xroniki xəstəliklərin getdikcə daha çox üzə çıxması, özünü büruzə verməsi gözlənilir".

O qeyd edib ki, gələcəkdə də devalvasiyanın, neftin qiymətlərinin təsirləri mütləq olacaq: "Hələ Azərbaycan iqtisadiyyatı devalvasiyanı həzm etməyib. Nə iqtisadi qurumlar, nə əhali nə baş verdiyini tam dərk etməyib. Amma devalvasiyanın gələcəkdə iqtisadiyyatda həzm edilməsi daha ağrılı və sancılı bir proses olacaq. Getdikcə bu proses özünü qabarıq büruzə verəcək. İqtisadi aktivliyin azalması isə təbii ki, iş yerlərinin azalması, ixtisarların artması, büdcə xərcləmələrinin azalması ilə müşahidə olunacaq. Bunların hamısı - həm inflyasiya basqısı, həm iş yerlərinin itirilməsi, ümumiyyətlə, sosial gərginliyi artıracaq əsas amillərdən biridir".

N.Cəfərlinin sözlərinə görə, daha bir vacib və yaddaqalan məqam may ayında Beynəlxalq Bankla bağlı həbslərdir: "Beynəlxalq Bankla bağlı iri oliqarxların, oloqarxik çevrələrə yaxın biznes adamlarının, iş adamlarının həbsini göstərmək olar. Bu, çox vacib və önəmli bir hadisədir. Çünki tək Azərbaycanın indiki iqtisadi durumunda bank sistemində, ümumiyyətlə işgüzar sferada olan fəaliyyətlərlə bağlı deyil. Bu həm də Azərbaycanda yaxın gələcəkdə hansı hadisələrin ola biləcəyinin bir işartısı idi. Çünki onsuz da Azərbaycanda iş mühiti, biznes mühiti o qədər də yaxşı deyil. Bunu bütün beynəlxalq təşkilatlar da hesabatlarında qeyd edirlər. Məhkəmələrin müstəqil olmaması, mülkiyyət hüququnun toxunulmazlığına Azərbaycanda riayət olunmaması, bütün bunlar biznes mühitini onsuz da korlayıb. Bu biznesmenlərin, iş adamlarının həbsi, bu işlərlə əlaqəsi olmayan, Beynəlxalq Bankla əlaqəsi olmayan, ümumiyyətlə bu şirkətlərlə əlaqəsi olmayan orta və kiçik biznes sferalarını, biznes sahələrini də bir növ qorxutdu. Azərbaycandan gələcəkdə bu hadisələrlə əlaqədar kapital axınının sürətlənməsi prosesinin şahidi ola bilərik. Çünki biznesmenlər belə qeyri-müəyyən mühitdə öz kapitalını və öz vəsaitlərini qorumağa çalışacaqlar. Buna görə bu həbslər tək may ayında deyil, gələcək aylarda da Azərbaycanın iqtisadi, hətta siyasi həyatına təsir göstərə biləcək amillərdəndir".



Ekspert Natiq Miri isə bildirir ki, iqtidarla müxalif siyasi partiyalar arasındakı dialoqun baş tutması həmçinin 2014-cü ilin də ən mütərəqqi hadisəsi olub: "Çünki dialoq mühiti bu gün Azərbaycan üçün ən vazkeçilməz məsələlərdən biridir. Azərbaycanda gələcək siyasi perspektiv yalnız danışaraq mümkün olacaq. Ona görə də bu görüşlərin davamı və proseslərə hələ də az da olsa təsir imkanı olan Müsavat kimi partiyaların dialoqda iştirakı vacibdir. Artıq qarşıdurma dövrünün müxalifətin fiaskosu ilə nəticələndiyi ortadadır və bundan sonra Azərbaycanın mənafeyi sosial-siyasi tələtümləri deyil, dialoqu, anlaşmanı, tədricən dəyişiklikləri gərəkdirir".

Ekspertin fikrincə, başqa bir hadisə Milli Bankın manatın fevral ayında kəskin devalvasiyasına getməsi olub: "Milli Şura bununla bağlı cəmiyyətin nəbzini ölçmək üçün etiraz mitinqlərinə başlamağa qərar verdi. Bu mitinqlərdə iki şeyə aydınlıq gəldi. Bəlli oldu ki, manatın gücdən düşməsi və insanların cibinə zərbə vurması belə ciddi sosial etirazlara səbəb olmadı. Və sosial sifariş olmayan heç bir etiraz dalğa yarada bilmir. Hakimiyyət də mitinqə icazə verməklə cəmiyyətin nəbzini ölçdü və bundan sonrakı siyasətini müəyyənləşdirdi. Xalqın mənafeyi adına keçirilən mitinqə insanların gəlməməsi müxalifət üçün ciddi ibrət dərsi olmalı idi. Ancaq ikinci dəfə eyni məkanda eyni metodlarla, eyni təfəkkürlə mitinqə cəhd olunması və toplumun iştirakında əhəmiyyətli bir dəyişikliyin baş verməməsi göstərdi ki, siyasi müxalifət artıq tükənib. Müxalif siyasi güc mərkəzlərinin dəyişməsi və yenidən özü özünü təşkil etməsi zərurətə çevrilib".

N.Miri baş verən mühüm siyasi hadisələri qeyd edərkən, əfv fərmanına da toxunub: "Əfv hadisəsi Azərbaycanın siyasi məhbus problemini həll etmədi. Bununla bəlli oldu ki, siyasi məhbusların buraxılmasını tələb edən Qərb dünyası ilə Azərbaycan hakimiyyəti arasındakı münasibətlər hələ də rəvan deyil. Hakimiyyət hələ də Qərbi özünün iqtidarı üçün təhlükə mənbəyi saymaqda davam edir. Bu da Qərblə gələcək münasibətlərdə qeyri-müəyyənlik vəd edir. Bu cür qarşıdurma Azərbaycanı Rusiya ilə Qərb arasında çarpaz atəş altında sürükləyir. Belə bir şərait isə Azərbaycanı pressinq vəziyyətinə sala bilər ki, nəticədə hakimiyyət arzuolunmaz strateji səhvlərə yol verə bilər. Son günlər Azərbaycana olunan təzyiqlər də bunun təzahürü sayıla bilər".

Həmçinin, 2015-ci ildə Azərbaycan üçün əhəmiyyət kəsb edəcək və ölkəyə təsiri olacaq hadisələrdən biri qondarma erməni "soyqırımı"nın yüz illiyinin keçirilməsidir: "Bununla bağlı dünya ermənilərinin fundamental istəklərinə Azərbaycanla Türkiyənin birgə səyi nəticəsində nail ola bilməməsidir. Bu, bir daha göstərdi ki, türk dövlətləri bir olarsa, biləkləri heç zaman bükülməz. Eyni zamanda, bu proses nəticəsində bəzi ölkələrlə münasibətlərə də müəyyən aydınlıq gəldi".

❑ **Röya RƏFİYEVA**

# Özümüzü və düşməni tanıtmaq fürsəti



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Avropa Yay Oyunlarına cəmi 10 gün qaldı. Ölkəboyu həyəcan artır. Yollara çəkilmiş sarı xəttə görə cərimələmək həyəcanını nəzərdə tutmuram. Adicə evə bir qonaq gələndə onun kəm-kəsirsiz qarşılanıb, yola salınması üçün ev sahibi daha nələr eləmir. Bu mənada minlərlə insanın təşrif buyuracağı evdə - ölkədə müşahidə olunan həyəcan anlaşılandır.**

Əgər Azərbaycan olaraq bu işə girişmişiksə, böyük bir yarışmanı urvatlı şəkildə başa çatdırmalıyıq ki, düşmən yanında xəcil olmayaq. Görmədinizmi penoplast yanğınına ermәni necə sevinirdi? Elə edək belə peşmançılıqlar təkrarlanmasın. Bir az geniş düşünək, söhbət iqtidardan yox, Azərbaycan dövlətindən, xalqından gedir. Ona görə də biz toplum olaraq üzərimizə düşənləri etməliyik.

Avropa Oyunlarına ev sahibliyi etməyimizdə əsas məqsəd Azərbaycanı dünyaya tanıtdırmaqdırsa, gəlin, bu məmləkəti normal ölkə kimi tanıdaq. Bəli, hakimiyyətin də görməli olduğu çox işlər var və onlar həllini tapmalıdır. İlk növbədə həbsdəki insanlarımızla bərabər. Hələ vaxt var və ümd edək ki, gözlənilən tarixi qərar veriləcək...

Fikrimcə, nəinki rəsmi şəxs, hər bir sadə insan da məsuliyyətini dərk etməlidir ki, avropalı gəlib 97 yaşlı respublikanın vətəndaşlarının əcaib-qəraib davranışlarına şahidlik etməsin. Avropa Oyunları bizim yaxşı görünməyimiz üçün böyük bir şansdır. Bulvarımız gözəl olduğu qədər gərək davranışlarımız da xoşagəlimli olsun.

Məsələn, əcnəbilər görsə ki, bu ölkədə siqareti çəkib kötüyünü ətrafa tolazlayır, zibili hara gəldi atırlar, bizi "yaxşı" tanıyacaqlar. Düzdür, 10 günə pis vərdişdən əl çəkəsi deyilik, amma heç olmasa cəhd edək. Heç olmasa zərərli vərdişləri tərgitməyə başlayaq ki, bir gün onlardan xilas ola bilək. Avropa Oyunları ilə bizimçün həyat bitmir ki. Qoy bu yarış bizim normal millət olaraq formalaşmağımız üçün həm də bəhanə olsun, iqtidarlı-müalifətli, bitərəf...

Məncə, könüllülər xüsusi lövhələr, ya geyimlərlə "silahlanıb" siqaret çəkən vətəndaşlarla söhbət apara bilər. Lap belələrini cərimələmək də olar. Nəhayət, qaydalara adət etməyi öyrənməliyik. Metroda, taksidə, avtobusda, dayanacaqda, marketdə...hər yerdə normal davranmağı bacarmalıyıq. Bütün bunlar bizim millət olaraq tanınmağımız üçün yatırımımız olacaq...

Bizim əksər turizm obyektləri əcnəbiyə "qaz" kimi baxır, yəni "əlimizə düşüb, yolub buraxaq". Bu sahəyə də ciddi diqqət yetirməlidir ki, biabır olmayaq.

Avropa Oyunları ilk növbədə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını bir daha dünyaya çatdırılması üçün mühüm fürsətdir. Fakt budur ki, dünya artıq ənənəvi metodlarla işğal, təcavüz məsələlərinə ciddi reaksiya vermir. Deməli fərqli metodlar gərəkdir.

Avropalıları bir yerə yığıb deməyəcəyik ki, Qarabağ işğal altındadır.

Hava limanından üzü şəhərə doğru uzanan yolda Qarabağın işğalda olduğunu nümayiş etdirən lövhələr asıla bilər, gecə işıqlandırması olmaq şərtilə. Təklif edirəm ki, Milli Parkda, yaxud şəhərin bir sıra digər yerlərində işıqlandırma sistemi ilə Azərbaycanın xəritəsi əks olunsun. Qoy qartal-xəritənin 80 faizi işıqlandırılsın, ya rəngli işıqlar yanıb-sönsün, 20 faiz ərazi isə fərqli rəngdə təqdim olunsun. Yaxud elə ingilis dilində xəritəyə işğal faktını əks etdirən bir cümlə də yazmaq olar. Bu, əcnəbilərdə təcavüz haqda aydın təsəvvür yaradacaq...

Başqa təklifim var: Şuşanın işğalı zamanı güllələnmiş heykəllər (Üzeyir Hacıbəyli, Bülbül, Natəvanın heykəlləri) İncəsənət Muzeyinin həyətindən nəhayət ki, çıxarılmalıdır. Onları paytaxtda gediş-gəlişin gur yerlərindən birinə qoymaq olar, üzərinə bir lövhə yazmaqla. Erməni vandallığını ifşa etmək üçün bundan yaxşı fürsət?

Bizim ən ciddi problemimiz Qarabağın işğalda olmasıdır və bütün tədbirlərin baş məqsədi həqiqətlərimizi dünyaya yaymaqdır. Elə isə hələ İŞİD olmadığı vaxtda erməni İŞİD-çiliyinin əclaflığına hədəf olan heykəlləri niyə gizlədiri ki?

Yaxud şəhərin ayrı-ayrı ünvanlarında Qarabağla bağlı lövhələr də vurulmalıdır. Əks təqdirdə avropalı bizim artıq Qarabağı unutduğumuzu zənn edər. Şübhəsiz ki, turist bura istirahətə gəlir, bizim faciəmizə yas saxlamağa yox. Ona görə də Qarabağ təbliğatını elə aparmalıyıq ki, gələnləri ürkütməyək, bezdirməyək. Fürsətdir, özümüzü və düşməni tanıtmaq üçün. Məncə, iqtidar və müxalifət ümummilli maraqlar naminə ən azı bu müddətdə bir-birinə cəbhə açmayacağı barədə bir moratorium da elan edə, hansısa razılaşmaya da gedə bilər...

YENİ MÜSAVAT
N 117 (6145) 1 iyun 2015



# Dini təhsil problemini necə həll edək?

Kənan RÖVŞƏNOĞLU

## Xaricdə dini təhsilin qarşısını almaq mümkün olmasa da, daxildə güclü İslam tədrisi mərkəzi yaratmaqla xarici təsiri azaltmaq olar

**Azərbaycanda dini təhsil mövzusu yenidən gündəmə gəlib. Deputat Zahid Oruc Milli Məclisin son iclasında hökumətə Azərbaycandakı dini təhsilin dövlət tərəfindən maliyyələşdirməyi təklif edib. Bu barədə "Yeni Müsavat"a danışan deputat deyib ki, xarici ölkələrə gedib dini təhsil alan ölkə vətəndaşlarının sayını azaltmaq Bakı İslam Universitetində təhsil haqqı ləğv edilsin və universitet dövlət tərəfindən maliyyələşdirilsin. Deputatın fikrincə, bununla da dini təhsil almaq istəyənlərin böyük bir qismi xarici ölkələrə üz tutmaz, Azərbaycanda qalaraq dövlət hesabına dini təhsil ala bilər.**

Hələlik hökumətin bu məsələyə münasibəti bəlli olmasa da, mövzunun yenidən gündəmə gətirilməsi, bir sıra məqamlara toxunmağımı labüd edir. Məsələ burasındadır ki, müstəqillikdən sonra savadlı dini kadrların yetişdirilməsi məsələsi gündəmə gəlib. Bu məqsədlə ilk olaraq QMİ-nin nəzdində əvvəlcə mədrəsə, 1994-cü ildə isə universitet yaradılıb. Bundan başqa 1992-ci ildə TQDK xətti ilə imtahan verən bir qrup tələbə Türkiyənin müxtəlif universitetlərində ilahiyyat fakültələrində təhsil almaq üçün göndərilib. Paralel olaraq məhz Türkiyə Diyanət İşlər Başqanlığının təşəbbüsü və dəstəyi ilə BDU-da ilahiyyat fakültəsi yaradılıb. Bununla yanaşı QMİ-nin təşəbbüsü və göndərişi əsasında azərbaycanlı tələbələr İran, İraq, Suriya, Misir, Liviya, Malayziya və digər daha bir neçə ölkənin İslam universitetlərinə təhsil almaq üçün göndəriliblər.

Ancaq sonradan hökumət bu göndərişləri dayandırdı, azərbaycanlılar yalnız öz təşəbbüsləri ilə xarici ölkələrə ilahiyyat təhsili almağa getdilər. Lakin 2000-ci illərin əvvəllərində hökumət qurumları xaricdə dini təhsil alanların ölkə qanunlarına, milli-mənəvi dəyərlərə zidd fəaliyyət göstərdiyi, qısası təhsil aldıqları ölkələrin elmi, mədəni və siyasi təsirinə düşdüyünü bəyan etməyə başladılar.

2009-cu ilin iyununda Milli Məclis xaricə dini təhsil almış şəxslərin Azərbaycanda dini vəzifə tutmaları və ibadətlərə rəhbərlik etmələrini qadağan edən dəyişikliyi qəbul etdi. Lakin məlum oldu ki, xaricə dini təhsil alanların bir çoxunun yerli universitetlərdən də diplomu var. Digər tərəfdən ümumiyyətlə, onların bir çoxu rəsmi vəzifə tutmağa həvəs göstərmir, daha çox evlərdə, ayrıca ofislərdə dini təbliğat və tədrislə məşğul olurlar. Yəni bu düzəliş faktiki olaraq situasiyaya təsir etmədi.

Əlbəttə. aydın məsələdir ki, heç bir hökumət vətəndaşların xarici ölkədə təhsil almasına mane olam bilməz. Xüsusən də mövzu din olduqda insanlar istənilən yola olursa olsun öz mənəvi-dini bilik tələbatlarını təmin etmək yollarını axtaracaqlar. Ancaq məsələ ondadır ki, din mövzusu həssas sahə olduğu üçün və Azərbaycan kimi ölkələrdə xarici təsirlərin din üzərindən yayıldığını nəzərə alaraq hökumətin müəyyən addımlar atması da anlaşılandır. Ancaq qəribə də olsa Azərbaycan hökuməti dini təhsil sahəsini tamamilə xarici təsirlərin üzərinə atdı. Yəni ölkədə 2000-ci illərin əvvəllərində aparılan ardıcıl qanun dəyişiklikləri nəticəsində yerli mədrəsələr, dini təhsil ocaqları, hətta Quran kursları qapadıldı, hətta BDU-nun ilahiyyat fakültəsində qəbul yerləri yarıbayarı azaldıldı və 35 nəfərlik qəbul yeri yarıya bölünərək yarısı ilahiyyat, yarısı isə absurd görünsə də tərcümə ixtisası üzrə kadr hazırlamağa başladı. Belə bir vəziyyətdə vətəndaşların təhsil üçün xaricə üz tutması təbii idi.

Əlbəttə, qeyd etdiyim kimi xaricdə təhsilin qarşısını almaq həm mümkün deyil, həm də əslində lazımlı olduğu üçün bu sahədə vəziyyəti düzəltmək üçün daxildə işlər görülməlidir. İlk növbədə yerli dini təhsil bazasını gücləndirmək, Bakı Dövlət Universitetini daha da böyüdüb dövlət statusu vermək lazımdır. Azərbaycan müsəlman ölkəsidir və əhalinin 96 faizini təşkil edən müsəlmanların hər bir dövrdə olduğu kimi savadlı dinşünas kadrlara ehtiyacı olacaq. Bu ehtiyacı tam olaraq mümkün olmasa da, böyük ölçüdə daxili imkanlar hesabına təmin etmək üçün dövlətin görə biləcəyi və görməli olduğu bir sıra işlər var. Artıq 90-cı illərin əvvəllərində olduğu kimi yerli kadr qıtlığından da söhbət gedə bilməz. Ötən 20 ildə ölkə daxilində və xaricdə çoxlu sayda savadlı kadrlar yetişib. bu kadrları cəlb etməklə xaricdən gələn din adı altında yad təsirlərdən qorunmaq üçün yerli İslam təhsili modelini formalaşdırmaq olar. Təbii ki, İslam bəşəri bir din olduğu üçün onun ölkə modeli ifadəsi yanlışdır. Ancaq faktdır ki, bir sıra ölkələri öz təsirlərini məhz din üzərindən yayırlar, buna qarşı qoymaq üçünsə daxildə İslam elmi mərkəzinin yardılmasıdır.



# Müxalifətin ABŞ hakimiyyətindəki "adamı"

## YAP onu tənqid edir, Müsavat başqanı isə Dövlət Departamenti ilə əlaqələrin olduğunu təsdiqləyir...

**Azərbaycan iqtidarının təmsilçilərinin, hakimiyyət mediasının son aylarda ən çox tənqid etdiyi hədəflərdən biri ABŞ dövlət katibi Con Kerridir. Bir müddət öncə Kerriyə qarşı onun ofisində Azərbaycanda hakimiyyət dəyişikliyi layihəsi hazırlandığı barədə ciddi səs-küyə səbəb olan yazılar hakimiyyətə yaxın mediada yayıldı. İqtidar düşərgəsinin bu şəxsi sevmədiyi, hətta özünə qarşı düşmən hesab etdiyi açıq sezilir.**

Kerrinin bu günlərdə Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın xeyrinə açıqlama verməsi belə ona münasibəti dəyişməyib. YAP-çı deputatların bəziləri onun səmimiliyinə hələ də inanmadıqlarını bəyan ediblər. Bəzi iqtidara yaxın şəxslər və media orqanları isə Con Kerrini Azərbaycana qarşı olan qüvvələrin, eyni zamanda, müxalifətin dostu hesab etdiklərini söyləyirlər.

Deyilənlər nə dərəcədə həqiqəti əks etdirir, Con Kerri Azərbaycan müxalifətinin dostudurmu, ümumiyyətlə, müxalifətin ABŞ Dövlət Departamenti ilə əlaqəsi varmı?

Müsavat Partiyasının başqanı Arif Hacılı bildirdi ki, ABŞ hüquqi dövlətdir və qanunlarla idarə olunur: "ABŞ-da müxtəlif vəzifələri tutan şəxslər öz fəaliyyətlərini şəxsi mülahizələri əsasında deyil, dövlətin müəyyənləşdirdiyi ümumi siyasət əsasında həyata keçirir. Odur ki, Kerrinin bu məsələlərlə bağlı şəxsi düşüncələri, şəxsi simpatiya və antipatiyası onun davranışlarında, apardığı siyasətdə, o cümlədən Azərbaycana yönəlik siyasətdə rol oynamır. Con Kerrinin davranışları ABŞ-ın Azərbaycanla bağlı xarici siyasətini əks etdirir. Mən bir müddət öncə Kerrinin ofisində Azərbaycanla bağlı hazırlandığı iddia edilən sənədi mediada gördüm. Tam əminliklə deyirəm ki, bu bir uydurma idi. Sadəcə olaraq, Azərbaycan hakimiyyətinin öz xarici siyasətini Rusiya ilə uzlaşdırmasının konturları açıq şəkildə görünür və guya Kerrinin ofisində belə bir planın hazırlanması ilə bağlı yayılan məlumatlar da Amerikaya qarşı Rusiyanın apardığı təbliğat kampaniyasına uyğun bir kampaniya aparmaq üçün bəhanə kimi uydurulmuşdu. Mənim rəyim bu məsələ ilə bağlı belədir. ABŞ-la Azərbaycan müttəfiq dövlətlərdir. Azərbaycan hakimiyyəti də öz xarici siyasətində bir sıra mühüm məsələlərdə ABŞ-la vahid siyasi mövqedən çıxış etdiyini dəfələrlə bəyan eləyib. ABŞ-ın xarici siyasətində əsas prioritet demokratiyanın bütün dünyaya yayılması və demokratik dəyərlərin inkişaf etdirilməsi ilə bağlıdır. Azərbaycanda da istər hakimiyyət, istərsə də müxalifət partiyalarının əksəriyyəti məhz ölkədə demokratik cəmiyyətin, hüquqi dövlətin qurulması istiqamətində fəaliyyət göstərdiyini bəyan edir. Bu baxımdan istər Azərbaycan hakimiyyət dairələrinin, istərsə də Azərbaycan müxalifətinin Amerikada fəaliyyət göstərən siyasi qurumlarla, Amerika dövlət strukturlarında çalışan ayrı-ayrı şəxslərlə, xüsusilə xarici siyasəti müəyyən edən ABŞ Dövlət Departamenti ilə əlaqələri təbiidir".

A.Hacılı bəyan etdi ki, Müsavat Partiyasının ABŞ Dövlət Departamenti ilə, həmçinin ABŞ-ın Bakıdakı səfirliyi ilə əlaqələri həmişə olub: "Belə əlaqələr indi də var. Bu əlaqələr yalnız Azərbaycanla ABŞ-ın münasibətlərinin yaxşılaşmasına və Azərbaycanın ümumi mənafelərinə xidmət edib. Bundan sonra da belə olacaq".

❑ Etibar SEYİDAĞA

# Azərbaycan AB-yə inteqrasiyadan niyə vaz keçməli olub?

## Riqa sammitində iştirak edən politoloq məsələnin detallarından danışır

**Avropa Birliyinin (AB) Riqada keçirilən samitində iştirak edən politoloq Razi Nurullayev Azərbaycan-AB münasibətləri ilə bağlı müşahidələrini "Yeni Müsavat"a bölüşüb.**

Razi Nurullayev bildirib ki, AB-nin Azərbaycandan, Azərbaycanın isə AB-dən ciddi gözləntiləri olsa da, bu gözləntilər özünü doğrultmayıb. Nəticədə Azərbaycan təşkilata sıx inteqrasiyadan vaz keçməli olub və bu da Avropa Birliyi "Şərq Tərəfdaşlığı"na üzv ölkələrin Riqa sammitində özünü açıq büruzə verib: "Çünki Avropa İttifaqının Azərbaycanın tələblərinə cavab vermək iqtidarı yoxdur. Avropa İttifaqının da öz növbəsində Azərbaycandan gözləntiləri var və rəsmi Bakı bu tələbləri yerinə yetirmək iqtidarında deyil. Bu baxımdan tərəflər arasında ciddi fikir ayrılığı mövcuddur. Digər məsələ Dağlıq Qarabağla bağlıdır. Belə ki, qurumun Moldova, Ukrayna və Gürcüstanın ərazi bütövlüyü məsələsində konkret mövqeyi var və onlar bu mövqeyin reallaşması, həmçinin, bu ölkələrin ərazi bütövlüyünün təmin olunması, işğalın aradan qaldırılması istiqamətində sonadək əlindən gələni edəcəklərini üzərinə öhdəlik kimi götürüb. Dağlıq Qarabağ məsələsində isə Avropa İttifaqının mövqeyi fərqlidir və struktur Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ideyasından imtina edir".

R.Nurullayev hesab edir ki, AB-nin Azərbaycana qarşı sərgilədiyi bu mövqe rəsmi Bakını Rusiya istiqamətinə meyilləndirən əsas amillərdəndir: "Məhz bunun nəticəsidir ki, son dövrlərdə Rusiya ilə Azərbaycan arasında ciddi yaxınlaşma var və bu əlaqələr getdikcə daha da dərinləşir. Azərbaycan tədricən Rusiya tərəfə meyllənməyə başlayıb. Rusiya da çox yaxşı başa düşür ki, Azərbaycanı əldə etmək üçün Qarabağ məsələsində irəliləyiş olmalıdır. Son bir həftə ərzində Rusiya xarici işlər nazirinin və digər rəsmilərinin Qarabağla əlaqədər verdikləri açıqlamalar da bununla bağlıdır".



Razi Nurullayev



YAP-çı deputat Siyavuş Novruzov isə bildirib ki, Riqa sammitindən əvvəl və sonra Azərbaycanla bağlı həqiqətə uyğun olmayan erməni lobbisinin təhriki ilə yalan məlumatlar səsləndirilib: "Misal olaraq, iyunun 12-də Bakıda I Avropa Oyunlarının açılış mərasimi keçiriləcək, amma ayın 10-da Avropa Parlamentinin sədri Martin Şults dünyada görünməmiş ad altında "İdman və insan hüquqları" tədbiri keçirəcək. Hətta tədbirdə müxtəlif yerlərdən, eləcə də Azərbaycanda onlara qulluq edən insanları dəvət ediblər ki, dinləmələr keçirsinlər. İndi görün ki, həmin insanların xisləti nədən ibarətdir. Budur onların Avropa dəyəri? Avropanın fundamental dəyərləri kənarda qalır, Şults isə milli və dini ayrı-seçkiliklə məşğul olur".

S. Novruzov qeyd edib ki, Rusiyada keçirilən tədbirlərdən birində Ukraynanın müstəqilliyini tanımayan Şults Ermənistanda demokratiyanın çiçəklənmə dövrünün yaşandığını deyib: "Şults insan hüquqlarını belə çox müdafiə edirsə, o zaman ilk növbədə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalından sonra 1 milyondan çox qaçqın düşən və Xocalıda qətlə yetirilən insanların hüquqlarını müdafiə etsin. Bütün bu məsələləri Avropa Parlamentinin iclasında müzakirəyə çıxara bilər. Bax onda Şultsun ədalətli müdafiəçi olduğuna bəlkə inana bildik. Lakin gördüklərimiz ikiüzlülük və satqınlıqdan başqa bir şey deyil. Azərbaycana bu cür Avropa dəyərləri lazım deyil".

❑ Etibar SEYİDAĞA

**"Baxış bucağı"**

**Pirallahıda 5 yaşlı qız uşağının 32 yaşlı əclafın biri tərəfindən zorlandıqdan sonra qətlə yetirilməsi ölüm hökmünün bərpası zərurətini növbəti dəfə gündəmə gətirib. Bir sıra deputatların da çox sərt mövqedən çıxış etdiyi qandondurucu hadisənin səbəbkarı içkili olduğunu əsas gətirib günahını yüngülləşdirməyə çalışır. Ancaq əksəriyyət bu fikirdədir ki, bu kimi cinayətlərdə yüngülləşdirici halların nəzərə alınması tam istisna olunmalıdır və cəmiyyəti bu cür dəhşətli cinayətlərlə şoka salan həşəratlar layiqli cəzalarını almalıdır. Hüquq müdafiəçisi, deputat Çingiz Qənizadə ilə müsahibədə də öncə bu hadisədən danışdıq.**

# "Bu kimi hərəkətlər öz başlarında çatlayacaq"

## Çingiz Qənizadə: "Çoxları informasiya toplamağa, bəlkə də qarışqadan fil düzəltməyə gələcək"

***- Çingiz bəy, 5 yaşlı uşağa qarşı törədilən cinayət hadisəsindən sonra həmkarlarınız arasında da ölüm hökmünün bərpasını təklif edənlər oldu. Siz qanunvericiliyə dəyişikliyi mümkün və zəruri hesab edirsinizmi?***

- Bu hadisəyə görə çox təəssüf edirəm, olduqca ağır hadisədir. Cəmiyyətdə həmişə belə hadisələr olub. Sadəcə, indi mətbuat o qədər inkişaf edib ki, bu hadisələr gizli qalmır, dərhal ictimailəşir. Əgər biz ölüm cəzasını tətbiq etməyə başlasaq, onda Avropa Şurasından imtina etməliyik. Yəni bu, mümkün deyil. Avropa Şurasına daxil olarkən üzərimizə öhdəliklər götürmüşük. İkincisi də ulu öndər bunu tövsiyə edib və 1998-ci ildən ölüm cəzasına moratorium qoyulub. 2000-ci ildən 2001-ci ilədək biz artıq Avropa Şurasına daxil olmağımızla bağlı qanunlara yeniliklər edərkən bu, nəzərə alınıb və Cinayət Məcəlləsindən çıxarılıb. Mən əslində o dövrdə ölüm cəzasının ləğvinin əleyhinə olanlardan biri idim, baxmayaraq ki, hüquq müdafiəçisiydim. Bu gün də onun tərəfdarıyam. Amma onun hüquqi tərəfi yoxdur. Yəni bizim Avropa Şurasından imtina etməyimizlə onun hüquqi tərəfinin tətbiqi mümkün ola bilər. İndiki halda bu, real görünmür.

***- Bəs, bu cür ağır cinayətlər törədənlərin cəzası nə olmalıdır?***

- Bu cür hadisə törədənlərə qarşı sanksiyanın ən ağır hissəsinin tətbiq edilməsinin tərəfdarıyam. Burda hər hansı bir güzəştdən, yüngülləşdirici haldan, hətta bizim bilmədiyimiz hər hansı zəngdən, xahişdən söhbət gedə bilməz. Çünki o qədər ağır və dəhşətli cinayətdir ki, nəzərdə tutulan sanksiyanın ən yuxarı həddi tətbiq edilməlidir.

***- Belə cinayətləri törədənlərin nə vaxtsa əfvə salınması ehtimalı nə qədərdir?***

- Əfv fərmanı tətbiq edilərkən komissiya onun törətdiyi cinayətin xarakterini və ictimai təhlükəliliyini nəzərə alır. Yəni belə adamların əfv olunması mümkün deyil. Onu da deyim ki, yazılmayan qanunlar da var. Cəzaçəkmə müəssisəsində də bu cür cinayət törədən adamların başını sığallamırlar. Orda da həmişə təzyiq və tənqid altında olurlar, başqaları kimi cəzalarını normal qaydada çəkə də bilmirlər. O qədər dəhşətli hadisədən söhbət gedir ki, həmin şəxs məhkumlar tərəfindən də qınaq obyektinə çevriləcək.

### "Gec-tez cənab prezident dənizin hasarlanmasına da reaksiya verəcək"

***- Əfvdən söz düşmüşkən, komissiyanın sənədləri araşdırdığı açıqlanıb və Avropa Oyunları ərəfəsində, yaxud sonra növbəti əfvin imzalana biləcəyi deyilir. Sizdəki məlumatlar nə deməyə əsas yaradır?***

- Mən əminəm ki, komissiya kifayət qədər sənədləri araşdırıb, haqqında müvafiq qərarlar qəbul olunub və prezidentə təqdim etməyə hazırdır. Oyunlar ərəfəsində nəsə olarsa... Mən bunu ehtimal kimi deyə bilmərəm. Çünki bu, konstitusiya ilə cənab prezidentə verilən hüquqdur və o, istədiyi bir an əfv fərmanını tətbiq edə bilər, heç hər hansı bayram, ya tədbirlər oldu-olmadı. Amma mən hüquq müdafiəçisiyəm, hesab edirəm ki, bu cür addımların tez-tez atılması məqsədəuyğundur. Əgər cənab prezident Avropa Oyunları ərəfəsi, yaxud ondan sonra belə bir addım atacaqsa, biz həmişəki kimi onu alqışlayacağıq.

***- İyunun 1-i Tofiq Yaqublunun övladı Nərgiz Yaqublunun 40 mərasimidir. Tofiq bəyin əfvi baş vermədi, bəs onun 40 mərasiminə buraxılması necə, gözlənilləndirmi?***

- Əgər müraciətlər olubsa, hər şey ola bilər. Onun yas mərasiminə buraxılması üçün müraciət edənlərdən biri də mən idim. Novella xanım, Səidə xanım, Səadət xanım, biz çox qapıları döydük və cənab prezident də, ölkənin digər rəsmi şəxsləri də sağ olsunlar ki, Tofiq Yaqublunun yasda iştirak etməsinə imkan yaratdılar. Əgər növbəti belə bir müraciət vaxtında olubsa, məncə, bu şəraiti yenə yarada bilərlər.

***- Çingiz bəy, "sahibsiz" deyilən villalarla bağlı sizin də sərt fikrinizi oxudum. Necə bilirsiniz, hətta birinci şəxsin müdaxiləsinə səbəb olan bu cür qanunsuzluqların arxasında kimlər var?***

- Mənzillər başqa adamların adına rəsmiləşdirilib. Cənab prezident də "sökün" əmri verəndən sonra heç kim qabağa çıxmadı. Aydındır ki, bu, adi, sadə adamların villaları deyil. Kimlərsə qorxaraq qabağa çıxmırsa, onda söküntü əmri icra olunacaq. Amma mən inanmıram ki, o evlərin sahiblərindən hamı xəbərsiz olsun. Ən azı bu gün cəmiyyətdə daşı daş üstünə qoyanda dərhal gəlib adamın başının üstünü kəsdirirlər. Ona görə də yəqin ki, bunların əsl səbəbləri haqqında da kifayət qədər səbəblər var. Amma mən ev sahiblərini də qınamıram. Yəqin ki, vaxtilə onlara icazə verilib, ona görə bu villalar tikilib. Yəni bu məsələyə birmənalı yanaşmaq lazım deyil.

***- Siz də hesab edirsinizmi ki, bu məsələdə əsas cavabdeh şəxs Bakı Şəhər İcra Hakimiyyətinin başçısıdır?***

- Mən deyə bilmərəm ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı birinci şəxs olaraq bu tikintilərə razılıq verib. Amma hər halda kimlərsə razılıq verməsə də, bunu bilib, göz yumub. Cənab prezident sözünü elə-belə demir ki. Yəqin ayrıca tapşırıq da verib ki, onların sahibləri barədə məlumat verilsin. Çünki cənab prezident dedi ki, elə onun hasarlarının qiyməti bir neçə milyondur. O da gözəl bilir ki, bu, sadə adamların villası ola bilməz. Ola bilər ki, məsələyə başqa qiymətlər də verilsin. Hər halda cənab prezidentin məsələyə hansı formada yanaşdığını gördük.

***- Daha yaxşı olmazdımı ki, həmin villalar dövlət əhəmiyyətli işlər üçün istifadəyə veriləydi?***

- Mən mətbuatda belə təklifləri oxudum. Amma onlar mənzil kimi nəzərdə tutulub. O baxımdan deyə bilmərəm ki, onlardan nə üçünsə istifadə mümkün ola bilərdi. Amma söhbət ondan gedir ki, istirahət parkının yanında başqa bir tikilinin olması məqsədəuyğun sayılmayıb, ona görə sökülmək göstərişi verilib. Söhbət qanunsuz tikilməsindən getmir. Söhbət prezidentin o parkın ətrafında heç bir tikintinin olmaması barədə göstərişinin əksinə tikintilərin aparılmasından gedir.

***- Dəniz mövsümü ərəfəsində Xəzərin hasarlanması ilə bağlı nə deyə bilərsiniz? Belə çıxmırmı ki, sahilboyu çəkilən hasarların sökülməsi üçün də ölkə başçısının iradəsi lazımdır?***

- Bəli, mən də hesab edirəm ki, gec-tez cənab prezident buna reaksiya verəcək.



### "Əgər ölüm cəzasını tətbiq etməyə başlasaq, onda Avropa Şurasından imtina etməliyik"

Şəhərə cənub tərəfdən girəndə baxırsan dəniz elə hasarlanıb ki, bizi sadəcə o gözəl mənzərədən məhrum ediblər. İnanıram ki, bu məsələ də cənab prezidentin diqqətinə çatdırılacaq və onunla bağlı da göstərişlər verəcək. Görürsünüz ki, son məsələlərdə cənab prezident nə qədər həssaslıqla, diqqətlə və ağrı ilə baş verən hadisələri vurğulayır, göstərişlər verir. Amma təəssüf ki, bəzən ətrafında olan kimlərsə bunu tuta bilmirlər. Gec-tez bu kimi hərəkətlər öz başlarında çatlayacaq. Sanki cənab prezidentin istəyi ilə edilən hərəkətlər arasında bəzən ziddiyyət olur, onda da prezident qətiyyətli addımlar atır. Parlamentdə hasarlarla bağlı məsələ elə bir neçə dəfə Fazil Mustafa tərəfindən qaldırılıb. Xalq heç olmasa bu gözəl mənzərəyə baxmaqdan məhrum etmək düzgün deyil. Avropadan gələnlər Qobustana, tarixi yerlərə baxmaq üçün gədəcəklərsə, dənizin hasarlanması mənzərəsini görsələr, təbii ki, heyrətlənəcəklər. Nəzərə alaq ki, gələnlər arasında jurnalistlər də çox olacaq. Onlar da məsələlərə hansısa don geyindirəcək. Azərbaycana gələn jurnalistlər hamısı Azərbaycanı sevdiyi üçün gəlmir ki. Çoxları informasiya toplamağa, bəlkə də qarışqadan fil düzəltməyə gələcək. O baxımdan biz onlara imkan verməməliyik ki, nələrisə görsünlər və yazsınlar. Allaha şükür, şəhərin mərkəzində gözəl işlər görülüb, hər bir atılan addım bizi sevindirir. Təbii ki, son hadisə olmasaydı, daha yaxşı olardı. Amma məhz Şıxovdan sonra Qaradağ ərazisində yolboyu dənizin hasarlanması yolverilməzdir, gec-tez bu hasarlar da sökülməlidir. Dəmir çərçivə çəkilsəydi, dənizin gözəl mənzərəsi də qalardı, yaşayış əraziləri də küləkli olardı. Yəqin ki, cənab prezident nə vaxtsa bu məsələyə öz mövqeyini bildirəcək.

***- Binəqədidəki binanın yanmasından sonra təhlükəsizlik qaydalarına əməl olunacağına əminliyiniz varmı?***

- Çox ciddi əməl olunacaq. Bəziləri deyir ki, yanğın təhlükəsizliyi, yaxud digər qurumlar hara baxıb? Mənə elə gəlir ki, burada məsuliyyət daha çox istehsalçının üzərində olmalıdır. O, lisenziya alarkən təqdim etdiyi nümunə ilə qatqı vurmadan istehsal etdiyinin arasında çox böyük fərq var. Məhz bu istehsalçılar sifarişçiləri aldadıblar. Əslində o qatqı ilə olan və odadavamlı hissəni vermək əvəzinə, daha ucuz məhsulu onlara sırıyıblar, nəticədə də bu cür hallar baş verib. Yanğın təhlükəsizliyi də vaxtilə baxıb, ona qiymət verib, FHN və digər qurumlar rəyini bildirib. Amma biz bunun şahidi olduq ki, rəyi təqdim olunanla istifadə olunan arasında çox böyük fərq var. Bu fərq də ordan irəli gəlir ki, onun hər kv.m-də hansısa miqdarda pul fərqi var. Çünki ona bahalı qatqı vurulduqda qiyməti xeyli artmalı idi. Bunu etməyib məhsulu "keyfiyyətli" adı ilə sırımaq və belə bir faciənin baş verməsinə səbəb olmaq daha çox istehsalçıların günahından baş verib. Ona görə də həmin müəssisənin rəhbəri saxlanılıb və istintaq gedir. Burda istehsalçının cinayəti göz qabağındadır və yəqin ki, buna görə layiqli cəzasını alacaq. Ola bilər ki, bundan sonra yanğın təhlükəsizliyi ilə bağlı rəylərin verilməsi mərhələli şəkildə həyata keçirilsin, yəni ilkin olaraq tikinti gedən zaman və sonda nümunə götürülsün.

***- Yay tətilindən sonra həm də seçki hazırlıqları başlayır. Yəqin ki, namizədliyinizi irəli sürəcəksiniz...***

- Bəli. Mən 80 saylı İmişli-Beyləqan seçki dairəsindən seçicilərimlə seçki öncəsi və seçkidən sonrakı illərdəki görüşlər zamanı onlara verdiyim sözə əməl etmişəm. Məlumat üçün deyim ki, seçildiyim dairədə 200-dən çox görüş keçirtmişəm. 50-yə yaxın kənddir, hər kənddə 4 dəfə və daha çox görüşlərim olub, indi də görüşlərim davam edir. İyulun sonuna qədər bütün kəndlərdə görüşlər keçirəcəm və yəqin onda görüşlər 250-yə çaxacaq. Elə bu günlərdə Bəhramtəpə, Sarıxanlı, Buludlu qəsəbələrində görüşlərdə olmuşam. İnşallah payıza sağ-salamat çıxacağıqsa, yenə bu dairədən namizədliyimi vermək arzusundayam. Çünki keçirtdiyim görüşlər zamanı seçicilərin rəyini də öyrənirəm, ümumi münasibət çox yaxşıdır. Onlar namizədliyimi verəcəyəmsə, mənə səs vermək arzusunda olduqlarını bildirirlər. Mən də sizin qəzet vasitəsilə onlara təşəkkür edirəm və deyirəm ki, namizədliyimi yenə 80 saylı İmişli-Beyləqan seçki dairəsindən irəli sürmək arzusundayam.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 117 (6145) 1 iyun 2015

# Məktəblərin sakitcə bağlanması



Zamin HACI
zaminhaci@gmail.com

"Azadlığa çatmağın möhürü necə vurulur? Daha özün özündən utanmırsan".
*(Fridrix Nitşe, "Şən elm" kitabı)*

**Bir-iki gün qabaq sosial şəbəkədəki dostlarımızdan Hüseyn bəy maraqlı bir müşahidəsini yazmışdı: "Məzun günü haçan oldu? Dostlar deməsəydilər bu gün məktəblərdə dərslərin bitdiyini bilməyəcəkdim. Heç şəhərdə uşaqları görmədim".**

Doğrudan da məzun günü çox sönük keçdi, bunun isə hökumətlə bağlı ciddi səbəbləri var idi. Məsələ ondadır ki, Avropa Oyunlarına görə ölkə məktəblərində dərslərin bitməsini müxtəlif günlərə saldılar, süni pərakəndəlik düzəldildi. Elə məktəblər var idi onlarda dərslər artıq 20 maydan bitmişdi. Başqa məktəblərdə "Məzun günü" 25 mayda oldu, bəzilərində isə 29 mayda. Beləcə, parçalanmış məktəblilər orda-burda sakitcə dönər-mönər yeyib evlərinə dağılışdılar.

Prinsipcə, insan həyatında heç bir müsbət rol oynamayan, nəinki gələcəyi, hətta keçmişi təhrif edib pis günə qoyan Azərbaycan məktəbini elə bu cür səs-küysüz bitirmək yaxşı idi. Hansı günə sevinəsən? Bozbaş qazanı arxasından durub sinifə gələn Diləfruz xalanın, qutuya seçki bülleteni soxan Əfruz xalanın mühitindən qurtulmağa görəmi? Yəqin ki. Amma bir dəqiqəlik matəm sükutu da elan eləmək olardı, Təhsil Nazirliyinin, yapistlərin sayəsində elə bu cür alındı. Ölkə oyunlara gedir, nə məktəb, nə məzun?

Ümumiyyətlə, Mikayıl müəllim "Bilik günü"nü də ləğv etsə məsləhətdir. Qoy uşaqların məktəbə getməsi, orda oxuması il boyunca hiss olunmasın. Nəyə lazımdır axı? Manqurt olmaq üçün başa keçirilən qoyun dərisi, bir də məktəb stadionunda günəşli havada 2-3 saat cərgəyə düzülmək məncə bəs eləməlidir. Çingiz Aytmatov sağ olsaydı bir az "tamojna" pulu xərcləyib öyrənərdik, heyf...

Deputatxana müdirinin "Xaricdə çoxlu lazımsız təhsil alanlarımız var" söhbəti də həmin dəftərdəndir. Yeri gəlmişkən, Bakıda bina yananda, 15 adam öləndə həmin deputatxananın orqanı olan "Azərbaycan" qəzeti hadisə haqda yazı vermədi. Qəzetin şefi, deputat Bəxtiyar əkə "Biz sensasiya yazmırıq" demişdi. İndi belə deputatxanadan ayrı nə mövqe gözləmək olar? Hələ sevinməliyik ki, deputatxana xaricdə oxuyan gənclərin həbsi haqda qanun qayırmayır.

Ancaq sizə deyim ki, prinsipcə o qanuna doğru gedirik. Təhsil Nazirliyinin xüsusi siyahılar hazırlaması, "A" universitetində oxuyan gənci tutub əsgərliyə göndərməsi, "B" universitetinə isə toxunmaması elə bu məqsədi güdür. Yoxsa normal, sivil dövlətdə parlament spikerinin nə həddi var kiminsə təhsilinə lazımlı və ya lazımsız damğası vursun? İnsanın təhsil hüququ bütün beynəlxalq insan haqları konvensiyalarında əksini tapmış bir müddəadır, əgər deputatxana spikeri piy basmış ağlını azacıq işlətsə bunu anlamalıdır. İnsanlar hərəkət və təhsil azadlığını özü seçməlidir. Heç kimi "BDU"da oxumağa məcbur etmək olmaz, istəyər gedər Xerson Universitetində oxuyar.

Yox, əgər şanlı, igid və Zakir müəllimin gəlişindən sonra dünyanın canına vicvicə salan, sorağı, nəriltisi kosmosun dərinliyindən gələn ordumuza basmağa gənc tapa bilmirsinizsə, bu başqa məsələ. Etiraf edin ki, ay millət, hamınız əsgərlərin nahaq ölümlərindən qorxub beş-on manat pul tapanda uşağı Ukraynanın, Rusiyanın, Türkiyənin əllinci dərəcəli universitetlərinə oxumağa göndərirsiniz, biz də əsgəriyə uşaq yığmaq planını doldura bilmirik. Bu olar kişi söhbəti. Yoxsa hamının bir-birinə atdığı, kələk gəlməyə çalışdığı ölkədə yaşayırıq, guya bir dəfə düzgün söhbət edilsə nə olar? Ölkə dağılmaz, qorxmayın.

Əsgər ölümlərinə gələndə, son vaxtlar müddətdən artıq xidmət edən əsgərlər (onlara qısaca "MAXE" deyirlər) arasında qeyri-döyüş ölümləri olur. Biz həmişə peşəkar ordu tərəfdarı olmuşuq, bir peşəkar ordu taqımının bir çağırışçı tabordan güclü olduğunu bilirik. Bu MAXE-lər də əslində elə peşəkar orduya keçidin bir növüdür. Adamlar maaşla qulluq edir. Amma indi belə çıxır peşəkar ordu da ölkədəki korrupsiya sisteminə dözmür, onun qurbanına çevrilir.

## Putinin generalından sözəbaxmaz ölkələrə ismarış

# Rusiyadan Azərbaycana və "Yaxın xaric"ə işğal anonsu

### Rusiya "dünyanın istənilən nöqtəsi"nə müdaxilə edə biləcək xüsusi qoşun növü yaradır; yeni qruplaşmanın komandanı, Gürcüstana qarşı "5 günlük müharibə"nin qəhrəmanı: "Bizə viza lazım deyil, Ali Baş Komandanın əmri kifayətdir..."

**Şimal qonşumuz Rusiyanın postsovet məkanında, o sırada Xəzər akvatoriyasında öz dominantlığını bərpa eləmək və Qərbi sıxışdırmaq üçün yeni planlar cızdığı barədə anons eləmişdik. Bu planların eyni zamanda Qərblə, ABŞ-la "qaz müharibəsi" çərçivəsində, ələlxüsus da Rusiyadan yan keçəcək transxəzər qaz kəmərlərini önləməkdən ötrü mühüm təzyiq rıçaqı kimi düşünüldüyü də ehtimallarımız sırasında idi.**




Belə görünür, Moskva bu yöndə artıq praktik addımlara qərar verib. Söhbət təkcə Azərbaycan prezidenti İlham Əliyevin son çıxışlarının birində Rusiyaya işarə edərək ilk dəfə olaraq TAP qaz kəməri layihəsinə xarici maneənin yarandığını dilə gətirməsindən getmir.

Bu günlərdə məlum olub ki, Rusiya hazırkı Hava-Desant Qüvvələrinin bazasında Çevik Hərbi Qüvvələr (yeni və xüsusi qoşun növü) yaratmağı planlaşdır. Musavat.com-un məlumatına görə, plan barədə desant qüvvələrinin komandanı, general Vladimir Şamanov "Ruskaya slujba novostey" radiostansiyasına müsahibəsində bildirib.

"Baş Qərargah tərəfindən müəyyən edilmiş vəzifələri və onların tətbiq olunma prinsiplərini nəzərə alaraq, Rusiya əsasını hərbi desant qüvvələrinin təşkil edəcəyi Çevik Hərbi Qüvvələr yaratmağı planlaşdırır. Bu qüvvələr həm müstəqil qruplaşma kimi, həm də ayrıca, xüsusi seçilmiş istiqamətlərdə qruplaşmalar tərkibində hərəkət edəcək" - deyib general.

Onun sözlərinə görə, yeni (hərbi-desant) qüvvələrinin tərkibinə ilk dəfə olaraq tank batalyonları daxil ediləcək, qruplaşma pilotsuz təyyarələrlə təmin ediləcək. Şamanov onu da deyib ki, onlar əmr olarsa, "dünyanın istənilən nöqtəsinə" müdaxilə edə bilərlər. "Məndən bir dəfə viza haqda soruşmuşdular. Bizə viza lazım deyil, yalnız Ali Baş Komandanın əmri lazımdır" - əlavə edib general...

***

Bu, əlbəttə ki, Rusiyanın yeni əzələ nümayişinə hazırlığı, daha dəqiqi, növbəti işğal anonsudur və ilk növbədə də "Yaxın xaric"in sözəbaxmayan ölkələrinə - Ukraynaya, Moldovaya, Gürcüstana, Azərbaycana, hətta Belarusa ünvanlanıb.

Bu yerdə yada salaq ki, Şamanavun özünün də müsahibədə etiraf etdiyi kimi, onun desantları 2008-ci ildə suveren Gürcüstana qarşı "5 günlük müharibə"də xüsusi fərqləniblər, həmçinin, Krımın işğalında seçiliblər.

Yəni artıq "təcrübə" də var. İndi isə ona xüsusi çevik qüvvələrin komandanı kimi qat-qat böyük səlahiyyətlər və imtiyazlar verilir, bu qüvvələr müasir zirehli texnika və hərbi aparatlarla təmin edilir...

***

Bəzi məlumatlara görə, Rusiyanın bu addımı az öncə Avropa Birliyi ölkələrinin birgə çevik hərbi qüvvələr yaratmaq haqda qərar qəbul eləməsinə cavabdır. Ancaq Avropa Birliyi belə bir addıma özünümüdafiə məqsədilə, məhz Rusiya təhlükəsindən daha effektli qorunmaq üçün gedib. Kreml isə tam əksinə - yeni təcavüz aktları həyata keçirmək niyyətindədir. Yoxsa Şamanovun silahlılarının "dünyanın istənilən nöqtəsində", həm də vizasız-filansız, çağırılmamış qonaq kimi nə işi?

Əlbəttə ki, burada söhbət açıq şəkildə güclə hədədən gedir. Demək, Krım işğal olunmuş ərazilər sırasında sonuncu bölgə olmaya bilər. Onu da əlavə edək ki, bu yaxınlarda prezident Vladimir Putin öz müsahibələrinin birində müstəqil postsovet ölkələrinin Rusiyanın ərazisi olduğunu bildirmişdi. Rusiya XİN-i isə Avropa Birliyinin Riqa sammiti ilə bağlı 6 "tərəfdaş ölkəni" sərt şəkildə hədələmişdi.

Təəssüf ki, bu kimi açıqlamalara və hədələrə "Yaxın xaric" ölkələrindən reaksiya olmadı. Bundan başqa, Rusiyanın bu yay Ukraynaya, Donbasa birbaşa hərbi müdaxilə etməyə hazırlaşdığı haqda xəbərlər və ciddi ekspert xəbərdarlıları artıb. Hətta ötən həftə NATO-nun Planlaşma Komitəsinin rəhbəri, çex generalı Pyotr Pavel rusların iki günə Kiyevi və Baltik ölkələrini tuta biləcəyini söyləyərək alyansı daha ayıq-sayıq olmağa çağırıb.

***

Azərbaycana gəlincə, ölkəmizin mühüm geosiyasi və geoiqtisadi vahid olaraq Ukraynadan sonra şimal qonşumuz üçün ən böyük önəm kəsb etdiyi sirr deyil. Bəzi skeptik analitiklərə görə isə, Moskva hətta Azərbaycan uğrunda Qərblə son və qəti savaşa daxili qərar verib.

Onların qənaətincə, Kreml rəsmilərinin son vaxtlar rəsmi Bakıya xeyli dərəcədə artan reveransları, dostluq mesajları, o cümlədən Putinin Bakı Avropa Yay Oyunlarının açılışına qatılmaq qərarı verməsi, həmçinin Kremlin yüksək dərəcəli təltifləri və səxavətlə təqdim etdiyi orden-medallar (spiker Oqtay Əsədov, prezidentin müşaviri Əli Həsənov, səfir Polad Bülbüloğlu, şeyxülislam Allahşükür Paşazadə) bu qəbildəndir və məqsədlidir.

Yəni öncə bizə "kökə" təklif edilir. Sonra... "qamçı" gələ bilər.

❑ **Analitik xidmət**

## ABŞ vitse-prezidentinin oğlu xərçəngdən öldü

**ABŞ vitse-prezidenti Cozef Bayden 46 yaşlı oğlu Bo Baydenin beyin xərçəngindən öldüyünü elan edib.Virtualaz.org saytı Amerika KİV-lərinə istinadən xəbər verir ki, bu barədə bəyanat mayın 31-də Ağ Evin mətbuat xidməti tərəfindən yayılıb.**



Prezident Barak Obama da xanımı Mişellə birlikdə Baydenə başsağlığı verib. "Bu gün Mişel və mən kədər içindəyik. Bo bizim dostumuz idi", - deyə Barak Obamanın bəyanatında bildirilir.

Məlum olub ki, vitse-prezidentin oğlu mayın 26-da Merilend ştatındakı Uolter-Rid hərbi hospitalına aparılıb. Bo Bayden Vaşinqton yaxınlığında yerləşən bu klinikada müalicə alarkən vəfat edib.

Bo Bayden 2010-cu ildə insult keçirib, 2013-cü ildə Hyuston Onkologiya Mərkəzində müalicə alıb.

Delaver ştatının keçmiş baş prokuroru olan Bo Baydenin xəstəliyi barədə vitse-prezident və Ağ Ev şərh verməyiblər. Lakin həkimlər o vaxt bildiriblər ki, Bo Baydenin beynində əməliyyat aparılıb.

Bo Bayden bundan əvvəl İraqda hərbi xidmət keçmişdi və ABŞ Milli Qvardiyasının Delaver briqadasının tərkibində Səddamın devrilməsi əməliyyatında iştirak etmişdi.

"Bo ştatın baş prokuroru postunda zəiflərin hüquqları uğrunda mübarizə aparırdı və uşaqları zorakılıqdan müdafiə etməyi öz missiyasına çevirmişdi" - Cozef Baydenin ailəsi adından yayılan bəyanatda bildirilir.





**2015-ci ilin tam 5 ayı arxada qaldı. Lakin hələ ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında bu il simvolik və ənənəvi hərəkətliliklə də yadda qalmayıb. Ötən ilin 27 oktyabrından bu yana nəinki Azərbaycan və Ermənistan prezidentləri səviyyəsində, heç iki ölkənin xarici işlər nazirləri səviyyəsində belə düz-əməlli görüş olmayıb. Yada salaq ki, prezidentlərin - İlham Əliyev və Serj Sərkisyanın növbəti təması payızda - BMT Baş Məclisinin sessiyası çərçivəsində planlaşdırılır.**

# Qarabağ məsələsi Ukraynadakı böhranın girovuna çevrilir

## 2015 nizamlama prosesi tarixinə ən passiv il kimi düşə bilər; danışıqlardakı durğunluq təkcə Rusiya-Qərb "soyuq savaşı" iləmi bağlıdır?..

Söz yox ki, Ukraynaya görə ikinci ildir gedən Rusiya-Qərb "soyuq savaşı" Qarabağ konfliktinin də həll perspektivinə öz neqativ təsirini göstərir. Postsovet məkanı uğrunda mübarizədə isə Dağlıq Qarabağ probleminin Kreml üçün önəmi xüsusilə artıb. Moskva bu münaqişənin həllinə indi heç vaxt olmadığı qədər Qərbin maraqları kontekstində baxır. Yəni belə hesab edir ki, Qarabağ probleminin yoluna qoyulması Rusiyanın Güney Qafqazdan birdəfəlik əl çəkməsinə gətirə bilər.

Elə ABŞ və Avropanın timsalında Qərbin özü də Qarabağ məsələsinə yanaşmada əvvəlki dönəmlərdəki kimi həvəsli və təşəbbüskar görünmür. Bir səbəbə toxunuldu - Qərb daha bir konfliktli zonada Rusiya ilə tezliklə toqquşmaq istəmir və nəzərə alır ki, Ukrayna böhranının yaranması ilə Güney Qafqazın Kremldən ötrü önəmi, dəyəri bir neçə dəfə artıb.

Həm Moskvada, həm də Vaşinqtonda və Brüsseldə, şübhəsiz, onu da ciddiyə alırlar ki, Güney Qafqazın problemlərinə (Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya) qayıtmaq üçün ən əlverişli dövr, məqam Ukrayna böhranını tarixin arxivinə verəndən sonra başlaya bilər. Ukraynadakı böhran isə, belə görünür, hələ çox çəkəcək.

Bir sözlə, Dağlıq Qarabağ hazırda xeyli dərəcədə Ukraynadakı böhranın girovuna çevrilmiş kimi görünür.

*****

Ötən 5 ayda işğalçı Ermənistan qorxusundan daha güclü şəkildə Rusiyaya sığınıb ki, bu da nizamlama prosesini tormozlayan başqa bir səbəb kimi qeyd oluna bilər. Məsələn, yanvarın 15-dən Ermənistan rəsmi olaraq Putinin Avrasiya İttifaqına üzv olub. Bu da öz növbəsində onsuz da söz sahibliyi olmayan rəsmi İrəvanı Qarabağ məsələsində daha hüquqsuz duruma yuvarladıb.

Rusiyanın Qarabağ məsələsində passivliyinin motivi bəllidir. Əlində unikal imkan və rıçaqlar ola-ola, gerçək budur ki, Moskva 25 ildir münaqişəni həll etməyə maraq göstərmir. Qərbin, özəlliklə Avropa Birliyinin imkanları nisbətən az olsa da, o da işlək deyil. İşğalçı Ermənistana, Azərbaycana münasibətdə ikili standartlar özünü göstərir.

Mövcud şərtlər fonunda Qarabağ münaqişəsinin həll perspektivlərindən danışan ABŞ-Azərbaycan İnkişafa Dəstək Fondunun baş eksperti Aleksey Sinitsin hesab edir ki, "Azərbaycan heç kimə arxayın olmamalı və özünün maraqları kontekstində başa düşməlidir ki, nə Avropa Birliyi, nə də NATO Dağlıq Qarabağ konfliktinin həllində öz üzərlərinə hətta minimal təşəbbüsü belə götürə bilməz" (vesti.az).

Yaranmış vəziyyətdə, əlbəttə ki, Azərbaycanın öz hərbi qüdrətini günbəgün artırmaqdan savayı yolu qalmır. Döyüş qüdrətimizin artırılması isə həm də NATO üzvü, qardaş Türkiyə ilə hərbi quruculuq sahəsində iki və çoxtərəfli əməkdaşlığı dərinləşdirməkdən keçir. O sırada son vaxtlar keçirilən birgə hərbi təlimlərin önəmi əvəzedilməzdir.

Belə təlimlər həmçinin Rusiyanın Dağlıq Qarabağ konfliktini istənilən an öz maraqları naminə qızışdırmaq planları qarşısında da effektli çəkindirici amil sayılır. Son vaxtlar Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli hərbi əməkdaşlığının genişlənməsi və keçirilən ortaq təlimlər də bu kontekstdə az əhəmiyyət kəsb elənir və bölgədə Kremlin də ciddiyə almalı olacağı yeni güc faktorunun formalaşmasına aparır.







Yeri gəlmişkən, dünən Türkiyə, Azərbaycan və Gürcüstanın "Qafqaz qartalı" adlı birgə hərbi təlimləri başlayıb. Bu barədə Türkiyənin Baş Qərargahının rəsmi saytında məlumat verilib. Məlumata görə, birgə təlimlər Türkiyədə mayın 31-dən iyunun 10-na kimi davam edəcək.

*****

Ermənilər isə Ukrayna böhranı ilə başlayan yeni situasiyada da düşmən axtarışındadır. Özü də bu düşməni o, xaricdə axtarır. Düşdükləri ağır iqtisadi durumun gerçək səbəbini özləri üçün araşdırmaq, Rusiya girovluğundan qurtulub öz qonşuları ilə münasibətləri normallaşdırmaq əvəzinə, Ermənistan Kremlin forpostu rolu oynamaqda davam edir, Azərbaycanı, Türkiyəni əsas xarici düşmənlər qismində görür, öz xalqına bu çürük və yalnız qaranlıq gələcək vəd edən ideologiyanı aşılayır.

"Əlbəttə ki, bu gün xarici təhdidlərlə bağlı təhlükə var. Ancaq biz hər şeyi edirik ki, dövlətimiz təhlükəsiz olsun, xalqımız təhlükəsiz yaşasın. Təhlükə isə bizim xarici düşmənlərimizdən gəlir". Musavat.com-un məlumatına görə, bu sözləri Ermənistan prezidentinin baş hərbi müfəttişi Mikael Arutunyan erməni jurnalistləri ilə söhbətində deyib.

Onun bu fikrinə 1in.am saytı kinayəli bir reaksiya verib. "Arutunyan əmindir ki, daxili təhlükələr yoxdur və təhlükəsizlik məsələlərində həm iqtidar, həm də müxalifət yekdildir. Onun, yəqin, xəbəri yoxdur ki, son 4-5 ildə Ermənistanı geridönməz şəkildə hər il 40-50 min adam tərk edib. Bu, ölkəmizin təhlükəsizliyini hədələmir ki?" - sual edib nəşr.

"Mən istəməzdim ki, ermənilərdən kimsə ölkəni tərk eləsin. Mən Ermənistana gəlmişəm və istəyirəm ki, hamı qayıtsın" - bildirib baş hərbi müfəttiş. "Ancaq Arutunyan bilmir ki, Ermənistanda iftar varlılar var, bir də ifrat kasıblar, bilmir ki, məmurlar varlıdır, sıravi vətəndaşlar isə - kasıb", - deyə nəşr ona iradını bildirib. Baş müfəttiş isə "Mən bilmirəm bu informasiya sizdə haradandır" deməklə haqlı iradlardan canını qurtarıb.

Bu kiçik dialoq bir daha işğalçı ölkədə məmur təbəqəsi ilə, daha dəqiqi, Ermənistan rəhbərliyi ilə erməni xalqı arasında nə boyda uçurum olduğunu və cəmiyyətin aparılan xarici siyasətdən nə dərəcədə narazı qaldığını əyani göstərir. Nə yazıq ki, bu narazılıq hələ ki, yalnız passiv formadadır. Hələ ki...

# Fransa XİN: "Rəsmi Paris Dağlıq Qarabağın müstəqilliyini tanımır"



**"Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Fransanın mövqeyi aydın və dəyişməzdir. Biz Dağlıq Qarabağın müstəqilliyini tanımırıq və özünü oranın hakim dairələri kimi təqdim edən şəxslərlə heç bir əlaqəmiz yoxdur".**

AzərTAC xəbər verir ki, Fransa Xarici İşlər Nazirliyinin sözçüsü Roman Nadal bu fikri nazirlikdə keçirilən mətbuat konfransında bildirib. Nazirliyin sözçüsü rəsmi Parisin bu mövqeyini jurnalistin Azərbaycanın işğal altındakı ərazilərində Ermənistan tərəfindən qeyri-qanuni yaradılmış separatçı rejimin mayın 3-də "parlament seçkiləri" keçirməsi və "Dağlıq Qarabağ Respublikası" "prezidenti"nin Fransaya səfəri, bu səfər çərçivəsində bir neçə fransız şəhərləri ilə "dostluq xartiyaları" imzalanmasına münasibət bildirməsi ilə bağlı sualı cavablandırarkən açıqlayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 117 (6145) 1 iyun 2015


Mübariz Ağayev

# İcra başçısının avtoş bacısı oğlu Qarabağ veteranını ölümünə döydürüb

## Göyçayın rəhbəri Mübariz Ağayevin yaxın qohumu idmançı dostları ilə birləşib rayon sakini Vüqar Musəvini xəstəxanalıq edib; zərərçəkənin ölüm ayağında olduğu deyilir...

**Göyçay rayon İcra Hakimiyyətinin başçısı Mübariz Ağayevin bacısı oğlu keçmiş polis işçisi və Qarabağ döyüşçüsü Vüqar Musəviyə məxsus evə basqın edib. Basqında iki idmançı görkəmli şəxs də iştirak edərək başçının bacısı oğluna dəstək veriblər. Bu haqda redaksiamıza daxil olan məlumatda bildirlir ki, başçının bacısı oğlu ilə Qarabağ döyüşçüsünün mübahisəsi yolda başlayıb. Xəbəri redaksiyaya çatdıran mənbənin dediklərindən: "İcra başçısının bacısı oğlu maşınla avtoşluq edir. O, idarə etdiyi maşınla Vüqar Musəvinin idarə etdiyi maşını yol kənarına sıxışdıraraq qəza şəraiti yaradıb. Maşını aşmaqdan xilas edən Vüqar icra başçısının bacısı oğluna irad bildirərək maşını belə sürməsinin səbəbini soruşub. O da deyib ki, "əcəb edirəm, biz beləyik, belə sürürük". Bu cavabdan sonra hər iki şəxsin arasında mübahisə yaranıb. Ağayevin bacısı oğlu maşının açarlarını Vüqarın başına vurub və taksiyə oturaraq hadisə yerindən uzaqlaşıb. Bu hadisədən bir neçə saat sonra Vüqarın yaşadığı Potu kəndindəki mənzilinin qapısı döyülüb. Qapını açan Vüqar Musəvi icra başçının bacısı oğlu ilə rastlaşıb. Onun yanında tanımadığı idmançı görkəmli 2 nəfər də olub. Onlardan biri əlindəki kağız parçasını göstərərək deyib ki, 2 saatdı polisdə sənin ünvanını axtarırıq. Onun sözündən belə çıxıb ki, onlar Vüqarın maşın nömrəsini verib yaşadığı ünvanı polisdən öyrəniblər. Bu vaxt idmançılardan biri Vüqarın əllərini tutaraq qışqırıb ki, "vurun bunu". M.Ağayevin bacısı oğlu və digər gələn idmançı Vüqara zərbələr endiriblər. Səs-küyə küçəyə çıxan yoldaşı və baldızı Vüqarı xilas etməyə çalışıblar. Vüqarın əlini tutan idmançı bu vaxt ona zərbə endirib. Zərbədən yerə yıxılan Vüqarı hər üçü təpikləməyə başlayıblar. Qadınların köməyi sayəsində Vüqar qaçıb yaşadığı evə daxil olub və evin qapısını arxadan bağlayıb. İcra başçısının bacısı oğlu qapını sındıraraq evə girib. Vüqarı otaqların birində tutaraq başına zərbələr endirməyə başlayıblar. Zərbələrdən huşunu itirən Vüqar yerə yıxılıb. Onlar sonra Vüqar Musəvinin qadın qohumlarını da döyüblər. V. Musəvinin həyat yoldaşı 102-yə etdiyi zəngdən 1 saat sonra Vüqarı Göyçay Polis Şöbəsinə çağırıblar".**

Qaynağımız deyir ki, V.Musəvi onu döyən şəxslərin şöbədə sərbəst gəzdiklərinin də şahidi olub: "Polis rəisi İslam Hümbətov Vüqarın ağır xəsarət aldığının şahidi olduqdan sonra deyib ki, ona yanlış məlumat veriblər. Vüqara izahatında hadisəni olduğu kimi yazmasını xahiş edib və bu işin düzgün aparılacağını bildirdikdən sonra onu evə buraxıblar. Səhəri gün Vüqarın vəziyyəti pisləşib və onu xəstəxanaya aparıblar. Müayinədən keçdikdən sonra məlum olub ki, onun başının bir neçə yerində sümük çatı yaranıb. Həkim rəyindən qorxuya düşən icra başçısı döyülən Vüqar Musəvinin dayısı, Zaqatalanın keçmiş polis rəisi İlhamı təcili rayona çağırtdırıb və işin yoluna qoyulmasını xahiş edib.

Qaynağımız deyib ki, hazırda V.Musəvi ağır vəziyyətdə ev şəraitində müalicə olunur, onun sağ qalıb-qalmayacağı bilinmir: "Əgər sağ qalarsa, başına vurulan zərbələrdən heç bir əngəl qalmayacağı sual altındadır. Deyilənlərə görə, Vüqarın anası bu işi belə qoymayacağını, ölkə prezidentinə, Baş Prokurorluğa və Daxili İşlər Nazirliyinə müraciət edəcəyini deyib. Qadın oğlunun qanını pula dəyişməyəcəyini bildirib.

Dünən bazar günü olduğundan məlumatla bağlı rəsmi qurumların, o cümlədən Göyçay İH başçısının mövqeyini öyrənə bilmədik. Buna baxmayaraq yazıda adları hallanan şəxsləri dinləməyə, mövqelərini çap etməyə hazırıq.

❑ E.HÜSEYNOV



# 5 yaşlı qızın qətli ölüm hökmünü təzədən gündəmə gətirdi

## Qatı cinayətkara ən yüksək cəzanı bərpa etmək təklifinə fərqli yanaşmalar var...

**Xəbər verildiyi kimi, mayın 28-də Bakının Pirallahı rayonunda dəhşətli qətl hadisəsi baş verib. 5 yaşlı Aişə Qələndərova 32 yaşlı qonşuluqda yaşayan Yakov Çernov tərəfindən zorlanıb, daha sonra isə vəhşicəsinə qətlə yetirilib. Azyaşlı körpənin başına gətirilən bu tükürpədici hadisə ölkədə böyük rezonans yaradıb, ölkədə ölüm hökmünün ləğvi ilə bağlı qərara yenidən baxılmasını aktuallaşdırıb.**

Bir sıra ziyalı və nüfuzlu şəxslər, hüquqşünaslar, ictimaiyyət nümayəndələri bu cəza növünün bərpasını istəyiblər. Onların fikrincə, islah olunmayan, ağır cinayət törədən insanların edam olunması zəruridir.

İxtisasca hüquqşünas olan deputat Fazil Mustafa da məsələyə biganə qalmayaraq bu barədə özünün Facebook hesabında status yazıb. O, 32 yaşlı qatilə ölüm cəzası verilməsini tələb edib: "İllərdir tələb edirəm ki, uşaqların və hamilə qadınların qəsdən öldürülməsinə görə ölüm hökmü bərpa olunmalıdır. Ancaq rəsmi qurumlar Avropa Şurası qarşısında öhdəliyi bəhanə edərək bu məsələdə bir qəti qərar verməkistəmirlər. Budur, Pirallahıda 5 yaşlı qıza təcavüz edərək öldürən 32 yaşlı qatilin indi cəzası nə olmalıdır? Bu məxluqun yaşamasının bir mənası qalırmı? Ömürlük həbs etsinlər və hər gün büdcədən qida da ayıraq ki, mədəsini doldursun, bunun zərərçəkmiş tərəf üçün hansı təsəllisi ola bilər ki? 5 yaşlı qızı, o mələk çocuğu bir sərxoşdan, bir manyakdan qoruya bilməyən bir cəmiyyətik, həqiqətən utancvericidir. Bir də verilən cavab bizim cəmiyyətdə əksər kriminal əməl daşıyıcalarına xarakterik cavabdır: "içkili idim, maşınla adamı vurdum", "içkili idim, bıçaqladım, güllələdim, qumbara atdım", "içmişdim və çəkmişdim gedib evi yandırdım". Canınız çıxsın içməyin, çəkməyin! Nəticəsini ki görürsünüz... Ailələrin görünməyən faciəsi əksər hallarda bu amillə bağlıdır. 5 yaşlı qız övladını qoruya bilməmənin günahını hamımız daşıyırıq".

Qeyd edək ki, Fazil Mustafa ötən il də Cəlilabadda baş verən qanlı qətl hadisə ilə əlaqədar olaraq ölüm hökmünün geri qaytarılması məsələsinin mütləq şəkildə cəmiyyətin müzakirəsinə çıxarılmasını tələb etmişdi. Öz növbəsində Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə 2011-ci ilin aprelində Milli Məclisdəki çıxışı zamanı bu məsələyə toxunsa da, parlament onun bu təşəbbüsünü dəstəkləməmişdi.

Pirallahıdakı cinayətə münasibət bildirən Ağazadə "Yeni Müsavat"a açıqlamasında ölüm hökmünün çıxış yolu olmadığını dedi: "Ölüm hökmünü ləğv etməkdənsə cəmiyyətdə maarifləndirmə işlərini gücləndirmək lazımdır. Bu cür cinayət hadisələrinin daha çox Avropa ölkələrində deyil, geridə qalmış ölkələrdə baş verdiyinin şahidiyik.

Buna görə də ölüm hökmünün bərpasının tərəfdarı deyiləm".

İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü, hüquq müdafiəçisi Novella Cəfəroğlu isə 5 yaşlı köpəni bu cür vəhşiliklə qətlə yetirən insana ölüm hökmünün verilməsini istəyib: "Əgər səlahiyyət əlimdə olsaydı, o şəxsə fikirləşmədən ölüm hökmü verərdim. Bu qərar artıq cəmiyyət üçün zəruri olub. Lakin hər kəsə məlumdur ki, ölkəmizdə məhkəmə strukturları doğru-dürüst çalışmırlar. Ehtiyat edirəm ki, çoxlu sayda günahsız insanlara məqsədli şəkildə ölüm hökmü verilsin. Bu səbəbdən bu qərarın ləğvini arzulamıram".


Aişə Qələndərova

Xatırladaq ki, Azərbaycanda ölüm hökmü 1998-ci il fevralın 10-da ləğv olunub. Həmin tarixə qədər barələrində ölüm hökmü çıxarılmış 128 nəfərin isə hökmü dəyişdirilib. Avropa Birliyi ilə sıx əməkdaşlıq edən ölkələrdə ölüm hökmünün tətbiqi qəbuledilməz haldır. Azərbaycan isə hələ Avropa Şurasına daxil olmadan ölüm hökmünü ləğv edərək, onu ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəzləyib.

Cinayət Məcəlləsinin 57-ci maddəsinə görə, ömürlük azadlıqdan məhrumetmə cəzası yalnız sülh və insanlıq əleyhinə, müharibə cinayətləri ilə aləqədar, şəxsiyyət, ictimai təhlükəsizlik və ictimai qayda və dövlət hakimiyyəti əleyhinə törədilmiş xüsusilə ağır cinayətlərə görə müəyyən edilir.

Məlum qərara görə, cinayət edən 18 yaşına çatmayan şəxslərə və qadınlara ömürlük azadlıqdan məhrumetmə cəzası təyin edilmir. Ömürlük azadlıqdan məhrumetmə cəzası əfv qaydasında on beş ildən çox, lakin iyirmi ildən çox olmayan müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilə bilər. Ömürlük azadlıqdan məhrumetmə cəzası bütün cəza müddətində həbsxanada saxlanılmaqla təyin olunur.

1991-ci ildə İnsan Hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasını təsdiq edən 6 saylı protokola əsasən yalnız 3 hal istisna olmaqla, ölüm cəzasının tətbiqi qadağan olunurdu. Bunlar: 1) Qanunsuz zorakılıqdan müdafiə, yəni zəruri özünümüdafiə vəziyyətində; 2) Məhkum saxlanılarkən və ya həbs yerindən qaçmasının qarşısı alınarkən; 3) Qiyam və ya kütləvi iğtişaş zamanı. Dövlətə qarşı həyata keçirilən qiyam və kütləvi iğtişaşın qarşısının alınması ölüm hadisəsinə yol verilə bilər.

Bəs görəsən cinayəti törədən 32 yaşlı Yakov Çernova ömürlük həbs cəzası tətbiq olunacaqmı? Hüquqşünas Müzəffər Baxışın sözlərinə görə, ömürlük azadlıqdan məhrumetmə cəzası təyin edilə bilən şəxs barəsində cinayət məsuliyyətinə cəlbetmə müddətinin tətbiq edilməsi məsələsini məhkəmə həll edir: "Əgər körpə uşaq zorlanma nəticəsində ehtiyatsızlıqdan dünyasını dəyişsəydi, başqa qərar, zorlandıqdan sonra vəhşiliklə öldürülübsə ömürlük həbs cəzası tətbiq edilə bilər. Belə ki, həmin cinayətkar barəsində C.M-in 120.2.6-cı maddəsinə əsasən 14 ildən 20 ilədək və yaxud ömürlük azadlıqdan məhrumetmə qərarı çıxarıla bilər. Məhkəmədə cinayətin baş vermə şəraiti, şəxsin psixi durumunun hansı səviyyədə olması aydınlaşdırılacaq. Yəni bu barədə yalnız məhkəmə qərar verə bilər. Əgər hakimlərdən biri xüsusi rəydə qalarsa, şəxsə ömürlük azadlıqdan məhrumetmə cəzası verilə bilməz".

Ümumiyyətlə ölkəmizdə son zamanlar bu cür qanlı qətliamların sayı artmaqdadır. Hər gün psixoz həddə çatmış insanların anlaqlı və ya anlaqsız şəkildə cinayət törətdikləri barədə xəbərlər eşidirik. Tanınmış psixoloq Dəyanət Rzayev bu məsələdə daha çox sahə müvəkkillərinin üzərinə məsuliyyət düşdüyünü deyir: "Sahə müvəkkilləri sahəsində olduğu hər bir ailə barəsində məlumatlı olmalıdır. O bilməlidir ki, hansı ailədə zorakılıq baş verə bilər. Əgər sahə müvəkkilinin səlahiyyətləri artırılarsa və onlar öz işlərinə daha çox məsuliyyətlə yanaşarlarsa, bu cür hadisələrin qarşısını almış olar".

Psixoloq ölüm hökmünün yenidən bərpa edilməsini mənasız hesab edib: "Bəziləri fikirləşir ki, ölüm hökmü insanlarda qorxu yaradar və cinayətlərin sayı azalar. Lakin bir psixoloq kimi bildirirəm ki, bu qərarın bərpası problemi həll edə bilməyəcək. Çünki belə bir qərar olsaydı da, bu cür hadisələr baş verəcək. Ona görə ki, bu - sosial hadisədir. Üstəlik, ölkəmiz bu barədə məlum konvensiyanı qəbul edib. Qərarı dəyişdirə bilmərik. Bu cür qətllərin baş verməməsi üçün başqa çıxış yolları tapmaq lazımdır. Unutmayaq ki, həmin şəxs 10-15 ildən sonra həbsdən çıxıb yenidən bu cür cinayətlər törətməyə meyilli olacaq. Lakin heç də 15 illik həbsi asan hesab etmək olmaz. Məlumdur ki, o şəxslərə həbs daxilində xeyli əzab-əziyyət verəcəklər. Onlar üçün 15 il həbs ölümdən də betərdir. Ümumiyyətlə, hər şey məktəbdən başlayır. Hər hansı bir şagird aqressiya nümayiş etdirirsə, mütləq məktəbdəki psixoloqlar onunla danışmalıdır. Lakin hamı bilir ki, məktəblərdə şagirdlər üçün nəzərdə tutulan psixoloji xidmət sıfır səviyyəsindədir".

Əlavə edək ki, hal-hazırda dünyanın 70-dən çox ölkəsində ölüm hökmü qüvvəsindədir. 25 ölkədə isə ölüm hökmü saxlanılsa da, faktiki tətbiq olunmur. Qonşu Türkiyədə bu cəza 2002-ci ildə qismən, 2006-cı ildə isə tamamilə ləğv edilib. Ölüm hökmünün saxlanıldığı ölkələr arasında Çin, İran, Pakistan, Səudiyyə Ərəbistanı, İraq, Vyetnam kimi bir o qədər də yüksək inkişaf etməmiş ölkələrlə yanaşı, ABŞ, Yaponiya, Sinqapur kimi dünyanın inkişaf etmiş ölkələri də yer alır.

❑ Xalidə GƏRAY




# FİFA seçkilərində dünya ölkələri üz-üzə gəldi

## Azərbaycan Rusiyanın namizədinə səs verdi; **Fuad Musayev:** "ABŞ min yola əl atdı ki..."

**Son bir həftədə dünyanın əsas gündəmini zəbt edən məsələlərdən biri Beynəlxalq Futbol Assosiasiyasının (FİFA) daxilində baş verən hadisələr oldu. Əvvəlcə mayın 27-də Sürixdə FİFA-nın bir sıra yüksək rütbəli şəxsləri həbs edildi. Onlar 10 milyard dollardan çox vəsaiti mənimsəməkdə şübhəli bilindilər.**

Maraqlıdır ki, korrupsiya cinayətləri üzrə işdə 14 futbol funksionerinin, o cümlədən FİFA-nın iki vitse-prezidentinin adı da var. Bu həbslərin həyata keçirilməsində əsas fəallıq göstərən ölkə ABŞ oldu. ABŞ məhkəməsi FİFA-nın 9 məmuruna və təşkilatın fəaliyyəti ilə bağlı 5 kompaniya rəhbərinə qarşı korrupsiya və pulların yuyulması maddələri üzrə ittiham irəli sürdü.

Heç şübhəsiz ki, FİFA-nın gündəmə gəlməsinə əsas səbəb bu həbslər olmadı. Qurum daxilində keçirilən korrupsiya əməliyyatından iki gün sonra, yəni mayın 29-da FİFA prezidentliyinə keçiriləcək seçkilər əsas gündəmi zəbt edən hadisə oldu. Həbsləri Rusiya prezidenti Vladimir Putin Yozef Blatterə qarşı təxribat kimi qələmə verdi. UEFA prezidenti Mişel Platini seçkilərdən bir gün öncə açıq şəkildə FİFA rəhbərinin əleyhinə çıxaraq, onun qalib gələcəyi təqdirdə İcraiyyə Komitəsindəki yerlərindən imtina edəcəklərini söylədi. FİFA və UEFA rəhbərlərinin fonunda ABŞ və Rusiya qarşıdurması yaşandı. Belə ki, ABŞ prezidentlik uğrunda mübarizə aparan iki namizəddən İordaniya şahzadəsi Əli bin əl-Hüseyni, Rusiya isə hazırkı FİFA rəhbəri Yozef Blatteri dəstəklədi. Sonda qalib tərəf şimal qonşumuz oldu. ABŞ-ın təbliğatı nəticəsində Avropa ölkələrinin əksəriyyəti Y.Blatterə səs verməsə də, sonda gülən tərəf yenə o oldu və 5-ci dəfə FİFA prezidenti seçildi. Amerika və ingilislər DÇ-2018-in Rusiyaya verilməsini də həzm edə bilmədilər. Göründüyü kimi, futbolun siyasət olmadığını düşünənlər yanıldılar...

FİFA-da yaşananlar ölkəmizdən də yan keçmədi. ABŞ və Rusiya arasındakı mübarizədə Azərbaycanın hansı ölkənin tərəfində olduğu əsas müzakirə mövzusu və maraq doğuran hadisə oldu. Məsələ ilə bağlı hələ seçkidən əvvəl AFFA-nın mətbuat xidmətinin rəhbəri Mikayıl Nərimanoğlu hər kəsin çəkinmədən dəstək verəcəyi namizədin adını açıqladığı bir vaxtda, AFFA prezidenti Rövnəq Abdullayevin kimə səs verəcəyini bilmədiyini demişdi.

Komanda.az-ın AFFA-dakı mənbədən əldə etdiyi məlumata görə, Rövnəq Abdullayev Sürixə getməmişdən əvvəl kimə səs verəcəyini müəyyənləşdirib. Mənbə əminliklə bildirib ki, AFFA prezidenti seçkidə Zepp Blatterə səs verib. Mənbə onu da qeyd etdi ki, Abdullayevin belə seçimində Rusiyanın təsiri olub. Belə ki, məsələylə bağlı AFFA prezidentiylə Rusiyanın idman naziri Vitali Mutko və Rusiya Futbol İttifaqının (RFİ) prezidenti Nikolay Tolstıx arasında telefon danışığı olub. Abdullayev seçkidə Blatterə səs verəcəyiylə bağlı Rusiya tərəfini əmin edib. Avropa ölkələrindən Rusiya, Belarus, Azərbaycan və Ermənistanın Blatterə səs verdiyi bildirilir.

AFFA-nın keçmiş prezidenti Fuad Musayev də ali futbol qurumunda yaşananlarla münasibət bildirib. O, Blatterin seçilməsini alqışlayıb: "Yozef Blatterin yenidən prezident seçilməsini çox yaxşı qarşıladım. FİFA-nın üzv assosiasiyaların seçimini alqışlayıram. ABŞ min yola əl atdı ki, FİFA-nı parçalasın. Dünən gah bomba xəbərini yaydılar, gah qızlar gəlib orda səs-küy saldılar. ABŞ prokurorluğundan gəlib FİFA-da yoxlanış edirlər. Belə şey olarmı ki, başqa ölkədən gəlib kimlərisə tutub aparsınlar? Platini əclafdır. Blatterin prezident olmasını istəmirdi, amma seçildikdən sonra gəlib onun əlini sıxır. Platini əsl sifətini göstərdi. Halbuki Blatter prezident gəldikdən sonra Platinini UEFA-ya gətirdi. Onun köməyi ilə gəldi vəzifəyə".

Argentinanın əfsanəvi futbolçusu Dieqo Maradona isə Blatteri sərt tənqid eləmişdi: "Bu qoca adamlar futbola və onun şəffaflığına nifrət edirlər. Əvvəllər bu barədə danışanda məni ağılsız adlandırırdılar. Onlar futbolda nəsə əldə edənlərə heç bir hörmət göstərmirlər. İndiki təşkilatda heç bir futbol, heç bir şəffaflıq yoxdur. Bu yalanı dayandırmaq və Blatteri kənarlaşdırmaq lazımdır".

Göründüyü kimi, dünya futbolçuları və futbol mütəxəssislərinin FİFA seçkilərində coğrafi baxımından yaxın olduqları ölkəni, yəni ABŞ və ya Rusiyanı dəstəkləməsi bu idman növünün çərçivədən çıxdığını və artıq siyasətə çevrildiyini sübut etdi. Azərbaycanın bu seçkilərdə hansı ölkənin tərəfində olduğu, o ölkənin namizədinə səs verdiyi hər kəsə məlumdur...

❑ **Cavanşir ABBASLI**

# "Tehran Güney Azərbaycan türklərini təhqir etdi"

## **Ağrı Qaradağlı:** "Təbrizdə Güney Azərbaycanın "Traxtor" kulubuna edilən həqarətli işlərə sərt təpkimizi ortaya qoyacağıq"

**"İran çempionluğunun bir addımlığında olan Təbrizin "Traxtorsazi" klubuna qarşı İran futbol rəsmilərinin iyrənc saxtakarlığı sayəsində müəmmalı bir şəkildə "Traxtor"dan alıb və kuboku panfarsizmin mərkəzi olan İsfahan şəhərinə apardılar. Bu, yetməmiş kimi, 35 milyonluq Güney azərbaycanlının duyğuları ilə oynadılar və həqarət etdilər".**

Güney Azərbaycan Milli Oyanış Hərəkatının (GAMOH) məsul şəxslərindən biri olan Ağrı Qarabdağlı bunu "Yeni Müsavat"a açıqlamasında dedi. Onun sözlərinə görə, İran hakimiyyəti bir daha Güney Azərbaycan türklərini təhqir etdi: "Bunu həm də Milli Qiyamın (2006-cı ilin may hadisələri-C.T.) ildönümünə bir həftə qalmış etdi. Deməli, İran məsulları 2006-cı ilin may hadisələrindən yetərincə dərs almayıb. İran rejiminin bu məkrli işləri bir daha sübut etdi ki, bizim yolumuz haqq yoludur. Hakimiyyət bu addımı ilə nə qədər antitürk bir rejim olduğunu sübut etdi".

A.Qaradağlı məsələnin üzərinə gediləcəyini bildirdi: "GAMOH olaraq öz etirazımızı İran rejiminə bildirəcəyik. Həm Milli Qiyamın ildönümünə görə, həm də Təbrizdə Güney Azərbaycanın "Traxtor" kulubuna edilən həqarətli işlərə sərt təpkimizi ortaya qoyacağıq. UNPO-ya bu barədə geniş etiraz hazırlanıb və sənədlərin əlimizə çatmasını gözləyirik. Bundan əlavə, GAMOH olaraq Güney Azərbaycandakı durum və konkret olaraq bu məsələ ilə bağlı konfrans keçirəcəyik. Sonda Türkiyədəki İran konsulluğu önündə etirazımız olacaq".


Ağrı Qaradağlı

GAMOH bildirir ki, matçı idarə edən hakimlər eksperti Təbriz klubunun oyunçusunun birinə nədən sarı kart verdiyini aydınlaşdıra bilməyib. Bundan sonra qırmızı kart alaraq meydançadan çıxarılan oyunçuya qarşı da haqsızlığın olduğu qeyd olunub: "Hakimlər "Traxtor"un xeyrinə olan yüzdə-yüz bir penaltinin olduğunu təsdiq etdilər. Lakin oyunu idarə edən hakim bu penaltini verməli. Bunların nəticəsində İran hakimiyyəti çempionluq kubokunu "Traxtor" kulubundan oğurlayıb fars şəhərinə apardı. "Traxtor"un baş direktoru bildirib ki, əlində əsaslı sənədlər var və bunlar planlı şəkildə çempionluğu "Traxtor"dan aldıqlarını sübut edir".

Deputat Fazil Mustafa isə sosial şəbəkələrdə qeyd edib ki, İran futbol çempionatında Təbrizin "Traktorsazi" komandasının çempion olmaması üçün İran hakim dairələri bütün fırıldaqları işə saldı və bu, gözlənilən idi: "Aldığım məlumata görə, son turda digər bir favorit olan İsfahan komandasının hesabının bilinməməsi üçün stadionda internet tamamilə kəsilib, yalandan İsfahan komandasının məğlub olması barədə informasiya verilib. Həmçinin, "Traktorsazi"nin aparıcı oyunçusuna qırmızı kart verilib və doğma stadionda hesab bərabərə qalıb. Təbriz klubunun oyunçuları heç-heçənin kifayət etdiyini düşünərək sonluqda riskə getmədilər. Oyun başa çatanda isə bəlli oldu ki, İsfahan komandası qalib gəlib və çempion olub. Demək ki, bir Azərbaycan komandasının çempion olması İran rejimi üçün ən arzuolunmaz bir hadisə olacaqdı. Hətta Sovet rejimi də bu qədər həyasızlıq etməmişdi. Gürcüstanın, Ukraynanın, Belarusun komandaları da çempion ola bilirdi. Bu gün Rusiyada türk komandası olan "Rubin" də çempion ola bildi. Yeni bu qeyd olunanlar İranda şovinizmin ən son nümunələrindən sayıla biləcək bir faktdır".

❑ **Cavid TURAN**

# Ermənistan pasportlu köçkün Bakıda ev ala bilmir

## **Rüstəm Cavadov:** "Əgər ev vermirlərsə, qaytarsınlar bizi Ermənistandakı evimizə..."

**Redaksiyamıza müraciət edən şikayətçi Rüstəm Cavadov 27 ildir ki, Ermənistan pasportu ilə Bakıda yaşadığını söyləyir. Onun sözlərinə görə, bu illər ərzində Azərbaycanın dövlət orqanlarına, məhkəmələrə dəfələrlə müraciət edib. Vəkili onu arxayın salıb, ev, sənəd problemini həll edəcəyinə söz verib. Lakin...**



1970-ci il təvəllüdlü Rüstəm Cavadov deyir ki, vəkilin sözünə inanıb, ona 3 min dollar verib, amma puldan da olub, insanlara inamından da: "1988-ci ildə Ermənistanın Vedibasar rayonu, Şiitli kəndindən məcburi köçkün düşmüşük. 4 ailə üzvümlə birgə Nərimanov rayonu, İnqilab küçəsində 2 otaqlı evlə Şiitlidəki 10-otqalı evimizi dəyişdik. Az sonra qərar verildi ki, Ermənistandan köçkün düşənlər Bakıya deyil, rayonlara məskunlaşsınlar. Bizi də dəyişdiyimiz evdən çıxardılar".


53 saylı MKİS-nin rəisi
E.Eyvazova

Vətəndaş Cavadov Rüstəm İsmayıl oğlunun 4 nəfər ailə üzvü ilə Azadlıq prospektindəki 116 saylı evin, 99 saylı mənzilinə köçürülməsi Sizə tapşırılır.

Nərimanov rayon İcra Hakimiyyətinin
Mənzil şöbəsinin müdiri M.T.Bayramov

Onun sözlərinə görə sonradan qərarın icrası dayandırılıb. Amma dəyişdikləri evi geri qaytarmayıblar: "Beləcə 4 nəfərdən ibarət ailə üzvümüzlə küçədə qaldıq. 2001-ci ilə kimi kirayələrdə yaşayırdıq. Nərimanov Rayon İcra Hakimiyyətinə müraciət edirdik ki, bizim evimizi versinlər. Nəhayət, 2001-ci ildə Nərimanov Rayon İcra Hakimiyyətinin Mənzil Şöbəsinin müdiri Mehdi Bayramovun 49 saylı məktubuna əsasən Qaçqın və Məcburi Köçkünlərlə iş üzrə Komitənin Nərimanov Rayon Şöbəsinin rəisi İslam müəllimin, 53 saylı Mənzil Kommunal İstismar Sahəsinin rəisi E.Eyvazovun iştirakı ilə Azadlıq prospektindəki 116 saylı evin 99 saylı mənzilinə köçürüldük. Lakin sevincimiz uzun çəkmədi. 25 gün sonra Nərimanov Rayon Məhkəməsinin qanunsuz qərardadı ilə evdən çıxarıldıq. Bütün əşyalarımız orada qaldı. Bundan sonra Mehdi Bayramova müraciət etdim. Dedi ki, Ali Məhkəməyə kasasiya vermək üçün vəkil lazımdır. Onun iştirakı ilə dostu olan Abşeron hüquq məsləhətxanasının sədri Fərzəli İbrahimovla görüşdük. F.İbrahimov dedi ki, bu işi həll edəcəyəm. Müqavilə bağlayıb 3 min dollar aldı. Dedi Südabə xanımla (o dövrdə Ali Məhkəmənin sədri olub - E.M) danışıb işi həll edəcəyəm. Bu gün də evsizəm, üstəlik, 3 min dollarım əlimdən gedib".

Şikayətçi bildirir ki, Bakıda polis onu saxlayanda Ermənistanda aldığı sovet pasportunu göstərir və problemləri başlayır: "Polislərə düşdüyüm vəziyyəti uzun-uzadı izah etməkdən yorulmuşam. Burada mənzilim yoxdur ki, qeydiyyata düşüm, Azərbaycan pasportu alım. Azərbaycanlıyam, amma bu gün də Ermənistanda qeydiyyatdayam. Evimi versinlər. Ermənistandakı evimizi Bakıdakı evə dəyişmişik. Qərar verib bizi çıxarıblar. Sonra da qərarın icrasını dayandırıblar. Biz qanuna tabe olmuşuq. İndi də dövlət bizə evimizi versin. Vəkil Fərzəli İbrahimov da pulumu alıb, gedib işini görsün. 45 yaşım var. Evsizlikdən evlənə də bilmirəm. Əgər ev vermirlərsə, qaytarsınlar bizi Ermənistandakı evimizə".

R.Cavadov 27 illik yazışmalardan cana doyduğunu, intihar etmək həddinə gəldiyini də açıqlayıb: "Ölkəmizdə 1-ci Avropa Oyunları keçiriləcək. Həmin oyunlara tamaşaçı olaraq qoşulmaq istəyirdim. Lakin Ermənistan pasportu ilə mənə bilet satmadılar. Az qalırdılar ki, məni həbs eləsinlər. Dərdimi deməyə yer tapmıram. Ermənistandan olan və parlamentə oturan hər bir deputata müraciət edirəm, mənə halal evimi almaqda kömək edin".

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 117 (6145) 1 iyun 2015



# Saakaşvilinin qubernator təyinatının arxasında Azərbaycan amili

## Elxan Şahinoğlu: "O, Azərbaycan-Ukrayna iqtisadi və enerji əməkdaşlığının hərəkətverici qüvvəsinə çevrilə bilər..."

**Xəbər verdiyimiz kimi, Ukrayna prezidenti Pyotr Poroşenko Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvilinin Odessa Vilayət Dövlət Administrasiyasının başçısı təyin olunması haqqında fərman imzalayıb. Eyni zamanda, ona Ukrayna vətəndaşlığı verib. Ancaq Saakaşvilinin bu təyinatı birmənalı qarşılanmayıb.**

Politoloq Elxan Şahinoğlunun fikrincə, Saakaşvilinin Odessa vilayəti administrasiyasına rəhbər təyin edilməsi indiki situasiyada doğru qərardır. Ekspertin fikrincə, Saakaşvili məhz bir bölgədə Gürcüstan təcrübəsini tətbiq etmək imkanı əldə edib: "Çünki o, Poroşenkonun müşaviri olaraq bacardığını etdi. Saakaşvili açıq şikayət edirdi ki, bəzən onun məsləhətlərini eşitmirlər, ona görə də islahatlar ləng gedir. Poroşenko isə öz növbəsində Saakaşviliyə anlatmağa çalışırdı ki, Ukrayna Gürcüstan deyil, korrupsiyanı qısa müddətdə yox edib islahatları sürətləndirmək üçün vaxt lazımdır. Poroşenko Saakaşviliyə konkret sahə verdi ki, bu qədər bacarıqlısansa, öz imkanlarını işdə göstər, Odessa vilayətini düzəlt. Yəni Saakaşviliyə poliqon verdi".

Ancaq Şahinoğlunun fikrincə, bu, heç də asan olmayacaq: "Çünki Odessa Gürcüstana bənzəmir. Odessanın əhalisi çox qarışıqdır, ruslar arasında separatizmə meyllilik var. Digər tərəfdən, Saakaşvilinin Odessada uğur qazanmaması üçün Moskva əlindən gələni edəcək. Çünki Saakaşvili Odessada uğur qazansa, bu, Kremlin məğlubiyyəti olacaq, Moskva separatizmin Ukraynanın mərkəzinə doğru irəliləməsini təmin edə bilməyəcək. Saakaşvili bu amili nəzərə alır. Ona görə də təyinatının sabahısı günü elan edib ki, Odessa vilayətinin idarəetməsində ciddi kadr dəyişiklikləri həyata keçirəcək, Gürcüstanda olduğu kimi, Odessada da idarəetməyə müsabiqə yolu ilə gəncləri cəlb edəcək. Saakaşvilini başqa bir çətinlik də gözləyir. Ukraynanın məşhur oliqarxı Kolomoyskiy Dnepropetrovksla yanaşı Odessaya da nəzarəti həyata keçirirdi. Kolomoyskinin adamları Odessada böyük iri müəssisələri ələ keçirib işlədirdilər. Doğrudur, hazırda Poroşenko Kolomoyskini idarəetmədən uzaqlaşdırıb, ancaq oliqarx nəzarətindəki müəssisələri kiminləsə bölüşmək istəmir".

Saakaşvilinin Ukraynada qubernator təyinatı onun yenidən Gürcüstana qayıdıb siyasi post tutması yolunu da bağlayıb: "Saakaşvili yenidən Gürcüstanda prezident seçiləcəyinə ümidli idi. Ancaq son həftələrdə Saakaşvilinin partiyasında baş verən parçalanma onun Gürcüstandakı siyasi şanslarının azaldığını göstərdi. Buna görə də Saakaşvili sonda Poroşenkonun təklifinə razılıq verdi".

Və nəhayət, Saakaşvilinin məhz strateji əhəmiyyətli liman şəhərinə təyin olunmasının arxasında ciddi siyasi mətləblər dayanır. E.Şahinoğluna görə, burda Azərbaycan amili də var: "Odessa Qara dənizə çıxışı olan liman şəhəridir. Şəhərdə bölgənin nəhəng neftayırma zavodu var. Bu zavoda ARDNŞ illərdir maraq göstərir. İkincisi, Azərbaycan Gürcüstanın Qara dənizə çıxan limanlarında qaz terminalları inşa edir. Gələcəkdə bu terminallar vasitəsilə Qara dəniz ölkələrinə sıxılmış qaz satmaq olar. Həmin sıxılmış qazı Odessa limanı üzərindən Ukraynaya satmaq olar. Onsuz da Ukrayna Rusiyadan qaz asılılığını azaltmaq istəyir. Demək, Odessaya çatdırılan Azərbaycan qazı Ukrayna üçün alternativ enerji mənbəyi rolunu oynayacaq. Digər tərəfdən, təxminən 15 ildir ki, Bakı ilə Kiyev arasında Odessa-Brodı neft kəmərinin Azərbaycan nefti ilə doldurulmasına dair danışıqlar gedib. Saakaşvili Odessa qubernatoru olaraq bu layihəni də aktuallaşdıra bilər. Yəni Saakaşvili Azərbaycan-Ukrayna iqtisadi və enerji əməkdaşlığının hərəkətverici qüvvəsinə çevrilə bilər. Saakaşvilinin Bakı ilə Kiyev arasında bu vasitəçiliyi Azərbaycanın xeyrinədir. Saakaşvili Azərbaycanın və prezident İlham Əliyevin yaxın dostudur. Bu dostluq imkan verəcək ki, necə ki, Azərbaycan vaxtilə Gürcüstana yatırımlar həyata keçirdi, eləcə də indi Azərbaycan Odessanın müxtəlif sahələrinə yatırımlar həyata keçirsin. Ukraynada hazırda iqtisadi vəziyyət ağır olsa da, Ukrayna bazarı Gürcüstan bazarından böyükdür, Avropaya çıxış imkanı var. Qərb dövlətləri və maliyyə institutları Ukraynaya böyük maliyyə vəsaitləri ayırırlar. Odur ki, Azərbaycan bu münbit bazardan istifadə edə bilər. Mən istisna etmirəm ki, Saakaşvili Odessa qubernatoru olaraq ilk xarici səfərini Azərbaycana edəcək. Saakaşvilini Türkiyədə də yaxşı tanıyırlar. O, Azərbaycanla yanaşı Qara dəniz üzərindən Türkiyə ilə sıx münasibətlər qurub, türk iş adamlarını Odessadakı iqtisadi layihələrə, dövlət müəssisələrinin özəlləşdirilməsinə cəlb edə bilər".

❑ KƏNAN



# Türkiyə həlledici seçki həftəsinə girdi

## Seçkinin favoriti kimdir? Qabil Hüseynli: "Gizli silah yardımı iddiaları AKP-nin səslərinə təsir edə bilər..."

**Türkiyədə parlament seçkilərinə bir həftə qaldı. İyunun 7-də qardaş ölkədə həlledici parlament seçkiləri keçiriləcək. Bu seçkilərin "həlledici" adlanmasının əsas səbəbi seçkinin nəticəsində Türkiyənin yeni konstitusiya və dövlət idarəçilik sisteminə keçidinə əsas yaradacağı ilə bağlıdır. 2002-ci ildən davamlı olaraq hakimiyyəti qoruyub saxlayan AKP bu seçkiləri qazanacağı və tək partiya hökuməti quracağı təqdirdə Türkiyənin yeni konstitusiyası və prezident idarəçilik sisteminə keçidi baş verəcək.**

Bu mənada Türkiyədə gərgin seçki kampaniyası davam edir. Hakim AKP ilə yanaşı parlament partiyaları CHP və MHP, o cümlədən yeni yaradılmış, kürdlərin partiyası olan HDP fəal seçki kampaniyası aparır. Hazırda parlamentdə təmsil olunan 3 partiyanın yenidən parlamentə daxil olacağı, eyni zamanda nəticədən asılı olaraq HDP-nin 4-cü təşkilat kimi parlamentə daxil olacağı ilə bağlı ehtimallar var. Seçkinin favoriti isə yenə də hakim AKP hesab olunur.

Ancaq güclü siyasi natiq, xarizmatik lider olan Ərdoğanın prezident seçilməsindən sonra AKP-nin seçki fəaliyyəti nisbətən zəifləyib. Üstəlik camaatla baş verən qarşıdurma, eləcə də AKP daxilində köhnə komanda daxilində baş qaldıran narazılıqlar hakim partiyanı müəyyən mənada zəiflədir. Bütün bunlara əlavə olaraq mayın 29-da Türkiyənin "Cümhuriyyət" qəzeti Türkiyədən Suriyaya dərman yardımı aparan yük maşınlarında ələ keçən silah və sursatın ifşa olunmasının video və foto görüntülərini yayıb. Müxalifət bu hadisənin hökumətin Suriyada radikal islamçı qrupları silahlandırması adlandıraraq izahat tələb edib.

Baş nazir Əhməd Davudoğlu isə bildirib ki, silah və sursat yardımı hökumət tərəfindən Suriya türkmənlərinə göndərilib. Eyni zamanda baş nazir videogöntülərin yayılmasını dövlətə xəyanət və casusluq adlandırıb. Bir sıra müşahidəçilərə görə, silah qalmaqalı hökumət üçün ciddi minusdur. Çünki hazırda AKP iqtidarı üzərində bu məsələ ilə bağlı ittihamlar var və seçkilər öncəsi bu iddiaların yenidən tirajlanması nəticələrə təsir edəcək.

Politoloq Qabil Hüseynli Türkiyədə qarşıdan gələn seçkiləri "Yeni Müsavat"a şərh edərkən bildirib ki, ilkin sorğular əsasında seçkinin nəticələri ilə bağlı proqnozlar verilir. Onun fikrincə, proqnozlar əsasən, səs faizlərində müəyyən dəyişikliklər olacaq: "Seçkilər ərəfəsində fəallıq göstərən sosioloji qurumların çoxu AKP-nin təsiri altında olan təşkilatlardır. Onlar isə bir qayda olaraq AKP-nin öndə olduğunu, hətta qarşıya qoyduğu təkbaşına iqtidar olmağa yetəcək qədər səs toplayacağını bəyan edirlər. Amma az da olsa müstəqil sosioloji sorğu mərkəzləri də var. Onların bir qismi xaricdə, o cümlədən Amerikada yerləşir. Bunların, demək olar ki, hamısı iddia edir ki, seçkilər bu gün keçirilərsə, AKP-nin ala biləcəyi səs 33,34, ən uzağı 35 faiz civarındadır. Məlum olduğu kimi, CHP də 35 faiz səs uğrunda mübarizə aparır. Və bu hədəflərə mütləq çatacağını iddia edir. MHP-nin səs səviyyəsi sabit sayılır. Hardasa 18-20 arası səs toplayacağı proqnozlaşdırılır. Kürdlərin partiyası olan Xalqların Demokratik Partiyası (HDP) ciddi seçkiqabağı təbliğat aparsa da, bəzi sosioloji rəy mərkəzləri onun seçki baryerini aşa bilməyəcəyini, bəziləri isə aşa biləcəyini göstərirlər. Aşa bilməyəcəyini göstərənlər daha çoxdur. Aşa biləcəyi təqdirdə isə bu, hardasa parlamentdə 61-62 mandat deməkdir. Bu isə haradasa AKP-nin maraqlarına da uyğundur. AKP-nin gələcək koalisiya hökumətini CHP və ya MHP ilə deyil, HDP ilə qurmağı arzuladığı daha çox diqqəti çəkir".



Qabil Hüseynli

Qabil Hüseynli deyir ki, seçkilərdə AKP-nin səs itirəcəyi ehtimalları yüksək olduğu üçün artıq prezident Ərdoğan özü də seçki kampaniyasına qatılıb, halbuki qanunla bu qadağandır. Ancaq eyni zamanda ekspertin fikrincə, hakim partiyanın təbliğat imkanları və gücü kifayət qədər çoxdur: "AKP-nin vəziyyəti ağır olduğundan Ərdoğan da seçkiqabağı kampaniyaya qoşulub və AKP-nin adından təbliğat aparır. Halbuki, prezidentin siyasi mənsubiyyəti yoxdur, xüsusən də seçkilər zamanı o, bütün partiyalardan bərabər məsafədə dayanmalıdır. Belə bir şəraitdə CHP və MHP seçkilərdə koordinasiya edilmiş siyasət apara bilsələr, xüsusən də seçki saxtalaşdırmalarının qarşısını almağı bacarsalar, iqtidarı ələ ala bilərlər. Ancaq hazırda Türkiyə cəmiyyətində seçkilərin saxtalaşdırıla biləcəyi və yaxud səslərin satın alına biləcəyi haqqında polemikalar daha geniş yayılıb. Məsələn, CHP sədri Kılıcdaroğlu iddia edir ki, seçici səslərini almaq üçün hətta büdcədə gizli bir maddə də nəzərdə tutulub. Yəni səslərin alınması üçün ayrılan vəsait büdcədən çıxacaq. Kılıcdaroğlu bunun çox gizli bir maddə olduğunu deyir. Türkiyədə kasıb və seçki mədəniyyəti o qədər də yüksək olmayan ailələri maddi yardım hesabına siyasi partiyaların tərəfinə çəkmək geniş yayılmış metodlardan biridir".

O ki qaldı ifşa edilən silahlar və türkmənlərə silah yardımı edilməsi iddialarına, Q.Hüseynli deyir ki, müxalifət geniş şəkildə istifadə edə bilsə, silah olayı AKP üçün ciddi başağrısına çevrilə bilər. Silahların yalnız türkmənlərə göndərilməsi iddiasının inandırıcı olmadığını deyən politoloqa görə, AKP hökuməti daha çox Suriyadakı silahlı qruplara yardım etdiyi üçün indi bu videoların yayılması hökuməti pis duruma salıb: "Türkmənlərə silah göndərilməsi yaxşı məsələdir, əgər doğrudan da belədirsə. Amerikanın İraqa hücumu zamanı da, İŞİD-in İraqda hücumları zamanı ən çox ziyan çəkən türkmənlər olub. Bərzani bir qədər əvvəl bəyan etdi ki, Kərkükü kürd ərazilərinə qatdı, ancaq Ankaradan bir reaksiya olmadı. Bu mənada silahların türkmənlərə getməsi şübhəlidir, çünki türkmənlər neçə müddətdir ki, ah-nalə edib yardım istəyirlər. Bu silahlar, ”ən-Nusra"ya, ASO-ya, kürdlərə gedə bilər. Türkiyə hökuməti faktiki olaraq türkmənləri köməksiz qoyub, onların pərən-pərən düşmələrinə göz yumub.

Əgər cəmiyyətdə bu silahların təyinatı ilə bağlı düzgün izahat işi aparılarsa, bu, seçkilərə təsir edə bilər. Məlum olduğu kimi, silahlar gizli şəkildə müxtəlif radikal qruplara verilir, ancaq İraqda 5 milyonluq azərbaycanlı kürdlərin tabeliyində qalıb, AKP iqtidarı isə buna seyrçi münasibət bəsləyib. Bu cür iddialar seçkilərin nəticələrinə, AKP-nin səslərinə təsir edə bilər".

❑ KƏNAN

**Ötən saylarımızda Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsi "V" yaşayış sahəsində "Badi Kübə" MTK tərəfindən inşa olunan "13 M" saylı çoxmərtəbəli binanın aldadılan payçılarının redaksiyamıza yolladığı məktubunu dərc etmişdik.**
**Yazıda adı hallanan Asif Əsədullazadə redaksiyamıza gələrək mövqeyini açıqlayıb.**


XƏBƏRDARLIQ
Bu mənzil Ali məhkəmənin qərarı və Suraxanı rayon məhkəmə icraçılarının 02 fevral 2015-ci il tarixli aktına əsasən "A.R. & Ko" MMC-nin şəxsi əmlakına verilmişdir. Bu mənzilə müdaxilə edən hər bir kəs cinayət məsuliyyətinə cəlb olunacaqdır.
"A.R.& Ko" MMC-nin direktoru R.Əsədullazadə

# İş adamı ona yönələn ittihamlara cavab verdi

## Asif Əsədullazadə 53 payçı ilə birgə özünün də dələduzluqla üzləşdiyini deyir

Deyib ki, payçılar da onun kimi dələduzluqla üzləşiblər: "2005-ci ildə "A.R and KO" MMC-nin 1 hektar 68 sot ərazisinin 40 sotunda çoxmərtəbəli bina tikmək qərarına gəldim. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbova müraciət edib tikintiyə icazə aldım. Maliyyə çətinliklərinə görə "Badi Kübə" MTK ilə müqavilə bağladıq. Müqavilənin şərtlərinə görə bütün tikinti, sərəncam MTK-ya keçdi və əvəzində onlar mənə həmin binadan 8 min kv metr yaşayış sahəsi verməli idilər. 2008-ci ilə qədər işlər müqavilə üzrə getdi. 2008-ci ildə "Badi Kübə" təsisçiləri Zaur Cabbarov və Nəsib Əliyev binanın 2 blokunun tikintisindən imtina etdilər. Bu zaman ev alqı-satqısı ilə məşğul olan Ədalət Qənbərovun vasitəsi ilə başqa bir şəxs - Şamil Hacıyev həmin 2 blokun tikintisini öz üzərinə götürdü. Belə razılıq əldə olundu ki, 8 min kv metr sahənin 4 min kvadratını Şamil Hacıyev "A.R and KO"-ya verəcək. Bundan başqa dəllallıq edən Ə.Qənbərova da 500 kvadratmetr verilməsi öhdəliyini də üzərinə götürmüşdü".

A.Əsədullazadə deyir ki, bu razılaşmadan sonra Türkiyəyə müalicəyə gedib. Qayıdanda isə görüb ki, binanın tikintisi ilə Ş.Hacıyevin əvəzinə Ədalət Qənbərov məşğuldur: "Araşdırma zamanı məlum oldu ki, Şamillə aralarında 200 min manata görə mübahisə yaranıb. Binanın tikintisini Ədalət Qənbərov aparacaq. Qənbərov dəstəyimlə "Badi Kübə" MTK-ya sədr seçildi və onun qanunsuzluqları açıq şəkil aldı. O, ilk növbədə müqaviləə əsasında "A.R ənd Ko" şirkətinə verilmiş mənzilləri təkrar satdı. Payçılar arasında münaqişə yaratmağa başladı. Eyni zamanda ona aid olmayan, Zaur Cabbarov və Nəsib Əliyevin inşa etdiyi 3 və 4-cü blokları təkrarən satmağa başladı. Onun qeyri-qanuni əməlləri payçıların narazılığına səbəb oldu. Onlar MCQMİ-yə, sonra KQMİ-yə müraciət etdilər. Şikayətlər əsasında KQMİ-də cinayət işi başladı. Gözləyirdik ki, dələduzluqla məşğul olan Ə.Qənbərov cəzalandırılacaq. Lakin 1 və 2-ci blokları inşa edən Zaur Cabbarov və Nəsib Əliyev həbs olundular".





A.Əsədullazadə deyir ki, gözləmədiyi halda onu da istintaqa cəlb ediblər: "Müstəntiq Elxan Əbdülrəhmanov mənə də dələduzluq ittihamı elan etmək istəyirdi. Ona "Badi Kübə" MTK ilə 25 iyun 2005-ci ildə imzaladığımız müqaviləni göstərdim. Hərəkətlərimin qanuni olduğunun isbat etməyə çalışdım. Bunun əvəzində bildirdi ki, həmin müqaviləni Ə.Qənbərov birtərəfli qaydada ləğv edib. Bunu biləndən sonra 1 saylı İnzibati İqtisad Məhkəməsinə üz tutdum. Ə.Qənbərovun həmin müqaviləni birtərəfli qaydada ləğv etməsinin qanunsuz olduğunun təsdiqlənməsini istədim. Bunlara baxmayaraq 6 iyun 2012-ci il tarixdə E.Əbdülrəhmanov məni həbs etdi".

A.Əsədullazadə deyir ki, 1 il 6 həbsdə saxlanılıb. Bu müddətdə 31 payçının MTK-ya ödədiyi 780 min manatı ödəyərək azad olunub: "Həbsdə olduğum dövrdə "A.R and Ko" şirkəti Ə.Qənbərovun müqaviləni birtərəfli qaydada ləğv etməsinin qeyri-qanuni olmasını mübahisələndirirdi. 17 dekabr 2013-cü ildə Bakı Apelyasiya Məhkəməsi iddianı təmin etdi. Müqavilə üzrə təhvil verilməmiş 8 min kvadrat metrdən 5 min kvadrat metr yaşayış sahəsinin natura şəklində "A.R and Ko"ya verilməsi öhdəliyini "Badi Kübə" MTK-nın üzərinə qoydu. Bu qətnamənin qəbulu mənim günahsız olaraq həbs edilməyimin sübutu oldu. Qarşı tərəf Ali və Konstitusiya Məhkəmələrinə üz tutdu, lakin mübahisələndirdi. Hər iki məhkəmə qərarı qüvvədə saxladı".

A.Əsədullazadə deyir ki, 2 fevral 2015-də Suraxanı Məhkəmə İcraçıları mübahisəli binaya gələrək məhkəmə qətnaməsini icraya ediblər: "Qənbrovun verdiyi siyahı üzrə mənzillər "A.R and Ko"ya təhvil verildi. Lakin sonradan məlum oldu ki, Qənbərov təhvil-təslimdə də dələduzluq edib. Məhkəmə icraçılarını, iştirakçı olan təşkilatların nümayəndələrini, nəhayət növbəti dəfə "A.R and Ko" şirkətini aldatdı. 53 mənzildən 50-sini başqa payçılara satdığı halda yenidən təkrarən öz borcu əvəzinə "A.R and Ko"ya verib. Maraqlı məqam odur ki, mənzillərin 5-i istisna olmaqla qalanları hamısı Nəsib və Zaurun tikdiyi bloklardan verilib. Qənbərov payçıları aldadaraq onları bilərəkdən mənim üzərimə yönləndirir. Mən həbsdə olarkən 31 mənzilin pulunu payçılara ödəmişəm. Həmin mənzillər "A.R and Ko"nun sahibliyinə qayıdıb. "A.R and Ko" ilə payçılar arasında çaxnaşma yaratmaq üçün bunu edib. "A.R and Ko"nun mülkiyyətinə verilən mənzillər hazırda Suraxanı Mühafizə şöbəsi mühafizə edir.

Maraqlı hal budur ki, KQMİ Ə.Qənbərovu cəzalandırıb ondan boş mənzillər almaq əvəzinə hər yolla "AR and Ko" mülkiyyətində olan mənzilləri alıb payçılara vermək istəyir. 2012-ci ildən mən "A.R and Ko"nun sahibi deyiləm. Buna baxmayaraq Ə.Qənbərov və KQMİ-nin müstəntiqi mənim adımı hallandırırlar. Baş verənlərlə məni bağlayır. Şikayətçiləri də bizim üstümüzə qaldırır".

A.Əsədullazadə deyir ki, onun Ə.Qənbərov və Firudin Əliyevlə şərikliyi yoxdur: "Bu adam mənim əmlakımı mənimsəyib, 1 il 6 ay qanunsuz həbsimə nail olub, bu gün də dələduzluq əməllərini davam etdirir. Şikayətlərim əsasında Ə.Qənbərov barəsində 4 ildir ki, dələduzluq maddəsi ilə cinayət işi gedir, lakin hələ də nəticəsi yoxdur. Onun himayəçiləri var".

❑ **E.MƏMMƏDƏLİYEV**

## Yanan binanı təmir edən şirkət dəyişdirildi



**Aprelin 10-da Xətai rayonu Zığ yolu 16 ünvanında yanan 9 mərtəbəli binanı təmir edən şirkət dəyişdirilib. Lent.az -ın məlumatına görə, bu barədə Xətai RİH-in başçısı Razim Məmmədov bildirib.**

Belə ki, sakinlər məlum yanğın hadisəsindən sonra binalarında aparılan təmir işlərinin keyfiyyətindən narazılıqlarını bildiriblər. Eyni zamanda Binəqədi rayonunda baş vermiş yanğın ilə əlaqədar sakinlərə ayrılmış kompensasiyanın onlara da şamil olunmasını xahiş ediblər.

Bir qrup zərərçəkəni qəbul edən icra başçısı onların qaldırdıqları bu məsələlərlə bağlı əlaqədar təşkilatlar qarşısında vəsatət qaldırıldığını deyib. O əlavə edib ki, artıq təmir işləri digər bir şirkətə həvalə edilib. Həmçinin sakinlərin diqqətinə çatdırılıb ki, bütün bu məsələlər dövlət başçısının və rayon icra hakimiyyətinin birbaşa nəzarəti altındadır.

# Köşkdə qəzetə, kitabçıda kitaba... yer yoxdu



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Ölkənin tərəzisi çoxdan pozulub, bununla razılaşıb, qınımıza çəkilmişik. O, ayrı... Amma hər gün bu tərəzinin gözlərinə öz xarabalıqlarından daş gətirib qoyanları görəndə gözümüz hədəqəsindən çıxır. Səndəmi Brut... deyib, təəccüblənirik.**

Bu ölkənin, bu paytaxtın adına qəzet köşkü deyilən yerində qəzetdən başqa hər şey satılır, hərrr şey... Alışqan, ödəmə kartı, uşaq oyuncağı, diş çöpü, siqaret, təsbeh. Amma ölkənin ən tirajlı qəzetini axtarırsan, ya yoxdu, ya da vitrinə qoymaq "yadda çıxıb". Rusiyada hansısa burnu fırtıqlı gədənin çap etdirdiyi avtomobil jurnalları belə var, amma qəzet tapılmır. Səbəbini soruşursan, ad-soyadını 5 səhvlə yazan satıcı sənə həyat dərsi verməyə çalışır: kimdi ee qəzet oxuyan? Halbuki beləsinin başına bir məmur özbaşınalığı gələn kimi, MİS müdirinin göz ağartmasından qorxuya düşən anda o "heç kimə lazım olmayan" qəzetin qapısına gəlir, dərdini orda deyir, səsini orda duyurur.

Mövzuya bir az uzaqdan başladığımın fərqindəyəm. Amma inhisarçılıq, biznes maraqları, siyasi göstəriş ucbatından itən dəyərlərimizdən danışmaq istəyirəm. Məlum, bir neçə gündür, saytlar yazır, biz də mövzuya toxunmuşuq: yazar Qan Turalın "9 hekayə" kitabına "Əli və Nino" kitablar mağazasında yer "tapılmayıb". Mağazadan yazara elə bu cür də deyiblər: anbarda yer yoxdur. Yazar da hər yerdə iddia edir ki, "bu, inhisarçılıqdır. Bu kitab mağazası şəbəkəsi ancaq "Qanun"da nəşr olunan kitabları satır, bu isə yazar hüquqlarının pozulmasıdır " və sair.

Girişdəki qəzet köşkü söhbətini əbəs yerə xatırlatmadım. Bəli, bu ölkə qəzet köşkündə qəzetə, kitab mağazasında kitaba yer olmayan ölkədir. Metrolarda kitab satışı zatən çoxdan qadağan olunub. Şəhərin mərkəzindəki kitab passajı da onun kimi, haqqın rəhmətinə qovuşub. O zaman hara gedək biz?

Arqumentlərə baxıram: yaxşı yazarın kitabı hər yerdə satılar...mış... Bu nə məntiq ya? O zaman yazar kitabını nəşr etdirən kimi qəssabxanalara, meyvə-tərəvəz yarmarkalarına getməli, satışını o cür təşkil etməlidir? Bu halda kitab mağazalarının funksiyası nə olacaq? Onlar da parfümeriya satacaqlar? Elədirsə, qəssab da əti şaqqalayıb dursun yolun ortasında, stomotoloq kafe-restoranların qabağında, əlində alətləri ilə müştəri gözləsin... Peşəkardır, harda olsa özünə çörək qazanacaq deyirsiz axı.... Bu məntiqlə hərə istədiyi yerdə fəaliyyət göstərsin, biz, potensial müştərilər də elimizdə çıraqla bu xidmətlərin harda verildiyini soraqlayaq, axtaraq, tapaq...

Dəfələrlə bu kitab mağazalarında olmuşam. Maşallah, hər açılan alış-veriş mərkəzində də filialları olur, yəni, biznеslərini inkişaf etdirirlər. Ölkədə kitab alan yoxdursa, bu çiçəklənmə nəyin göstəricisidir? İkincisi də, üzü astarından baha olan bu kitablar hansı məntiqlə, hansı rəy sorğusunun əsasında rəflərə düzülür, satışa qoyulur? Mağazada olduğum zaman da dəfələrlə satıcı qeyri-peşəkarlığının şahidi olmuşam. Onların yerinə kitab rəflərinin arasında sən eşələnməli, istədiyin kitabı özün tapmalısan. Qiymətlərdən isə heç danışmaq istəmirəm. Gömrük, yer haqqı, göy haqqı, kağız xərci deyib, qiymətləri "ceyran belinə" çıxarmaları adiləşib. Şəhərin ancaq mərkəzində kitab satılır, məlum. Məsələn, Binəqədi sakini kitab almaq üçün mütləq mərkəzə gəlməlidir. Mərkəzdə də belə..

O zaman da 8 mart öncəsi "sevgilim, mənə ətir yox, kitab hədiyyə et" tipli kampaniyalar sadəcə qeyri-səmimi görünür. Kitab mağazası kiçik ola bilər, darısqallıq da mümkündü. Amma sən bir gənc yazarla neçə ildir işləyirsənsə, bu günə qədər satışdan gəlir əldə etmisənsə, onun növbəti kitabı çapdan çıxanda da bir biznesmen olaraq maraqlanmalısan. Tamam, maraqlanmamısansa, "anbarda yer yoxdur" kimi gülməli arqumentin arxasında gizlənə bilməzsən. "Mənim xəbərim yoxdur" söhbəti Azərbaycanda uzun illərdir siyasi lətifəyə çevrilib, xüsusi xatırlatmaya ehtiyac görmürəm.

Və ən maraqlısı. Niyə bu günə qədər bu duruma bir tutarlı arqumentlə cavab verilmir? Satılmır? Statistika qoyun ortaya, satış rəqəmlərini. Biznes sirrindən söhbət gedə bilməz, kitabına mağazada yer olmadığı bildirilən müəlliflə bağlı hər şey şəffaf olmalıdır. Əslindəsə....lənət şeytana. İctimai nəzarətin sıfırın altında olduğu ölkədə kitabı kitab mağazasından da geri qaytara bilərlər. Soruşarsan, niyə? Abid Şərifov kimi adama qayıdarlar ki, Alabala, sənə nə?

İkincisi də, Azərbaycan reallığı var. Bu ölkədə heç kim heç kimin kitabını oxumur... Anbarda da ona görə yer yoxdu...

# Azərbaycanda buraxılan dondurmaların əksəri quru süddən hazırlanır

## Dondurma alarkən əsas nələrə diqqət etməli?

**Havaların isinməsi ilə dondurma və sərin sulara tələbat da artmaqdadır. Bu üzdən mağazalarda dondurma satışında həm qiymətinə, həm də növlərinə görə çeşid bolluğu var.**

Dondurmaların qiyməti 20 qəpikdən başlayır. Azərbaycanda yerli dondurmalarla yanaşı Türkiyə, Rusiya istehsalı olan dondurmalar da satılır. Onların qiyməti isə 70-80 qəpikdən başlayır. Satıcıların dediyinə görə, əhali daha çox yerli və ucuz dondurmalara üstünlük verir. Maraqlıdır, dondurma alarkən nələrə diqqət etmək lazımdır? Təzə dondurmanı necə seçmək olar?

Normalda dondurma kərə yağından hazırlanmalı və dilin üstünə qoyulanda təzə qaymaq dadı verməlidir. Amma bəzən işbazların dondurmanı istehsal edərkən tərkibinə marqarin, müxtəlif bitki yağlarını qatması onun yararlılıq müddətini azaldır. Xarici görünüşcə dondurmada kəsmiyəbənzər yağlılıq, qumabənzər köpüklülük əlamətləri olmamalıdır. Dondurmanın iyi və dadı bu növ məhsula xas olmalı, kənar iy və dad verməməlidir. Dondurmanın qablaşdırılması və saxlanılmasına gəlincə, ədədlə satılan xırda çəkilib-bükülmüş dondurmalar vafli stəkanlarda, parafinləşdirilmiş karton stəkanlarda, laminirləşdirilmiş sellofan paketlərdə, qapaqlı polistirol stəkanlarda və müvafiq səlahiyyətli orqanlar tərəfindən icazə verilən digər qablaşdırma materiallarında buraxıla bilər. Açıq şəkildə çəki ilə satılan dondurmalar isə daxildən qalaylanmış qapağı kip örtülən qablarda qablaşdırılır. Qapağın altından perqament və yaxud perqament altlıqlı kağız qoyulur. Çəki ilə satılan dondurmalar həmçinin daxilinə polietilen yerləşdirilmiş karton qutulara qablaşdırıla bilər.







Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov dondurma və suların keyfiyyətinin ürək açan olmadığını bildirdi: "Ərzaq mallarının keyfiyyətinə nəzarət kifayət qədər deyil. Ölkədə ərzağın təhlükəsizliyi haqda qanun yoxdur. Yalnız yalançı ekspertiza və saxta sənədlər var. Ona görə də keyfiyyətsiz malların istehsalı geniş yayılıb. Təsadüfi deyil ki, bu işdən narahat olan ABŞ-ın İnkişaf Agentliyi USAİD qidaların təhlükəsizliyini təmin etməklə bağlı təcrübə keçirdi. Bunun üçün Azad İstehlakçılar Birliyinə müraciət etdi və Azərbaycan İstehlakçılarının "qida təhlükəsizliyi nişanı" təsis olundu. Bu nişan dövlət qeydiyyatına alındı. Həmin nişanı biz dondurma müəssisələrinə şamil etmək üçün iş apardıq. Ölkədə təxminən 50-yə yaxın dondurma istehsalı müəssisəsi var. Onlardan yalnız birinə - "Camal LTD"nin İceland dondurmalarına nişan şamil edildi. Digərlərinin hamısında müxtəlif problemlər tapıldı. Bu onu göstərir ki, dondurma istehsalında və satışında problem yaşanır".

E.Hüseynov dondurmaların satış nöqtələrində saxlanma müddətinin əslində 20 gün olduğunu dedi: "Əhali bilməlidir ki, dondurmanı dilin üstünə qoyanda o qaymaq dadı verməlidir. Əgər dondurma boğazda acılıq verirsə, bu, o deməkdir ki, onun tərkibinə standartların əksi olaraq kərə yağı əvəzinə marqarin, bitki yağı qarışdırılıb. Əhali bilməlidir ki, dondurmalar mənfi 20 dərəcə temperaturda anbarda 3 aya yaxın saxlanıla bilər. Lakin satış şəbəkələrində dondurmaların saxlanma müddəti 20 gün olmalıdır. Əgər dondurma uzun müddət qalır və xarab olmursa, acılıq verirsə, bu o deməkdir ki, onun tərkibinə çoxlu kimyəvi maddələr qarışdırılıb. Azərbaycanda istehsal olunan dondurmaların əksər hissəsi quru süddən hazırlanır. Tərkibinə marqarinlər, piylər əlavə olunur. Bunların hamısı da dondurmaların keyfiyyətini aşağı salır və bəzən insanlarda xəstəlik əmələ gəlməsinə səbəb olur. Əhaliyə və kiçik yaşlı uşaqlara məsləhət görülür ki, bir həftədə 2-3 dəfədən artıq dondurma yeməsinlər".

Sərin suların keyfiyyəti məsələsinə gəlincə isə qurum sədri bununla bağlı da bir çox problemlərin olduğunu dedi: "Biz sularla bağlı monitorinq apardıq və çoxlu problemlərin olduğunu gördük. Suyun rəngi iyi dadı olmur. Buna görə də bilmirik ki, butulkalara doldurulub 8 manatadək satılan H2O adicə bulaqdan doldurulub, yoxsa təmizlənmiş sudur. Suların qiymətinin 40 qəpikdən 8 manatadək dəyişməsi onu göstərir ki, burada böyük problemlər yaşanır. Sual olunur ki, eyni H2O necə olur ki, baha və ucuz satılır. Bu problemi araşdırmaq üçün Azad İstehlakçılar Birliyi xüsusi olaraq suyun codluğunu ölçən cihaz əldə edib. Biz bu cihazla eksperimentlər apardıq və məlum oldu ki, Azərbaycan bazarında vəziyyət həddindən artıq ağırdır. Yəni istehlakçılar bəzən təmizlənmiş su, bəzən də təmizlənməmiş suyu şüşələrə doldurub satırlar. Ən təhlükəli məsələ isə o oldu ki, avtomobillərin akkumulyatoruna tökmək üçün olan su içində duzlar olan ən təhlükəli su kimi çıxdı. Azad İstehlakçılar Birliyi yenə də tədqiqatını davam etdirəcək. Yaxşı su istehsalçısını tapa bilsə, ona qida təhlükəsizliyi nişanını tətbiq edəcək və onu dünyanın 120 ölkəsində təbliğ edəcək. Sizin qəzet vasitəsilə dövlət orqanlarını saxta ekspertizalara son qoymağa çağırıram".

❑ **Günel MANAFLI**

**Fotolar müəllifindir**

# Ucarda məktəbli dəhşətli qəzanın qurbanı oldu

**Dünən səhər saatlarında Bakı-Qazax yolunun 219-cu kilometrliyində piyadanın vurulması ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Lent.az report-a istinadən xəbər verir ki, 2000-ci il təvəllüdlü Ucar rayon Təzə Şilyan kənd sakini İsrailov Mahir Yolçu oğlu yolu keçərkən Bakı istiqamətində hərəkətdə olan, 1994-cü il təvəllüdlü Muradov Sahil Fəxlədər oğlunun idarə etdiyi "57 BA 154" dövlət nömrə nişanlı yük maşını ilə vurulub.**

15 yaşlı məktəbli aldığı açıq kəllə-beyin travması nəticəsində hadisə yerində keçinib. Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsinin İstintaq və təhqiqat şöbəsində araşdırma aparılır.

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini

**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyadək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra

**Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Təcili! Mehdiabadın gözəl mənzərəli və hündür yerində 3.5 sot torpaq sahəsi satılır.**

**Bütün sənədləri qaydasındadır. 1 sot qiyməti 7500 və 3.5 sot cəmi 26250 AZN.**

**(055) 740-25-64 ANAR**

**Binəqədi-Xırdalan şosesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**

**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

YENİ MÜSAVAT
N 117 (6145) 1 iyun 2015

# Qadınların arıqlamaq üçün istifadə etdiyi ağlasığmaz üsullar

## Yayın ən gəlirli biznes obyektləri - idman salonları, üzgüçülük hovuzları...

**İdman salonuna girəndə qapının ağzında müəllimə ilə potensial müştərisinin söhbətinə qulaq “müsafiri” oldum. Məlum, mayın sonu, iyun ayının əvvəli idman salonları, baseynlərdə müştəri qaynayır. İnsanlar, özəlliklə də xanımlar qış boyu aldıqları çəkidən xilas olmaq üçün bütün yollara baş vururlar. “Yeni Müsavat”ın əməkdaşı bu mövzunu araşdırmaq üçün son günlər Bakının bir neçə idman salonunda, fitness klublarında olub. Görünən mənzərə yetərincə ilgincdir.**

### Məşqçi Leyla Axundova: “Qadınlar 15 gündə çatacağı kondisiyanı 2 dərsdə əldə etmək istəyir və...”

Hazırda qadınlar daha çox idman salonlarına üz tuturlar. Məşqçi yardımı ilə həftədə minimum 3 dəfə idman zalına getmək qadınların işinə yarayır. Amma bu halda da sistemsiz idman hərəkətləri işə faydadan çox ziyan verir. İdman salonlarından birində çalışan məşqçi Leyla Axundova deyir ki, qadınlarımız tez nəticə əldə etmək üçün bəzən özlərini gücə salırlar. Bu da son nəticədə əzələlərin ağrıması, idmandan tez yorulma, bezmə ilə nəticələnir: “Qadınlar gəlirlər salona, 15 gündə çatacaqları kondisiyaya 2 dərsdən sonra çatmağa çalışırlar. Ona görə də 3-cü dərsdə artıq əzələləri ağrıyır, idman etmək istəmirlər və sair. Bu səbəbdən də arıqlama planları yarıda kəsilir”.

Müsahibimiz deyir ki, idmanla məşğul olmaq qadınların təkcə fiziki görünüşünə yox, xarakterinə də təsir edir. Sağlam bədəni olan qadın daim psixoloji baxımdan da rahat olur, çevrəsinə qarşı daha pozitiv olur: “Mən bura gələn qadınlara məsləhət görürəm ki, idmandan çıxandan sonra üzgüçülüyə də getsinlər. Bu halda ikiqat nəticə əldə etmək mümkündür”.

Xatırladaq ki, hazırda Bakıda idman salonlarının aylıq ödənişi 50-60 AZN-dən başlanır. Amma bəzi salonlarda məşqçi ilə birlikdə aylıq ödəniş 100 manata yaxındır. Bununla yanaşı, arıqlamaq üçün qadınların müraciət etdiyi müasir üsullardan biri Zumba dərsləridir. Bu, əslində ritmik mahnıların müşayiəti ilə edilən bir rəqsdir və tərkibində çoxlu gimnastik hərəkət elementləri də var.

### Qorxu ilə arıqlamaq mümkündür

Öncə tibb ədəbiyyatlarından əldə etdiyimiz bəzi məlumatları nəzərə çatdıraq. Alimlər müəyyənləşdiriblər ki, 2 ilə 130 kiloqram arıqlamaq mümkün imiş. Özü də qorxu nəticəsində. Həkimlər boyu 162, çəkisi təxminən 200 kiloqram olan qadını müayinə edərək onun ömrünün sonuna maksimum 2 il qaldığını bəyan edib, yaşamaq üçün onun təcili arıqlamalı olduğunu bildirib. Bundan qorxuya düşən qadın sağlam qidalanmaya keçib, eyni zamanda hər gün hovuzda üzüb. Nəticədə 2 ildə 130 kiloqram arıqlayan amerikalı “2011-ci ilin arıqlaması” tituluna sahib çıxıb. Bir qorxunu bir dəfə yaşamaq olar. Növbətiləri isə artıq lətifəyə bənzəyir. Odur ki, reallığa qayıdaq. Öncə ondan başlayaq ki, qadınların (eləcə də arıqlamaq istəyən kişilərin) düşdüyü ən böyük tələ hansısa məşhur müğənninin reseptinə uymaqdır. Uzun illər türkiyəli qadınlar hər uşaqdan sonra kökələn, aldığı kiloları geri vermək üçün dietoloq qapısını yağır edən Sibel Can formulu əsasında arıqlamağa cəhd göstərdi. Halbuki dünyanın ən məşhur dietoloqları da səhər-axşam bar-bar bağırırlar ki, əslində hər orqanizm spesifik olduğu üçün onun üçün tətbiq olunacaq pəhriz formulu da spesifik olmalıdır. Yəni həkim nəzarətindən keçmədən, qan, təzyiq, şəkər analizləri vermədən hansı pəhrizin insana uyğun gəldiyini bilmək olmaz. Bundan başqa, eyni vaxtda həm ac alıb, həm aktiv idmanla məşğul olanlarda az-çox nəticə görünür. Yəni sərt, alman pəhrizi ilə 5-6 kilodan qurtulan elə eyni sürətlə də o kiloları geri alır.



**“Yox, mən yaxın bir ay ərzində 10 kilo arıqlamalıyam. Toy var, sonra tətilə gedəcəyik, çimərlik paltarının içində pis görünməməliyəm... Alınar bu müddətə?”**

Xatırladaq ki, bu sayaq həblərin tərkibində mərkəzi sinir sisteminə, baş beyinə təsir edən maddələr var və onlar birbaşa maddələr mübadiləsini pozur. Bəzi hallarda bunlar pasienti depressiv vəziyyətə də gətirib çıxarır. Məhz həmin səbəbdən bir çox inkişaf etmiş ölkələrdə onların istifadəsi, ümumiyyətlə, qadağan edilib.

### Onlar “iynəyə oturublar”...

Araşdırmamız zamanı bəzi gözəllik salonlarında (ad çəkib, reklam və antireklam etmək istəmədik) bir-iki seansla arıqlama təminatı verdiklərinin şahidi olduq. Maraqlıdır ki, əslində bu arıqlama nə vədi bədənin konkret nahiyələrində piylərin götürülməsi yolu ilə edilir. Əksər gözəllik salonlarında LPC deyilən müxtəlif cür aparatlar var. Bu aparatlar dərinin üstündən sürtülür, amma dəri altından birbaşa piylərə yox, onun üstünə nüfuz edir. Həkimlər hesab edir ki, bu üsulla arıqlama da əslində çox ziyanlıdır. Çünki dəri üstündən aparatla təsir edəndə dərialtında olan 3 komponent - fibrinogen, kollagen, elasten sıxlaşır. Bunun hesabına incəlmə gedir. Halbuki piy dərialtı təbəqədə qalır, getmir.

Mütəxəssislər onu da bildirir ki, əslində burada söhbət piyin əriməsindən yox, dərialtı təbəqənin preslənməsindən gedir. Və bu preslənmə qısa müddət sonra öz sözünü deyir. Yəni bir-birinə bitişmiş 3 komponent - fibrinogen, kollagen, elasten aralanmağa başlayır. Bədən yenidən köhnə şişmiş formaya qayıdır. Kilonun getməsi, arıqlama üçün piyin özünə təsir etmək lazımdır. Xatırladaq ki, əksər gözəllik salonlarında və fitness klublarda daha çox bu arıqlama metoduna üstünlük verilir. Nəticədə isə qadınlar qısa müddət aldadıcı arıqlıq hissi ilə yaşayır. Ardınca... xoş gəldin, yeni kilolar...

Araşdırma zamanı bir qədər bahalı və az sayda olan fitnes klublarda iynəbatırma, yəni akupunktura ilə arıqlama metodunun da tətbiq olunduğunu öyrəndik. Bu mərkəzlər daha çox Türkiyədə kurs keçmiş və ya türkiyəli mütəxəssisin rəhbərliyi ilə fəaliyyət göstərən klublardır. Onlarla maraqlandıqda isə məlum olur ki, bu arıqlama metodu Çin təbabətinə, akupunkturaya, iynəbatırmaya əsaslanır. Arıqlama proqramında blasterli qulaq iynələrindən və qızıl suyuna salınmış gümüş iynələrdən istifadə olunur. Bu iynələr bədənin müxtəlif nöqtələrindən iştah mərkəzlərinə, doyma mərkəzlərinə təsir edilir. 5 gündən bir keçirilən seanslarda xüsusi qulaq iynələri qulağa yapışdırılır. Pasient evinə, işinə-gücünə gedə bilər. 3 aylıq proqramda vaxtın uzanması xəstədə metobolik proseslərin bərpa olunmasından asılıdır. Çəkisi 100 kilodan çox olanlar 4-5 ay seansa gələ bilərlər.

### Bıçaq altına girənlər və ölümcül risklər...

Daha bir üsul isə, təbii ki, estetik cərrahiyyədir. Artıq Azərbaycanda qadınların daha intensiv olaraq, bu xidmətə müraciət etmələri də statistikadan bəllidir. Qadınlar daha tez və əziyyətsiz üsul kimi, əməliyyat vasitəsilə piylərdən, artıq çəkidən qurtulmanı tərcih etməyə başlayıblar. Estetik cərrahiyyənin bu növü isə işin masştabından asılı olaraq, fərqli tariflərlə təqdim olunur. Amma həkimlər hesab edir ki, estetik cərrahiyyə də insanın özünü aldatması deməkdir. Neyçün ki, əməliyyatla alınan kilolar da tezliklə geri qayıdır. Müraciət etdiyimiz sağlamlıq mərkəzlərindən birində isə bizə arıqlama proqramında idman tətbiq olunmadığı söylənildi. Belə ki, mərkəz nümayəndəsi iddia etdi ki, arıqlamaq istəyənlər idmanla bədənin piylərini sərtləşdirirlər. Nəticədə isə əzələ kütləsi artır. Əzələlər böyüdükcə piylər əzələ kütləsinin arasına keçir. Sərtləşmiş piylərinsə bədəndən çıxması çətinləşir: “Biz xəstəni idmandan tamamilə azad edirik. Yalnız gəzməyi, yeriməyi ciddi tövsiyə edirik”.

Sözügedən mərkəzdə xəstələrə xüsusi qidalanma proqramı da verilir. Gündə 5 dəfə nə qədər və nə yeyəcəkləri qrafikdə bildirilir. Bundan başqa, elə həmin mərkəzin dieta mütəxəssisləri xəstələrə bol miqdarda qaynanmış su içməyi tövsiyə edirlər. Formula belədir: bədənimizin su ilə yuyulması kimi içimizin də yuyulması su ilə olmalıdır. Su xolesterolu, şlakları təmizləyir. Gündə 2 litr su içmək lazımdır. Pasientin ərimiş, dağılmış yağları, piyləri sidiklə və bağırsaqlarla bədəndən xaric olunur.

Bəs bu arıqlama vasitələrinin məbləği nə qədərdir? Araşdırma zamanı məlum oldu ki, estetik cərrahiyyə (liposaksiya) - əksər klinikalarda təxminən eyni qiymətdir. Cəmi bir bölgənin liposaksiyası 350 manatdan başlayır.

Akupunktu ilə arıqlamanın hər seansı isə 30-35 manat arasında dəyişir. Tutaq ki, 8 kilo artıq çəkisi olan şəxs 10 seansa gəlməlidir. Bu halda endirim də edilir. 200-220 manata 8 kilodan qurtulmaq mümkündür. LPC aparatla arıqlama vəd edən sağlamlıq mərkəzlərində də hər seans üçün 15-20 manat tələb olunur. Bu işi professional həkimlərin etdiyi deyilsə də, bəzən naşılar iş görür.

### Arıqlamaq üçün ən uyğun yaş.... 28-dir...

Amerikada 3 min qadın arasında aparılan araşdırma göstərib ki, arıqlamaq üçün ən uyğun yaş 28-dir. Araşdırma 28 yaşını keçən qadınlarda arıqlamağın daha çətin olduğunu göstərib. Qadınlardan 60 faizi arıqlamağın uyğun bir yaş həddi olduğunu təsdiqləyib. 40 faizi isə bunun iradədən asılı olduğunu deyib. Araşdırma 30 yaşdan yuxarı qadınlar üzərində aparıldığından mütəxəssislər arıqlamaq üçün ən uyğun yaşın 28 olduğunu təxmin edir. Çünki 28 yaşda bədən hələ də özünü yeniləyə bilir və maddələr mübadiləsi zəifləməyib.

Britaniyalı mütəxəssis, professor Kris Haukey hesab edir ki, heç bir pəhrizin faydası yoxdur. Professor pəhriz saxlamaqdansa, yeməklərə diqqət etməyi, sağlamlıq üçün faydalı qidalar qəbul etməyi məsləhət görür. Lids Universitetinin professoru Andrey Hill isə insanların sürətli və asan arıqlamaq üçün yollar axtardığını, bu yolların az olduğunu deyib. O, insanların çəkisinin artdıqca çəki verməsinin daha da çətinləşdiyini vurğulayıb.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 117 (6145) 1 iyun 2015

# Rolls Royce ən çox Çində satılır

Son zamanlar Rolls-Royce markalı maşınların ən çox satıldığı yer Çin imiş. Xüsusi sifarişlə hazırlanan bu maşını ən çox alan ikinci ölkə isə Birləşmiş Ərəb Əmirlikləridir. Abu-Dabidə yerləşən "Abu-habi Motors" adlı maşın agentliyi 2003-cü ildən bəri min ədəd Rolls-Royce markalı maşın sataraq rekord qırıb. BƏƏ-də maşına vergi verilmədiyindən sözügedən maşınların qiyməti 200 min dollardan başlayır. Məlumatlara görə, bu maşının ən çox satılan modeli "Phantom"dur. Onlar "Bespoke" proqramının köməyi ilə internetdən yeni sahibinin istəyinə uyğun dizayn edilə bilir. İstəyə uyğun olaraq hazırlanan "Suheyl" kolleksiyası ərəb kaşif İbn əl Haytamdan ilham alınaraq hazırlanıb. Qeyd edək ki, Rolls-Roycenin ilk və tək böyük qalereyası Əbu-Dabidədir.





## Boşanan cütlük məhkəmədə ət davasına çıxdı

İtaliyada yaşayan cütlük boşandıqdan sonra məhkəmə onların övladlarının anası ilə yaşamasına qərar verib. Uşaq həftəsonları atası ilə görüşməyə başladıqdan sonra onlar arasında yenidən narazılıq yaranıb. BBC-nin xəbərinə görə, vegetarian olan ana övladını da belə böyüməyə məcbur etməyə başlayıb. Atası həftə sonları oğluna ət yeməkləri yedirtsə də anası bu vəziyyətdən şikayət etməyə başlayıb. Ata oğlunun ətdən məhrum edildiyini deyərək məhkəməyə şikayət edib. Ata-ananın məhkəməyə müraciətindən sona 12 yaşlı uşağın ət yeməsi haqqında qərar çıxarılıb. Hakim ananın ən az həftədə bir dəfə uşağa ət yeməyi bişirməsi haqda qərar çıxarıb. Ata isə uşağa həftə sonu maksimum iki dəfə ət yedizdirə bilər.



## Uşağın qarnından əkizi çıxdı

Çinin Çanqzou bölgəsində baş verən hadisə həkimləri şoka salıb. Yeni doğulmuş uşağın qarnındakı şişkinlik və çəkisindəki anormallıq həkimləri təəccübləndirib. Müayinə edilən uşağın qarnında 16 santimetr böyüklüyündə cisim olduğu aşkarlanıb. 8 günlük uşağı əməliyyat etməyə qərar verən həkimlər uşağın qarnını açdıqları zaman qəribə həqiqətlə üzləşiblər. Belə ki, uşağın qarnındakı şişin əslində uşağın parazit əkizi olduğu məlum olub. Uşağın qarnındakı əlavə kütlə çıxarıldıqdan sonra səhhəti yaxşılaşıb. Məlumat üçün bildirək ki, parazit əkiz sindromu hər il doğulan 500 mindən bir uşaqda görünür.

## Maşının qabaq şüşəsində telefon olacaq

Amerikanın San-Fransisko şəhərində yerləşən "Navdy" firması yeni hazırladığı "köməkçi ekran" vasitəsi ilə maşın sürücülərinin təhlükəsizliyini gücləndirməyi planlaşdırır. Yeni cihaz maşının ön şüşəsinə yapışdırılır və sürücünün gözünü yoldan ayırmadan telefonla danışmasına kömək edir. Cihazın ekranından naviqator kimi də istifadə etmək mümkündür. Bundan əlavə sms göndərmək, maşının sürətini, benzin, motor haqqında məlumat almaq mümkündür. Yeni texnologiya pilotların da işinə yarayacaq. Yaxın zamanlarda satışa çıxarılacaq cihazın qiyməti 300 dollar olacaq.



## 3 il əvvəl ölmüş qardaşını gördü

Amerikada yaşayan Rebekah Aversano adlı qadın 3 il əvvəl avtomobil qəzasında itirdiyi qardaşının üzünü bu günlərdə yenidən görüb. Belə ki, 2012-ci ildə ölən Josuha Aversanonun üzü Virciniya ştatında yaşayan başqa bir gəncə köçürülüb. 1997-ci ildə bombalı silahla üzündən vurulan Riçard Norrisə Rebekanın qardaşının üzü köçürülüb. Əməliyyatdan 3 il sonra "Channel 9" adlı televiziya kanalı Rebekaya qardaşının üzü köçürülən şəxslə görüşməyi təklif edib. Təklifi qəbul edən qadın R.Norrisi gördüyü zaman ağlamağa başlayıb. Qardaşının üzünün heç dəyişdirilmədən köçürüldüyünü görən qız ağlamağa başlayıb. Qardaşını bir daha görəcəyini ağlına belə gətirməyən Rebeka Riçardı gördüyü zaman sevindiyini deyib.




**QOÇ** - Göy qübbəsi yalnız ev-eşiklə məşğul olmağınızı tövsiyə edir. Digər işləri isə təxirə salmağınız məsləhətdir. Yaşca sizdən kiçik olanlara qayğınızı artırın. "Hirsli başda ağıl olmaz".

**BUĞA** - Ulduzların düzümü səhhətinizlə bağlı bəzi problemlərlə rastlaşa biləcəyinizdən xəbər verir. Bu səbəbdən də orqanizminizə zidd olan ağır işlərdən yayınmalısınız.

**ƏKİZLƏR** - Bütün enerjinizi fəaliyyət prinsipinə istiqamətləndirin. Çünki gələcək perspektivləriniz ayın bu ilk günündən birbaşa asılı olacaq. Hər bir sövdələşmədə ötkəm olun.

**XƏRÇƏNG** - Təzə əlaqələr yaratmaq üçün ideal ərəfədir. Çox güman ki, bir neçə yeniliyin şahidi olacaqsınız. Sevindirici təkliflər də labüddür. Axşam qonaqlığa getmək sizə rahatlıq gətirəcək.

**ŞİR** - Bütün astroloji göstəricilər bu təqvimdə maraqlı səfərlərə çıxacağınıza işarə edir. Ürəyinizcə olan maraqlı adamlarla görüşləriniz də labüdləşəcək. Qətiyyən ac qalmayın.

**QIZ** - İyunun bu ilk günü sizin üçün həddindən ziyadə uğurlu keçəcək. Yalnız saat 13-15 arası mübahisələr mümkündür. Maraqlı şəxslərlə rastlaşmağınız, eləcə də yeni təkliflər sizi sevindirəcək.

**TƏRƏZİ** - Demək olar ki, günün bütün saatlarında ümumi ovqatınız xoş olacaq. Ünsiyyətdə olduqlarınız sizi anlayacaq. Əgər büdcəniz imkan versə, uzaq səfərə çıxmağa dəyər.

**ƏQRƏB** - Astroloji göstəricilər iyunun bu ilk günündə nahardan sonra uzaq səfərə çıxmağınızı məsləhət görür. Digər sahələrdə bir qədər passivlik hökm sürdüyündən gün ərzində neytral qalmalısınız.

**OXATAN** - İxtiyarınızda olan bu təqvimdə üzərinizə böyük öhdəliklər düşür. Nəticənin uğurlu olacağını nəzərə alıb əzmkarlığınızı daha da artırın. Nahardan sonra büdcənizdə artım mümkündür.

**OĞLAQ** - Saat 13-ə qədər ev şəraitində olmağınız vacibdir. Riskli iş görmək, uzaq yola çıxmaq yolverilməzdir. Əks təqdirdə əsəbi məqamlar yaşayacaqsınız. Axşamsa qonaqlıq gözlənilir.

**SUTÖKƏN** - İkitərəfli əlaqələr zəminində çox uğurlu gedişlər edə bilərsiniz. Bu ay üçün nəzərdə tutduğunuz iş planlarını məhz indi təyin etməlisiniz. Aldığınız təkliflər yalnız xeyrinizə ola bilər.

**BALIQLAR** - O qədər də uğurlu gün deyil. Bir tərəfdən ətrafınızda lazımi adamların olmaması, digər tərəfdənsə əsəbi situasiyalar ovqatınızı korlaya bilər. Özünüzü təmkinli aparmağa çalışın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Narko-saytın sahibinə ömürlük həbs verildi



Amerikada internet vasitəsi ilə narkotik satan Silk Road adlı saytın sahibinə ömürlük həbs cəzası verilib. Araşdırmaçılar "dərin internetdə" narkotik satan saytın sahibinə 200 milyon dollar qazandırdığını deyirlər. 31 yaşlı Ross Ulbrik narkotik satışı və başqa 6 cinayət işinə görə ömürlük həbs cəzası alıb. 3 ildir işləyən sayt TOR sistemi ilə çalışır. Yəni buradan alış veriş edənlərin harada yaşadığı, kimliyi görünmür. TOR sistemi Amerika hökuməti tərəfindən bəzi qrupların kimliyi bəlli olmadan çalışması üçün qurulub. Lakin bu sistem daha çox qanunsuz işlər üçün istifadə edilir. Silk Roaddan bütün narkotik vasitələri almaq mümkündür. İzlənilməsi olduqca çətin olan saytdan saxta pasport almaq belə mümkündür. Saytın təxminən bir milyon istifadəçisi var. Lakin mütəxəssislər bunlardan neçəsinin aktiv istifadəçi olduğunu bilmirlər.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.